RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 170 (9337) 12 AVQUST 2023-cü il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR






# Dövlət gənclər siyasətinə xüsusi önəm verir

## Prezident İlham Əliyev bu nəslin hərtərəfli inkişafına böyük qayğı göstərir

Ulu Öndər Heydər Əliyevin 1997-ci il 2 fevral tarixli fərmanına əsasən, ölkəmizdə həmin gün Azərbaycan Gəncləri Günü elan edilib. O vaxtdan indiyədək bu tarixi gün MDB məkanında və Şərqi Avropa ölkələrində ilk dəfə olaraq Azərbaycanda təntənəli qeyd edilməyə başlanıb. Xeyli sonra gənclərin işləri üzrə nazirlərin ümumdünya konfransının (1998-ci il avqustun 8-12-də) tövsiyəsi əsasında BMT Baş Məclisinin 1999-cu il 17 dekabr tarixli qətnaməsi ilə 12 avqust - Beynəlxalq Gənclər Günü elan edilib. Bu günlə əlaqədar gənclərə lazımi diqqət göstərmək, onların nailiyyətlərini təbliğ etmək, böyüməkdə olan nəslin cəmiyyətin bütün sahələrində iştirakına təkan vermək dövlətin prioritet istiqamətlərindən birinə çevrilib.

Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu gənclər siyasətinin Prezident İlham Əliyevin rəhbərliyi ilə müasir dövrün tələblərinə uyğun davam etdirilməsi bu təbəqənin hərtərəfli fəaliyyətinə geniş imkanlar yaradıb. Ötən ilin sonlarında Azərbaycan gənclərindən ibarət ekofəalların Qarabağda təbii sərvətlərimizin ermənilər tərəfindən qeyri-qanuni istismarının qarşısının alınması məqsədilə üç aydan çox davam edən aksiyası da gənclərin vətənə nə qədər bağlı olmasının bariz nümunəsi idi. Bütün dünya azərbaycanlılarını ayağa qaldıran aksiya nəticə etibarilə məmnunluq doğurdu. Xalqın və milli dövlətçiliyin təəssübkeşi olmaqla, beynəlxalq qanunlar çərçivəsində fəaliyyət göstərmək, haqqın-ədalətin müdafiəsində olmaq qürur hissi yaratdı. Cari il iyul ayının son günlərində Şuşada keçirilən Qoşulmama Hərəkatının Gənclər Təşkilatının yaradılması dünya azərbaycanlılarının təşkilatlanması baxımından bu prosesin kulminasiya nöqtəsinə çevrildi. 2023-cü il 25 - 29 iyul tarixlərində keçirilən Qoşulmama Hərəkatının Gənclər Sammiti çərçivəsində Hərəkatın 61 illik tarixində ilk dəfə olaraq bu təşkilata üzv olan ölkələrin gənclərini bir araya gətirən Gənclər Təşkilatı yaradıldı.

→ 9

# Ağ Ev "ağ" yalanlar uydurur

## Vaşinqtonun məqsədi heç də ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə hörmət etmək deyil

Azərbaycan bütün dünya dövlətləri, o cümlədən də Amerika Birləşmiş Ştatları ilə BMT Nizamnaməsi və beynəlxalq hüquq prinsipləri əsasında xoş münasibətlər qurmaq, ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək niyyətini həmişə bəyan edib. Təsadüfi deyil ki, ABŞ-nin qlobal təhlükəsizlik çağırışlarına ilk müsbət reaksiya verən, bölgədə Vaşinqtonun əsas ticari tərəfdaşı kimi həlledici rol oynayan da Azərbaycandır.

ABŞ-Azərbaycan münasibətləri qarşılıqlı hörmət əsasında qurulsa da, əlaqələrimiz dövlət səviyyəsində yüksək olsa da, bunun fonunda fərqli münasibətin şahidi oluruq. Belə ki, Dövlət Departamentinin hazırladığı hesabatlarda erməni lobbisinin açıq-aydın izi görünür. Əslində ABŞ Dövlət Departamentinin hazırladığı hesabatlar siyasi maraqlar üzərində qurulur, sifarişlər əsasında hazırlanır. Hesabatlarda heç bir araşdırma aparılmadan müəyyən dairələrin təqdim etdiyi qərəzli informasiyalara yer verilir.

Son vaxtlar xüsusilə ABŞ-nin ikili standartlarla iş apardığının çox şahidi oluruq. Hər şeyə rəğmən, Azərbaycan iki ölkə arasında strateji münasibətlərin qorunmasında maraqlıdır. Lakin ölkəmizə qarşı səsləndirilən qərəzli fikirlər Azərbaycan tərəfindən qəbul edilmir.

→ 2

# Azərbaycan XİN Ermənistanın baş nazirinə cavab verib

"Azərbaycanın 20 faizə yaxın torpaqlarının işğalı nəticəsində azərbaycanlılara qarşı kütləvi qırğınlar törətmiş, nəinki bu torpaqlardan Ermənistan ərazisindən də azərbaycanlılara qarşı etnik təmizləmə həyata keçirmiş bir ölkənin rəhbərinin etnik təmizləmə iddiaları səsləndirməsinə mənəvi haqqı yoxdur.

Ermənistanın bu iddiaları davamlı olaraq təkrarlaması göstərir ki, Laçın sərhəd-buraxılış məntəqəsi təsis edilənədək Ermənistanın Laçın yolundan istifadə etməklə həyata keçirdiyi qeyri-qanuni fəaliyyətin məntəqə təsis edildikdən sonra qarşısının alınması bu ölkəni narahat edir.

Erməni sakinlərin həqiqətən də iddia olunduğu kimi gündəlik tələbat mallarına ehtiyacları varsa, bunun üçün Azərbaycanın təklif etdiyi və beynəlxalq tərəfdaşların dəstəklədiyi Ağdam-Xankəndi yolundan istifadə edilməsi mümkündür.

Ermənistan tərəfi, əsassız şəkildə "humanitar böhran" barədə iddialar yaymaq və Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı təxribatlar törətmək əvəzinə, bölgədə sülh və sabitlik istiqamətində səy göstərməlidir".

→ 2

# BMT-nin Ali Komissarına müraciət:

## *Etnik təmizləmə törədənlər və qayıdışımıza mane olanlar məsuliyyətə cəlb edilməlidirlər*

Azərbaycanlı əhalinin Ermənistandan zorla qovulması, insan ləyaqəti və bərabərlik prinsiplərinə xələl gətirməklə, beynəlxalq konvensiya və müqavilələrə zidd insan hüquqlarının çoxsaylı və kobud pozuntulara səbəb olub. Ermənistan orada yaşamış azərbaycanlılara qarşı qırğın, terror, hədə-qorxu törətməklə, əmlaklarını qanunsuz ələ keçirməklə, onları təhlükə və ya az dəyərli varlıqlar kimi qələmə verən sistemli təbliğat və insanlıqdan məhrumetmə kampaniyası aparmaqla, onların hərəkət azadlığını və resurslara çıxışını məhdudlaşdırmaqla etnik təmizləmə aparıb, Ermənistan hakimiyyət orqanları, həmçinin azərbaycanlıların qəbiristanlıqlarını, dini ocaqlarını, mədəni və tarixi abidələrini dağıdıb. Ermənistan hökuməti bunları törədib azərbaycanlıları fiziki olaraq didərgin salmaqla kifayətlənməyib, həm də onların bir etnos kimi izlərini o torpaqlardan silməyə cəhd edib.

1987-1991-ci illərdə Ermənistanın azərbaycanlılara qarşı apardığı etnik təmizləmə nəticəsində bu gün həmin ölkədə bir nəfər də olsun azərbaycanlı qalmayıb. Ermənistan qovduğu yüz minlərlə azərbaycanlının geri qayıtmaq hüququnu təmin etməkdən imtina etməklə, onların iztirablarını daha da artırır. Ermənistan dəfələrlə etdiyimiz çağırışlara rəğmən, bizimlə insan hüquqlarımız mövzusunda dialoqa başlamaqdan belə qəti şəkildə imtina edir.

Azərbaycanlıların Ermənistandan zorla qovulmaları və Ermənistanın onların tarixi vətənlərinə geri qayıtmasına imkan verməməsi aşağıda göstərildiyi kimi, çoxsaylı fundamental insan hüquqlarının kobud şəkildə pozuntusudur.

→ 3

# *Boqdan DRAPYATIY:* "Ukrayna Azərbaycanın humanitar yardımlarını yüksək qiymətləndirir"

Azərbaycan Prezidenti İlham Əliyev Ukrayna dövlətinə elektrik avadanlıqları üçün 7,6 milyon dollar ayrılması haqqında sərəncam imzalayıb. Artıq müvafiq avadanlıqlar hazırlanır və maddi-texniki təchizat işlənir. Yaxın vaxtlarda Ukrayna Azərbaycandan generator və transformatorlar alacaq. Azərbaycan Ukraynaya humanitar yardım göstərməyə və bunu genişləndirməyə davam edəcək.

Tibbi və psixoloji reabilitasiya məqsədilə Azərbaycana ukraynalı uşaqların göndərildiyini vurğulayan S.Mərdəliyev göstərilən humanitar yardımların səmimi olduğunu, uşaqların sosial reabilitasiyası proqramlarının davam edəcəyini bildirib. O, Londonda keçirilən Ukraynanın Bərpası Konfransında elan olunduğu kimi, Azərbaycanın Ukraynada bərpa layihələrində iştirak edəcəyini diqqətə çatdırıb, minatəmizləmə işləri üçün avadanlıqların veriləcəyini qeyd edib. Artıq bu istiqamətdə işlər aparılır. Eyni zamanda Ukrayna tərəfinin xahişi ilə Azərbaycan minatəmizləmə işlərində öz təcrübəsini bölüşəcək.

→ 4

# Prezident İlham Əliyevin siyasəti yeni reallıq yaradıb

Prezident İlham Əliyevin qətiyyəti və strateji məharəti ilə ermənilərin Azərbaycan xalqına qarşı dövlət səviyyəsində həyata keçirdikləri bu tarixi cinayətlərə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində əldə edilən uğurlar Ermənistan rəhbərliyini, erməni lobbisini ciddi narahat etməyə başlayıb. Dövlət başçısının 44 günlük Vətən müharibəsindən dərhal sonra Qərbi Azərbaycan tarixinin öyrənilməsi, araşdırılması, tarixi həqiqətlərin beynəlxalq müstəvidə təbliği və deportasiyaya məruz qalmış Qərbi azərbaycanlıların hüquqlarının müdafiəsi ilə bağlı irəli sürdüyü təşəbbüslər haqsız iddialarla çıxış edən Ermənistan və müttəfiqlərinin danışıqlar prosesində mövqeyini sarsıdıb, gündəliyin tamamilə rəsmi Bakının təşəbbüsü ilə formalaşmasını şərtləndirib. Prezident İlham Əliyevin bu strategiyası 44 günlük Vətən müharibəsinin danışıqlar masasında davamı kimi dəyərləndirilməlidir.

Ermənistan baş naziri Nikol Paşinyanın Qərbi Azərbaycan məsələsinə bu formada isterik və emosional reaksiya verməsi bundan doğur. Erməniləri tarixi faktlar təkzib edir, Nikol Paşinyanı məhz tarixi sənədlər yalançı çıxarır.

→ 4

# Pakistan mətbuatında Ermənistanın çirkin təbliğatı ilə bağlı məqalə dərc olunub

Ermənilərin Pakistana qarşı mövqeyi nifrətə əsaslanır. Belə ki, Pakistan Qarabağ məsələsində haqlı mübarizəsində daim Azərbaycan dövlətini və xalqını dəstəkləyib. Pakistan Azərbaycan ərazilərinin qanunsuz işğalı ilə əlaqədar Ermənistanı müstəqil ölkə kimi tanımır. Eyni zamanda Pakistan Qarabağ bölgəsinin Ermənistanın işğalından azad edilməsi üçün Azərbaycana ciddi dəstək verib.

→ 4



# İqtisadi islahatlar real perspektivlərə hədəflənir

→ 10

"Böyük qayıdış" proqramı sürətlə icra olunur

# Zəngilan növbəti sakinlərini qarşılayır

Bu gün - avqustun 12-də daha 106 nəfərin Ağalı həsrətinə son qoyulur. Onlar da digər həmkəndliləri kimi sevinc içində, qürurla öz el-obalarına dönürlər. Yəni Ağalıda daha 22 ailənin evinin işığı yanacaq. Bununla da, Ağalıda yaşayanların sayı 500 nəfəri keçmiş olacaq. Xatırladaq ki, ilkin mərhələdə kənddə 200 ev tikilsə də, daha sonra təqdim olunan yeni layihəyə əsasən, kəndin genişləndirilməsi və əlavə 150 evin inşa edilməsi, o cümlədən ikimərtəbəli, üçmərtəbəli mənzil tipli evlərin inşa edilməsi nəzərdə tutulmuşdu.

→ 11

# Ağ Ev "ağ" yalanlar uydurur

## Vaşinqtonun məqsədi heç də ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə hörmət etmək deyil

Son 10 illiklər ərzində dünyanın fövqəldövlətlərindən olan ABŞ-nin Dövlət Departamentinin və digər müxtəlif komissiyalarının mütəmadi olaraq qəbul etdikləri hesabatlarda anti-Azərbaycan mövqeyinin, ermənipərəst davranışların şahidi olmuşuq. Məsələn, ABŞ-nin Dövlət Departamentinin hər il dünyada insan haqları və dini azadlıqlarla bağlı dərc etdiyi hesabatlarında ikili standartlara yol verilir, qərəzli məlumatlar paylaşılır.









Ümumiyyətlə, bu hesabatların istinad edildiyi mənbələrin və orada yer alan faktların obyektivliyi şübhə doğurur. Hesabatlarda Azərbaycanla bağlı, demək olar ki, hər il həqiqəti əks etdirməyən iddialar irəli sürülür. Amma Ermənistan hədəfdən kənarda saxlanılır. Bu, bir daha sübut edir ki, ABŞ Dövlət Departamenti müəyyən səbəblərdən, eləcə də erməni lobbiçilik institutunun təsiri altında qərəzli mövqe tutur. ABŞ rəsmiləri bunu ayrı-ayrı konqresmenlərin özfəaliyyəti kimi dəyərləndirsələr də, belə yanaşma Azərbaycan tərəfindən qətiyyən qəbul edilmir.

Bununla bağlı fikirlərini öyrəndiyimiz Milli Məclisin deputatları bildirdilər ki, ABŞ Dövlət Departamentinin hər zaman Azərbaycana qarşı ikili standartlar prinsipi ilə yanaşması danılmaz faktdır.

### ABŞ artıq anlamalıdır ki, dünyanın tək gücü deyil

Milli Məclisin deputatı Bəhruz Məhərrəmov deyib ki, Azərbaycan bütün dünya dövlətləri, o cümlədən də Amerika Birləşmiş Ştatları ilə BMT Nizamnaməsi və beynəlxalq hüquq prinsipləri əsasında xoş münasibətlər qurmaq, ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək niyyətini həmişə bəyan edib. Təsadüfi deyil ki, ABŞ-nin qlobal təhlükəsizlik çağırışlarına ilk müsbət reaksiya verən, bölgədə Vaşinqtonun əsas ticari tərəfdaşı kimi həlledici rol oynayan da Azərbaycandır.

"Bu ilin may ayında Prezident Cozef R.Baydenin cənab İlham Əliyevə ünvanladığı 28 May - Müstəqillik Günü münasibətilə təbrikində də ifadə etdiyi kimi, "Azərbaycanla Birləşmiş Ştatlar arasındakı tərəfdaşlıq regionda inkişafı təmin edib. Biz birlikdə terrorizmlə mübarizə aparır, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı tədbirlər görür və kütləvi qırğın silahlarının yayılmasının qarşısını alırıq". Lakin çox təəssüflər olsun ki, hətta ABŞ Prezidentinin özünün belə açıq şəkildə ifadə etdiyi bu əhəmiyyətli məqamlar, bir sıra hallarda Vaşinqtonun ikili standartlarının qarşısını ala bilmir", - deyə deputat qeyd edib.

Bəhruz Məhərrəmovun sözlərinə görə, tarixi təcrübə göstərir ki, ABŞ-də heç bir lobbiçilik fəaliyyəti Vaşinqtonun dövlət maraqlarını üstələyə bilməz. Əgər konqresmen və senatorların, ayrı-ayrı dövlət qurumlarının təmsilçilərinin, Dövlət Departamentinin qeyri-rəsmi "mətbuat orqanı" kimi tanınan çap mətbuatının gündəmində Azərbaycana qarşı qərəzli kampaniya varsa, əminliklə demək olar ki, bu elə dövlət səviyyəsində dəstəklənən xətt və riyakar mövqedir.

Vaşinqtonun dolayı riyakarlığı barədə uzun araşdırma və təhlillərə ehtiyac olmadığını deyən deputat qeyd edib: "Otuz il ərzində Azərbaycan ərazilərinin 20 faizi işğalda qalarkən, 1 milyon əhali məcburi köçkün həyatı yaşayarkən heç bir bəyanat verməyən ABŞ-nin bu gün Gürcüstana, Ukraynaya ərazi bütövlüyü məsələsində açıq dəstək ifadə etməsi elə ən böyük riyakarlıqdır. Bu, bir daha göstərir ki, Vaşinqtonun əsas məqsədi heç də ölkələrin ərazi bütövlüyünə və suverenliyinə hörmət etmək deyil".

Bəhruz Məhərrəmov vurğulayıb ki, Ermənistandakı səfirliyi vasitəsilə Qarabağdakı terrorçulara Birləşmiş Ştatlara səfərə gəlmək üçün vizalar verən Vaşinqtonun bu gün Krım, Abxaziya, Cənubi Osetiya separatçılarına qarşı sanksiyalar tətbiq etməsi heç vaxt onun separatizmlə mübarizə aparması anlamına gələ bilməz: "Yaxud Meksika ilə sərhəd boyu nəhəng sədd çəkən, səfirliklərində viza verilişini mürəkkəb labirintə çevirən Vaşinqtonun Azərbaycanın suveren ərazisində sərhəd-buraxılış məntəqəsi qurmasına birmənalı olmayan münasibəti fonunda biz ABŞ-yə ədalətli beynəlxalq subyekt kimi baxa bilmərik. Bundan savayı, günü bu gün müharibə cinayətləri törətməkdə davam edən, işğal etdiyi Azərbaycan torpaqlarında 30 il davamlı ekosid, urbisid və kulturasid törədən, hələ də ərazilərimizdə silahlı qüvvələr saxlayan, habelə bu gün Cənubi Qafqazda ən çox jurnalist və siyasətçini məhbus saxlayan Ermənistanı "Demokratiya sammiti"nə dəvət edən ABŞ-nin ikili standartlarını sübut etməyə ehtiyac yoxdur".

Deputat əlavə edib ki, ABŞ Dövlət Departamentinin qeyri-rəsmi nəzarətində olan media orqanları yenidən Azərbaycana qarşı böhtan kampaniyası başlayıbsa, buna görə media azadlığından sui-istifadə edən muzdlu jurnalistlər yox, birbaşa Vaşinqton özü məsuliyyət daşıyır. ABŞ artıq mövcud reallıqları nəzərə almalı və anlamalıdır ki, o, dünyanın tək gücü deyil: "Əgər Vaşinqton regionda mövcudluğunu qorumaq, maraqlarını təmin etmək istəyirsə, bunu məğlub Ermənistanı proteksiya etməklə, yaxud Gürcüstan və Ukraynanın fəlakətinə səbəb olan saxta dəstəklə yox, Azərbaycanla tam bərabərhüquqlu tərəfdaşlığı ilə təmin edə bilər".

### Sifarişli hesabatlar, ikili standartlar və selektiv yanaşmalar

Milli Məclisin deputatı Azər Badamov da mövzu ilə bağlı bizimlə fikirlərini bölüşüb. Deputat deyib ki, ABŞ-Azərbaycan münasibətləri qarşılıqlı hörmət əsasında qurulsa da, əlaqələrimiz dövlət səviyyəsində yüksək olsa da, bunun fonunda fərqli münasibətin şahidi oluruq. Belə ki, Dövlət Departamentinin hazırladığı hesabatlarda erməni lobbisinin açıq-aydın izi görünür. Əslində ABŞ Dövlət Departamentinin hazırladığı hesabatlar siyasi maraqlar üzərində qurulur, sifarişlər əsasında hazırlanır. Hesabatlarda heç bir araşdırma aparılmadan müəyyən dairələrin təqdim etdiyi qərəzli informasiyalara yer verilir.

Azər Badamov qeyd edib ki, sonuncu hesabatın Azərbaycanla bağlı hissəsində dini-irqi ayrı-seçkilik barəsində reallıqdan uzaq məsələlər əks olunub: "Ermənistanla bağlı hissədə isə hər şeyin yaxşı olduğu bildirilir. Əslində isə irqi-dini ayrı-seçkiliyin ən dözülməz olduğu ölkə elə Ermənistandır. Belə ki, ötən əsrin 80-cı illərinin sonlarında Ermənistanda azərbaycanlılar milli mənsubiyyətlərinə görə öz doğma yurdlarından qovulub, dini ibadət yerlərimiz, qəbiristanlıqlarımız, mədəniyyət abidələrimiz məhv edilib. Nəticədə Ermənistan monoetnik ölkəyə çevrilib. Yəni ABŞ Dövlət Departamenti bu məsələləri öz hesabatında əks etdirsə, daha obyektiv olardı".

Deputatın dediyinə görə, ABŞ-də cinayətkarlığın, dini və etnik zəmində törədilmiş qətllərin nisbətinin son illərdə durmadan artmasına baxmayaraq, hesabatda guya bu ölkədə həmin məsələlərin yaxşı olduğu göstərilir. Ümumiyyətlə, bəzi ölkələrdə insan haqları kəskin şəkildə tapdandığı halda Dövlət Departamentinin hesabatlarında buna toxunulmur. Bu, ikili standartların və selektiv yanaşmaların açıq şəkildə təzahürüdür.

### ABŞ-nin Dövlət Departamentinin hesabatları saxtakarlıqla hazırlanır

Milli Məclisin deputatı Ceyhun Məmmədov qeyd edib ki, ABŞ-nin Azərbaycana qarşı qərəzli münasibət sərgiləməsinin əsas səbəbi orada erməni lobbiçiliyinin fəal iş aparmasıdır: "Ermənistan bir sıra ölkələrdə, eləcə də ABŞ-də ölkəmiz əleyhinə qərəzli münasibətin formalaşmasına nail olur. Əslində ABŞ-nin aidiyyəti qurumları, güc strukturları ermənilərin yalan təbliğatlarına uymamalıdırlar. Çünki bu kimi məsələlər Azərbaycan-ABŞ münasibətlərinə xələl gətirə bilər".

Deputat söyləyib ki, son vaxtlar xüsusilə ABŞ-nin ikili standartlarla iş apardığının çox şahidi oluruq. Hər şeyə rəğmən, Azərbaycan iki ölkə arasında strateji münasibətlərin qorunmasında maraqlıdır. Lakin ölkəmizə qarşı səsləndirilən qərəzli fikirlər Azərbaycan tərəfindən qəbul edilmir.

Ceyhun Məmmədov ABŞ-nin Dövlət Departamentinin hər il dünyada insan haqları, dini azadlıqlara dair yaydığı hesabatları barədə də fikirlərini bölüşüb. Qeyd edib ki, bu hesabatlardakı məlumatların istinad edildiyi mənbələrin obyektivliyi şübhə doğurur: "Nəzərə almaq lazımdır ki, həmin sənədlərdə qınaq obyektləri adətən eyni ölkələr olur. Misal üçün, dini azadlıqlarla bağlı hesabatlarda Azərbaycanla bağlı əsassız iddialar, demək olar ki, hər il təkrarlanır. Lakin bu istiqamətdə Ermənistanla bağlı heç bir iddiaya yer verilmir. Bu, ABŞ-nin ikili standartlardan əl çəkmədiyini sübut edir".

*Nəzrin QARDAŞXANOVA, "Azərbaycan"*

# Diaspor gəncləri Ulu Öndərin məzarını və İkinci Şəhidlər xiyabanını ziyarət ediblər

Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi və "Heydər Əliyev İli" çərçivəsində Naxçıvanda təşkil ediləcək Diaspor Gənclərinin IV Yay Düşərgəsinin iştirakçıları Bakıda Ulu Öndərin məzarını və İkinci Şəhidlər xiyabanını ziyarət ediblər.







Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, düşərgə iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin məzarı önünə gül dəstələri düzüb, onun xatirəsini ehtiramla yad ediblər.

Sonra gənclər İkinci Şəhidlər xiyabanını ziyarət edərək Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən qəhrəman övladlarımızın ruhu qarşısında baş əyiblər.

Daha sonra Ümummilli Liderin adını daşıyan Heydər Əliyev Mərkəzinin fəaliyyəti ilə tanış olublar.

Qeyd edək ki, Diaspor Gənclərinin IV Yay Düşərgəsi Diasporla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə avqustun 12-18-də gerçəkləşdiriləcək. Düşərgənin tərəfdaşı Heydər Əliyev Fondu, təşkilati dəstək Azərbaycan Respublikası Prezidentinin Naxçıvan Muxtar Respublikasındakı xüsusi nümayəndəliyinə məxsusdur.

Diaspor tarixinin möhtəşəm layihələrindən biri hesab olunan IV Yay Düşərgəsində 53 ölkəni təmsil edən 100-dən çox gənc iştirak edir. Onların arasında həm dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar, həm də Azərbaycana dost münasibəti bəsləyən xalqların nümayəndələri var. Layihənin Heydər Əliyevin bir əsr öncə dünyaya gəldiyi qədim Naxçıvan şəhərində keçirilməsi xüsusi önəm daşıyır.

Ötən il aprelin 22-23-də Şuşada keçirilən Dünya Azərbaycanlılarının V (Zəfər) Qurultayında Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev xaricdə yaşayan azərbaycanlıları hər zaman tarixi Vətənlə əlaqələrini kəsməməyə, vaxtaşırı Azərbaycana səfər etməyə, ana dilini unutmamağa, Azərbaycan tarixini və mədəniyyətini öyrənməyə, Azərbaycan həqiqətlərini dost xalqların diasporları ilə birlikdə təbliğ etməyə çağırıb. Bu mənada Diaspor Gənclərinin Yay düşərgələri Azərbaycan Prezidentinin tövsiyələrinin gerçəkləşdirilməsi kimi də qiymətləndirilə bilər.

Xatırladaq ki, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş Diaspor Gənclərinin I Yay Düşərgəsi 2018-ci ildə Şəkidə, "Nəsimi - 650" II Yay Düşərgəsi 2019-cu ildə Şamaxıda, "Şuşa - 270" III Yay Düşərgəsi isə 2022-ci ildə Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşada keçirilib.

# Azərbaycan XİN Ermənistanın baş nazirinə cavab verib

Azərbaycanın Xarici İşlər Nazirliyi Ermənistanın baş naziri Nikol Paşinyanın hökumətin iclasında çıxışı zamanı səsləndirdiyi iddialara cavab verib.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Bildirilib ki, Ermənistanın baş naziri Nikol Paşinyanın avqustun 11-də hökumətin iclasında çıxışı zamanı, növbəti dəfə bölgədə "gərgin humanitar vəziyyət" barədə iddiaları təkrarlayarkən, Ermənistan tərəfindən "humanitar yük" adı altında Laçın istiqamətində göndərilən yüklərin qəbul edilməməsinin erməni sakinlərə qarşı "etnik təmizləmə" kimi qələmə verməsi heç bir məntiqə sığmır.

"Azərbaycanın 20 faizə yaxın torpaqlarının işğalı nəticəsində azərbaycanlılara qarşı kütləvi qırğınlar törətmiş, nəinki bu torpaqlardan Ermənistan ərazisindən də azərbaycanlılara qarşı etnik təmizləmə həyata keçirmiş bir ölkənin rəhbərinin etnik təmizləmə iddiaları səsləndirməsinə mənəvi haqqı yoxdur.

Ermənistanın bu iddiaları davamlı olaraq təkrarlaması göstərir ki, Laçın sərhəd-buraxılış məntəqəsi təsis edilənədək Ermənistanın Laçın yolundan istifadə etməklə həyata keçirdiyi qeyri-qanuni fəaliyyətin məntəqə təsis edildikdən sonra qarşısının alınması bu ölkəni narahat edir.

Erməni sakinlərin həqiqətən də iddia olunduğu kimi gündəlik tələbat mallarına ehtiyacları varsa, bunun üçün Azərbaycanın təklif etdiyi və beynəlxalq tərəfdaşların dəstəklədiyi Ağdam-Xankəndi yolundan istifadə edilməsi mümkündür.

Ermənistan tərəfi, əsassız şəkildə "humanitar böhran" barədə iddialar yaymaq və Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı təxribatlar törətmək əvəzinə, bölgədə sülh və sabitlik istiqamətində səy göstərməlidir", - deyə Xarici İşlər Nazirliyinin cavabında diqqətə çatdırılıb.

# Hərbi qulluqçularla görüş

Azərbaycan Ordusunda milli-mənəvi dəyərlərimizin təbliği, şəxsi heyətə vətənpərvərlik hissinin aşılanması məqsədilə Müdafiə Nazirliyi Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə birgə tədbirlər həyata keçirir.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bu il üçün imzalanan birgə tədbirlər planına uyğun olaraq komitə nümayəndələri hərbi hissələrdə şəxsi heyətlə görüşüb, söhbətlər aparıblar. Tədbirdə əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalanların əziz xatirəsi birdəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Çıxış edənlər gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsi, onların zərərli vərdişlərdən qorunmasında milli-mənəvi dəyərlərimizin rolu və bu istiqamətdə həyata keçirilən maarifləndirmə tədbirlərinin əhəmiyyəti barədə danışıblar.

Sonra şəxsi heyəti maraqlandıran suallar cavablandırılıb.

# İcma beynəlxalq ictimaiyyəti erməni kilsəsinin dini bölücülük salan əməllərini pisləməyə çağırıb

Qərbi Azərbaycan İcması erməni katolikoslarının Azərbaycanın Qarabağ bölgəsində özünə "parlament sədri" kimi qondarma ad vermiş şəxsi təbrik edərək təxribatçı fikirlər səsləndirmələrini kəskin şəkildə pisləyir və bunu Azərbaycanın daxili işlərinə kobud müdaxilə kimi qiymətləndirir.

AZƏRTAC xəbər verir ki, bu barədə Qərbi Azərbaycan İcmasının yaydığı bəyanatda bildirilib.

Qeyd olunub ki, Qərbi Azərbaycan İcması erməni kilsəsini Ermənistanın düşdüyü acınacaqlı vəziyyətin, onun "tam iflasa uğramış dövlət" olmasının əsas günahkarlarından biri hesab edir. Otuz il ərzində Azərbaycan ərazilərinin işğalını, etnik təmizləməni alqışlamış erməni kilsəsi bu gün də düşmənçiliyi, nifrəti, revanşizmi təşviq edir.

"Qərbi Azərbaycan İcması erməni kilsəsini bu kimi təxribatçı fəaliyyətə son qoymağa, sülhü, barışığı təbliğ etməyə və bu xüsusda Ermənistan hakimiyyətini icmanın dialoq təklifini cavablandırmağa təşviq etməyə, Ermənistanda Azərbaycan xalqının tarixi və dini irsinin dağıdılması, təhrif olunması siyasətinə qarşı çıxmağa çağırır.

Beynəlxalq ictimaiyyəti, beynəlxalq təşkilatları erməni kilsəsinin destruktiv, dini bölücülük salan, Azərbaycanofob əməllərini pisləməyə çağırırıq", - deyə Qərbi Azərbaycan İcmasının bəyanatında bildirilib.

***XİN "Kommersant"ın yazısına münasibət bildirib:***

# "Qarabağın erməni sakinlərinin nümayəndələri razılıqları son anda pozub"

Avqustun 11-də Rusiyanın "Kommersant" qəzetində "Arsax Qarabağa qarşı" adlı məqalədə Ağdam-Xankəndi yolundan Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) tərəfindən istifadə müqabilində Azərbaycanın Laçın sərhəd-buraxılış məntəqəsindən keçidə imkan yaradacağına dair ilkin razılıqlar barədə fikirlər səsləndirilib.

AZƏRTAC bu fikirlərlə bağlı Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadənin şərhini təqdim edir.

Son günlər ərzində beynəlxalq tərəfdaşların səyləri nəticəsində Ağdam-Xankəndi yolundan Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) tərəfindən yüklərin daşınması üçün istifadə olunması və bundan 24 saat sonra Laçın yolundan BQXK vasitəsilə keçidin daha da intensivləşməsinə dair razılıq mövcud idi.

Bununla yanaşı, Azərbaycan tərəfinin təklifi əsasında Qarabağda yaşayan erməni sakinlərin nümayəndələri ilə Yevlaxda görüşün keçirilməsi razılaşdırılmış və bütün logistik məsələlər yekunlaşmışdı. Bütün bu razılıqlara baxmayaraq, Azərbaycanın Qarabağ bölgəsinin erməni sakinlərinin nümayəndələri razılıqları son anda pozublar.

Onların və bu mövzunu siyasi manipulyasiya alətinə çevirən Ermənistanın pozucu fəaliyyəti qarşı tərəfin sülh və sabitlikdə, habelə bu istiqamətdə dialoqda maraqlı olmadıqlarını bir daha nümayiş etdirib.

Bununla yanaşı, qeyd edilən addımlar humanitar əsasda iddiaların əsassız olduğunu bir daha sübut edərək bölgədə vəziyyətin gərginləşdirilməsinə xidmət edir.

# BMT-nin Ali Komissarına müraciət:

## Etnik təmizləmə törədənlər və qayıdışımıza mane olanlar məsuliyyətə cəlb edilməlidirlər

*Qərbi Azərbaycan İcması bu yaxınlarda BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarı Folker Türkə ünvanladığı məktubda Ermənistanın azərbaycanlılara qarşı etnik təmizləmə aparması nəticəsində insan hüquqlarının miqyaslı şəkildə pozulması və Ermənistanın qovulmuş azərbaycanlıların öz evlərinə qanuni şəkildə qayıtmasına mane olması barədə məlumat vermişdir.*

*AZƏRTAC xəbər verir ki, icma Ali Komissarı bu insan hüquqları pozuntuları ilə bağlı qərəzsiz və hərtərəfli araşdırma aparmağa, Ermənistandan qovulmuş azərbaycanlıların öz evlərinə təhlükəsiz və ləyaqətlə qayıtmasına kömək göstərməyə, etnik təmizləmə, zorakılıq, mədəni-tarixi irsin məhv edilməsi və qovulanların təhlükəsiz geri qayıtmasına mane olanların məsuliyyətə cəlb olunması istiqamətində səylər göstərməyə çağırıb. İcma həmçinin beynəlxalq ictimaiyyətin diqqətini sözügedən insan haqları pozuntularına cəlb etmək və məsələnin BMT-nin İnsan Hüquqları Şurasının müzakirəsinə çıxarılması üçün Ali Komissarın dəstəyini xahiş edib.*

*Surəti BMT-nin Baş katibinə, BMT Baş Assambleyasının, Təhlükəsizlik Şurasının, İqtisadi və Sosial Şurasının, İnsan Hüquqları Şurasının sədrlərinə, insan hüquqları sahəsində müqavilə ilə təsis edilmiş beynəlxalq qurumların rəhbərlərinə və müvafiq xüsusi mandat sahiblərinə göndərilmiş məktubda aşağıdakılar bildirilir:*

"Ermənistandan zorla qovulmuş azərbaycanlılar adından dərhal beynəlxalq müdaxiləni tələb edən kütləvi, aktual və ciddi narahatlıq doğuran insan hüquqları problemini diqqətinizə çatdırmaq üçün Sizə müraciət edirik.

Azərbaycanlı əhalinin Ermənistandan zorla qovulması, insan ləyaqəti və bərabərlik prinsiplərinə xələl gətirməklə, beynəlxalq konvensiya və müqavilələrə zidd insan hüquqlarının çoxsaylı və kobud pozuntulara səbəb olub. Ermənistan orada yaşamış azərbaycanlılara qarşı qırğın, terror, hədə-qorxu törətməklə, əmlaklarını qanunsuz ələ keçirməklə, onları təhlükə və ya az dəyərli varlıqlar kimi qələmə verən sistemli təbliğat və insanlıqdan məhrumetmə kampaniyası aparmaqla, onların hərəkət azadlığını və resurslara çıxışını məhdudlaşdırmaqla etnik təmizləmə aparıb, Ermənistan hakimiyyət orqanları, həmçinin azərbaycanlıların qəbiristanlıqlarını, dini ocaqlarını, mədəni və tarixi abidələrini dağıdıb. Ermənistan hökuməti bunları törədib azərbaycanlıları fiziki olaraq didərgin salmaqla kifayətlənməyib, həm də onların bir etnos kimi izlərini o torpaqlardan silməyə cəhd edib.

1987-1991-ci illərdə Ermənistanın azərbaycanlılara qarşı apardığı etnik təmizləmə nəticəsində bu gün həmin ölkədə bir nəfər də olsun azərbaycanlı qalmayıb. Ermənistan qovduğu yüz minlərlə azərbaycanlının geri qayıtmaq hüququnu təmin etməkdən imtina etməklə, onların iztirablarını daha da artırır. Ermənistan dəfələrlə etdiyimiz çağırışlara rəğmən, bizimlə insan hüquqlarımız mövzusunda dialoqa başlamaqdan belə qəti şəkildə imtina edir.

Azərbaycanlıların Ermənistandan zorla qovulmaları və Ermənistanın onların tarixi vətənlərinə geri qayıtmasına imkan verməməsi aşağıda göstərildiyi kimi, çoxsaylı fundamental insan hüquqlarının kobud şəkildə pozuntusudur.

*Ayrı-seçkiliyə məruz qalmamaq hüququ*

Ermənistanın azərbaycanlılara qarşı həyata keçirdiyi mənfur etnik təmizləmə Ümumdünya İnsan Hüquqları Bəyannaməsində (Maddə 2) və "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktda (Maddə 26) təsbit edilən ayrı-seçkiliyə məruz qalmamaq hüququnun kobud şəkildə pozulmasıdır. Bu hərəkətlər həm də müxtəlif beynəlxalq konvensiyalarda, o cümlədən "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Paktda və ən əsası, "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiyada (2 və 4-cü Maddələr) qeyd olunan öhdəliklərə tamamilə ziddir.

*Qanun qarşısında bərabərlik hüququ*

Azərbaycanlıların Ermənistandan zorla qovulması onların Ümumdünya İnsan Hüquqları Bəyannaməsində və "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktda təsbit olunmuş qanun qarşısında bərabərlik prinsipi hüququnu kəskin şəkildə pozur. Bu pozuntu xüsusilə onların sırf etnik mənsubiyyətinə görə öz ata-baba yurdlarına qayıtmaq hüququnun inkar edilməsində özünü göstərir. Ermənistanın hərəkətləri "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktın bütün şəxslərin qanun qarşısında bərabər olduğunu və ayrı-seçkilik olmadan qanunla bərabər müdafiə olunmaq hüququnu təmin edən 26-cı maddəsinə açıq şəkildə ziddir.

*Yaşamaq, azadlıq və təhlükəsizlik hüququ*

Ermənistanın azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti, həm də Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 3-cü maddəsində, "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktın 6 və 9-cu maddələrində, "Avropa İnsan Hüquqları Konvensiyası"nın 5-ci maddəsində və insan həyatının toxunulmazlığını, təhlükəsizlik və şəxsi azadlıq kimi fundamental dəyərləri qoruyan çoxsaylı digər beynəlxalq müqavilələrdə nəzərdə tutulduğu kimi, onların yaşamaq, azadlıq və təhlükəsizlik hüquqlarını da pozub. Azərbaycanlılar qətllərə, əsassız həbslərə məruz qalıblar. Onlar öz icmalarından, ailələrindən və dolanışıq vasitələrindən qoparılıb və nəticədə dərin emosional və psixoloji sarsıntı keçiriblər. Kütləvi qovulmanın doğurduğu zorakılıq, qəfil köçkünlük və sonra yaşanmış travmalar təməl hüquqlara ciddi xələl gətirmişdir.

*İşgəncəyə, qeyri-insani və ya ləyaqəti alçaldan rəftara və ya cəzaya məruz qalmama hüququ*

Ermənistan tərəfindən azərbaycanlılara qarşı geniş şəkildə tətbiq olunmuş işgəncə, ləyaqəti alçaldan cəza və qeyri-insani rəftar yolu ilə həyata keçirilmiş etnik təmizləmə Ümumdünya İnsan Hüquqları Bəyannaməsində (2 və 5-ci maddələr) və "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktda (7 və 26-cı maddələr) nəzərdə tutulmuş ayrı-seçkiliyə yol verməmək hüququnun kobud şəkildə pozulmasıdır. Bu hərəkətlər birbaşa olaraq beynəlxalq konvensiyalar, o cümlədən "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Pakt və ən əsası, "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiya (2 və 4-cü maddələr) çərçivəsində qəbul edilmiş öhdəliklərə qarşı çıxır. İşgəncə və ləyaqəti alçaldan rəftardan istifadə, həmçinin Ermənistanın da tərəf olduğu "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə" Konvensiyada əksini tapmış mütləq qadağaları pozur.

*Məcburi şəkildə yoxa çıxmadan müdafiə hüququ*

Ermənistanda yaşamış çoxlu sayda azərbaycanlının etnik təmizləmə zamanı və eləcə də onların pənah gətirdiyi Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı Ermənistanın hərbi təcavüzü nəticəsində itkin düşməsi kimi ciddi narahatlıq doğuran faktı vurğulamaq lazımdır. Ermənistan tərəfindən törədilmiş məcburi itkin düşmələr bu cür hallara məruz qalmamağa dair fundamental hüququn açıq şəkildə pozulmasıdır. Bu hüquq insan hüquqlarına dair müxtəlif beynəlxalq sənədlərdə, o cümlədən Ümumdünya İnsan Hüquqları Bəyannaməsində (Maddə 3), "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktda (Maddə 9) və "Bütün şəxslərin zorakı itkin düşmələrdən müdafiəsi üzrə Beynəlxalq Konvensiya"da təsbit edilmişdir. Ermənistan bu şəxslərin taleyi və harada olduğu barədə aydınlıq gətirməkdən, qətlə yetirdiyi azərbaycanlıların kütləvi məzarlıqlarının və digər dəfn yerlərinin dəqiq yerini açıqlamaqdan imtina edir və bununla onların ailələrinin yaşadığı ağrı və qeyri-müəyyənlik iztirabını daha da dözülməz edir. Bu zorakı itkin düşmələr məsələsinə baxılması insan hüquqlarının müdafiəsi, zərər çəkmiş ailələrə onların yaxınlarının taleyinə aydınlıq gətirmək və ədalətin təmin edilməsi üçün zəruridir.

*Vətəndaşlıq hüququ*

Azərbaycan əhalisinin Ermənistandan zorla qovulması onların Ümumdünya İnsan Hüquqları Bəyannaməsində və "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktda təsbit olunmuş vətəndaşlıq hüququnun da kobud şəkildə pozulmasına səbəb olub. Ermənistanın hərəkətləri ölkədən qovulmuş azərbaycanlıları faktiki olaraq milli mənsubiyyətindən məhrum etmək və onları hüquqi kimlik və müdafiədən məhrum etməklə vətəndaşsızlıq vəziyyətinin ağırlaşmasına səbəb olub. Bu narahatedici xoşagəlməz vəziyyət hər kəsin vətəndaşlıq hüququ olduğunu və ondan özbaşına məhrum edilmənin yolverilməz olduğunu birmənalı şəkildə bəyan edən Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 15-ci maddəsi ilə ziddiyyət təşkil edir. Ermənistanın Azərbaycan əhalisinin qayıtmasına və onların öz vətənlərində vətəndaşlıq hüquqlarından istifadəsinə icazə verməkdən israrlı şəkildə imtina etməsi "Vətəndaşsızlıq hallarının azaldılması haqqında" Konvensiya ilə üzərinə götürdüyü öhdəliklərə birbaşa ziddir.

*Effektiv hüquqi müdafiə vasitələri hüququ*

Qovulmuş azərbaycanlı əhalinin geri qayıtmaq hüququndan məhrum edilməsi onların "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktda təsbit edilmiş effektiv hüquqi müdafiə vasitələrinə malik olmaq hüququnu da açıq şəkildə pozur. Nəticədə Ermənistandan olan azərbaycanlılar məruz qaldıqları zərərə görə öz qanuni vətənlərində hüquqi müdafiə əldə edə bilmirlər. Bu, onların vəziyyətini daha da çətinləşdirir. Ermənistanın bu inkarçı mövqeyi təkcə onların "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktın 14-cü maddəsində təsbit edildiyi kimi ədalətli və qərəzsiz proses hüququnu pozmur, həm də Paktın və digər beynəlxalq sənədlərin müdafiə etməyə çalışdığı ədalət və hesabatlılığın əsas prinsiplərinə birbaşa ziddir. Beynəlxalq ictimaiyyətin müdaxiləsi Ermənistanın "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktdan irəli gələn öhdəliklərini yerinə yetirməsini təmin etmək, məcburi köçkün azərbaycanlı əhalinin səmərəli müdafiə vasitələrinə çıxışını təmin etmək, onların geri qayıtması və hüquqlarının bərpasını asanlaşdırmaq üçün zəruridir. Bu ağır pozuntunun aradan qaldırılması qurbanların ədalət məhkəməsinə çıxışını bərpa etmək və beynəlxalq insan hüquqları hüququ ilə təsdiq edilən insan hüquqları və hesabatlılıq prinsiplərini praktikada təsdiqləmək üçün vacibdir.

*Ailə həyatına hörmət hüququ*

Azərbaycan əhalisinin zorla qovulması nəinki böyük iztirablara səbəb olub, həm də onların Ümumdünya İnsan Hüquqları Bəyannaməsi və "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Pakt və çoxsaylı digər sənədlərlə qorunan prinsip olan ailə həyatı hüququnu dərindən pozub. Qovulma səbəbindən ailələrin və icmaların ayrılması Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 16-cı maddəsində və "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktın 23(1) maddəsində tanındığı kimi, onların ailə birliyi hüququnun ağır şəkildə pozulması ilə nəticələnmişdir. Bu pozuntu, sadəcə, fiziki yerdəyişmə ilə bitmir, öz yaxınlarından və öz icmalarından qoparılan fərdlərin məruz qaldığı emosional sıxıntı və psixoloji ağrıları əhatə edir. Qayıtmaq hüququnun inkar edilməsi qohumluq əlaqələrinin kəsilməsinin səbəb olduğu ağrını davam etdirməklə bu pozuntunun nəticələrini daha da ağırlaşdırır. Ermənistanın müvafiq konvensiyalar üzrə öz öhdəliklərini yerinə yetirməsini təmin etmək, zorla qovulma nəticəsində dağılmış icmaların bərpasını asanlaşdırmaq üçün beynəlxalq ictimaiyyətin müdaxiləsi mütləqdir. İnsan hüquqlarının bu cür ciddi şəkildə pozulmasının aradan qaldırılması, zərər çəkmiş azərbaycanlı əhalinin çəkdiyi ölçüyəgəlməz əzabın yüngülləşdirilməsi və Ümumdünya İnsan Hüquqları Bəyannaməsində və "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktda təsbit olunmuş ailə birliyinin və rifahın vacibliyini bir daha təsdiqləmək üçün vacibdir.

*Uşağın ən yaxşı mənafeyi prinsipi*

Azərbaycanlıların Ermənistandan zorla qovulması həm də "Uşaq hüquqları haqqında" Konvensiyada qeyd olunduğu kimi, uşaqların hüquqlarını kobud şəkildə pozur. Konvensiyanın 3-cü maddəsində təsbit olunmuş uşağın ən yaxşı mənafeyi prinsipi təsdiq edir ki, hökumətlərin qərarları da daxil olmaqla, bütün qərarlarda hər şeydən əvvəl uşaqların rifahı nəzərə alınmalıdır. Ermənistan hökumətinin törətdiyi məcburi köçkünlük bu prinsipi pozaraq uşaqları evlərindən, icmalarından və aid olduqları doğma mühitlərindən qoparıb, onları travma və qeyri-müəyyənliyə məruz qoyub. Ermənistanın siyasəti və hərəkətləri azərbaycanlı uşaqları sabitlikdən, təhlükəsizlikdən və əsas xidmətlərdən məhrum edib. Azərbaycanlı uşaqların təhsil, sağlamlıq və müdafiə hüquqları kobud şəkildə pozulmuşdur. Məcburi köçkünlük kontekstində azərbaycanlı uşaqların hüquqlarının Ermənistan tərəfindən pozulması onların nəinki bilavasitə rifahına xələl gətirmiş, həm də onların uzunmüddətli inkişafına mane olmuş, onları ədalətsizlik və çarəsizliyin ağır nəticələri ilə uzun müddət üz-üzə qoymuşdur.

*Təhsil və işləmək hüququ*

Azərbaycanlı əhalinin Ermənistandan qovulması onların müxtəlif beynəlxalq konvensiyalarla açıq şəkildə təmin olunduğu təhsil və işləmək hüquqlarını da əhəmiyyətli dərəcədə pozmuşdur. Zorla qovulma icmaların həyatını və strukturunu pozaraq, fərdlərin təhsilə və maraqlarına uyğun məşğulluğa çıxışına mane olan ağır nəticələrə səbəb oldu. "Uşaq hüquqları haqqında" Konvensiyanın 28-ci maddəsində və "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Paktın 13-cü maddəsində öz əksini tapmış təhsil hüququ pozulmuşdur. Eynilə, "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Paktın 6-cı maddəsində və "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Beynəlxalq Konvensiyanın 5-ci maddəsində təsbit olunmuş əmək hüququ da ciddi şəkildə əngəllənmişdir, çünki zorla qovulma azərbaycanlıları öz dolanışığından və icmalarından qoparıb, yenidən ləyaqətli işlə məşğul olmasına və cəmiyyətə töhfə verməsinə mane olub. Bu pozuntuların çoxşaxəli nəticələri məcburi köçkünlüyün hüdudlarından kənara çıxır və insan hüquqları normalarının bu cür pozulması hallarının aradan qaldırılmasının təxirəsalınmazlığını vurğulayır.

*Mülkiyyət hüququ*

Zorla qovulmuş Azərbaycan əhalisinin mülkiyyət hüquqlarının kobud şəkildə pozulmasını vurğulamaq vacibdir. Ermənistan hökuməti tərəfindən təşkil edilmiş məcburi qovulma kampaniyası təkcə fərdləri vətənlərindən məhrum etməmiş, həm də onların mülkiyyətə sahiblik və mülkiyyətdən dinc şəkildə istifadə etmək kimi fundamental hüquqlarını pozmuşdur. Bu pozuntu mülkiyyət hüququnu əsas insan hüququ kimi tanıyan Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 17-ci maddəsi ilə birbaşa ziddiyyət təşkil edir. Bundan başqa, o, Avropa İnsan Hüquqları Konvensiyasının mülkiyyət hüququnu özbaşına müdaxilədən qoruyan 1 saylı Protokolun 1-ci maddəsinə ziddir. Əmlakdan özbaşına məhrumetmə qovulmuş Azərbaycan əhalisinin çəkdiyi iztirabları artırmışdır. İnsan hüquqları pozuntularının bu aspektinə baxılması yol verilmiş haqsızlıqların aradan qaldırılması və mülkiyyət hüquqlarının bərpa olunması, o cümlədən əmlakın qaytarılmasını təmin etmək və bununla da ədaləti bərqərar etmək üçün zəruridir.

*Adekvat mənzillə təmin olunmaq hüququ*

Azərbaycan əhalisinin zorla qovulması onların "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Paktda təsbit edildiyi kimi münasib mənzillə təmin olunmaq kimi əsas hüququnun dərin və kobud şəkildə pozulmasıdır. Paktın 11-ci maddəsində təsbit olunmuş münasib mənzil hüququ təkcə sığınacaq təmin etməyi deyil, həm də təhlükəsizliyin, yaşayış üçün əlverişliliyin və mədəni özünəməxsusluğun təminatını əhatə edir. İnsanların evlərini zorla əllərindən almaqla, Ermənistan bu mühüm insan hüququnun təməl mahiyyətini pozmuş və bununla da zərər çəkmiş əhalini sahib olduqları evin təmin etdiyi əsas təhlükəsizlik və mənsubiyyət hissini qarət etmişdir.

*Mədəni hüquqlar*

Azərbaycanlıların Ermənistandan zorla qovulması və onların mədəni irsinin Ermənistan tərəfindən sistematik şəkildə məhv edilməsi onların mədəni hüquqlarını kobud şəkildə pozur. Bu hüquqlar bərabərlik, insan ləyaqəti və ayrı-seçkiliyə yol verilməməsi çərçivəsində mədəniyyətdən və onun müxtəlif istiqamətlərindən istifadəni təmin edən əsas insan hüquqlarını əhatə edir. Bu mədəni hüquqlara mədəni həyatda tam iştirak etmək hüququ, mədəni irsə əlçatanlıq və ondan istifadə etmək imkanı, öz mədəni kimliyini ifadə etmək azadlığı, elmi tərəqqinin bəhrələnmək imkanı və bədii yaradıcılıqdan istifadə etmək azadlığı daxildir. Bu hüquqların toxunulmazlığı çoxsaylı beynəlxalq insan hüquqları sənədlərində, o cümlədən Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 27-ci maddəsində, "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Paktın 15-ci maddəsində, "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktın 27-ci maddəsində, "Uşaq hüquqları haqqında" Konvensiyanın 31-ci maddəsində, "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Beynəlxalq Konvensiyanın 5-ci maddəsində, "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiyanın 13-cü maddəsində, "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyanın 30-cu maddəsində və "Mədəni ifadələrin müxtəlifliyinin qorunması və təşviqi haqqında" UNESCO Konvensiyasında təsdiq olunur. Mədəni hüquqların belə kəskin şəkildə pozulması azərbaycanlıların qeyri-maddi mədəni irsini təhlükə altına almış, onların adət-ənənələrinə və mədəni irsinin zəngin naxışlarına ciddi zərər vurur.

*Qayıtmaq hüququ*

Ermənistanın qovulmuş azərbaycanlıların öz evlərinə qayıtmasının qarşısını alması onların təhlükəsiz şəkildə və ləyaqətlə qayıtmaq kimi fundamental hüququnu kobud şəkildə pozur. Bu əsas hüquq Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 13-cü maddəsində və "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktın 12-ci maddəsində açıq şəkildə tanınır. Qovulmuş azərbaycanlıların öz dədə-baba torpaqlarına qanuni şəkildə qayıtmalarının qarşısını almaqla Ermənistan onları öz doğma yurdlarında yaşamağa dair əzəli hüququndan məhrum edir. Çoxsaylı beynəlxalq konvensiyalarda öz əksini tapmış bu müddəalara açıq-aşkar etinasızlıq beynəlxalq ictimaiyyətin təcili və qətiyyətli cavabını tələb edir. Qovulmuş əhalinin geri qayıtmaq və onların vətəndə sərbəst hərəkət etmək hüququnun bərpası insan hüquqlarının və ədalətin ümumbəşəri prinsiplərində təsbit olunmuş dəyərlərə sadiqliyi əks etdirən ən vacib şərtdir.

Azərbaycan əhalisinin Ermənistandan zorla qovulması çoxsaylı fundamental insan hüquqları prinsiplərinin və beynəlxalq konvensiyaların kobud və çoxşaxəli pozulmasıdır. Qətliamlar, hədə-qorxu, nifrət təbliği ilə amansız etnik təmizləmənin həyata keçirilməsi və qayıtmaq hüququnun inkarı sonu bitməz insan iztirabları, parçalanmış icmalar və dərin ədalətsizliklərə gətirib çıxarmışdır. Ermənistanın hərəkətləri Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Pakt, "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiya və digər beynəlxalq sənədlərdə təsdiq edilmiş bərabərlik, ayrı-seçkiliyə yol verməmək və insan ləyaqəti prinsipləri ilə tamamilə ziddiyyət təşkil edir. Bu dərin pozuntuları aradan qaldırmaq, zərərçəkmiş əhalinin hüquqlarını bərpa etmək və insan hüquqlarına, ədalətə və bərabərliyə sadiqliyi təsdiqləmək üçün təcili və güclü beynəlxalq müdaxilə zəruridir.

Şübhəsiz ki, geri qayıtmaq hüququnun təmin edilməsi ədaləti bərpa etmək, sülh və barışıq əldə etmək üçün beynəlxalq səylərin mərkəzində olmalıdır.

Bu pozuntuların ağırlığını və miqyasını, həmçinin qarşıda duran vəzifələri nəzərə alaraq, hörmətli Komissarlıqdan mandatınıza və təşəkkül tapmış təcrübəyə uyğun olaraq, təcili şəkildə aşağıdakı tədbirləri görməyi xahiş edirik:

- Ermənistan tərəfindən qovulmuş azərbaycanlılara qarşı davam edən insan hüquqlarının pozulması ilə bağlı hərtərəfli və qərəzsiz araşdırma aparmaq.
- Zorla qovulmuş azərbaycanlıların öz qanuni yurdlarına təhlükəsiz və ləyaqətlə qayıtmasının təmin edilməsi mövzusunda Ermənistanla dialoqa başlamaq və bu məqsədlə Ermənistana diplomatik təzyiq göstərmək.
- Etnik təmizləmə, zorakılıq və Azərbaycan irsinin məhv edilməsinə görə məsuliyyət daşıyanların və qovulmuş azərbaycanlıların təhlükəsiz şəkildə və ləyaqətlə qayıdışına maneçilik törədənlərin məsuliyyətə cəlb edilməsi üçün zəruri addımları atmaq.
- Bərpaedici ədalətin imperativliyini vurğulayaraq, beynəlxalq maarifləndirməni və bu kobud hüquq pozuntuları barədə beynəlxalq ictimaiyyətin məlumatlandırılmasını təşviq etmək.
- Məsələni BMT-nin İnsan Hüquqları Şurasına təqdim etmək və bu məsələ ilə bağlı müzakirələri təşviq etmək.

Biz həmçinin Sizi Ermənistan tərəfindən qovulmuş azərbaycanlıların hüquqlarının pozulması, xüsusilə onların ölkədən qovulması, təhlükəsiz və ləyaqətlə öz evlərinə qayıtmaq hüququndan məhrum edilməsi hallarının aradan qaldırılması üçün informasiya mübadiləsi, hesabatların hazırlanması, ictimai vəkillik fəaliyyətinin aparılması və birgə iştirakın təşviq edilməsi ilə müvafiq xüsusi mandat sahiblərini tədbir görməyə təşviq etməyə çağırırıq.

Sizin məsələyə müdaxiləniz qovulmuş azərbaycanlıların məruz qaldıqları dərin haqsızlıqların aradan qaldırılmasında, son nəticədə onların əzəli insan hüquqlarının və ləyaqətinin bərpasında mühüm rol oynayacaqdır".

# Ombudsman Beynəlxalq Cinayət Məhkəməsinin sabiq baş prokurorunun "ekspert rəyi"nə münasibət bildirib



Beynəlxalq Cinayət Məhkəməsinin keçmiş baş prokuroru Luis Moreno Okamponun Azərbaycan əleyhinə yaydığı əsassız və qərəzli "ekspert rəyi"nə Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva reaksiya verib.

AZƏRTAC xəbər verir ki, ombudsman bununla bağlı açıqlamasında bildirib: "Beynəlxalq Cinayət Məhkəməsinin keçmiş baş prokuroru Luis Moreno Okamponun siyasi tapşırıqlar əsasında hazırladığı "ekspert rəyi"ndə yer almış fikirlər tamamilə əsassızdır və qərəzli xarakter daşıyır.

Müəmmalı və qaranlıq bir keçmişi ilə artıq özünə müvafiq bir imic yaratmış L.M.Okamponun Azərbaycan əleyhinə yazmış olduğu rəydə bilərəkdən istər hüquqi, istərsə də tarixi səhvlərə yol verilib.

Azərbaycanın BMT tərəfindən tanınan əraziləri daxilində öz vətəndaşlarının, o cümlədən erməni millətindən olan vətəndaşlarının təhlükəsizliyini, hüquq və azadlıqlarını təmin etmək məqsədilə həyata keçirdiyi və legitimliyi beynəlxalq və regional təşkilatlar tərəfindən, o cümlədən Beynəlxalq Ədalət Məhkəməsinin müvafiq qərarı ilə tanınmış fəaliyyətin tamamilə təhrif olunmuş formada, beynəlxalq ictimaiyyəti çaşdırmaq məqsədilə təqdim olunması cənab Okamponun hansı dairələrdən tapşırıq aldığını bir daha bəyan etmiş oldu.

Hüququn aliliyi prinsipini yaddan çıxaran Beynəlxalq Cinayət Məhkəməsinin keçmiş baş prokuroruna cəfəng və əsassız iddialarla guya Azərbaycanın Qarabağ iqtisadi zonasında genosid törədilmə ehtimalını irəli sürməkdənsə, yaxın keçmişimizdə məhz həmin bölgədə ermənilər tərəfindən törədilmiş Xocalı, Meşəli, Başlıbel və digər soyqırımı cinayətlərini araşdırmağı, həmin cinayətlərin törədilməsində iştirak edən şəxslərin qəbulunda olarkən müzakirə etdiyi məsələləri açıqlamağı məsləhət görərdik.

Təəssüflə qeyd etmək istərdik ki, son vaxtlar Beynəlxalq Cinayət Məhkəməsinin keçmiş baş prokuroru L.M.Okamponun timsalında bəzi "beynəlxalq ekspertlərin" hazırladıqları bəyanat və hesabatlarda Azərbaycana münasibətdə ikili standartlara yol verilməklə, həqiqəti əks etdirməyən qərəzli fikirlərin yer almasında əsas məqsəd etnik nifrət zəminində qarşıdurmanın yaranmasına səbəb olmaqla, regionda davamlı sülhün təmininə, Qarabağın ermənəsilli əhalisinin Azərbaycan cəmiyyətinə inteqrasiyasına maneə törətməkdir.

Bu səbəbdən beynəlxalq təşkilatların təmsilçilərinə, habelə müstəqil ekspertlərə müraciət edərək, hər hansı münaqişə ilə bağlı araşdırma apararkən məsələnin mahiyyətini dərindən öyrənməyə, mövcud faktları təhrif etməməyə, xalqlar arasında münasibətlərin süni şəkildə gərginləşməsinə rəvac verən addımlardan çəkinməyə, ədalətli sülhün və davamlı təhlükəsizliyin təmini naminə göstərilən səyləri dəstəkləməyə dəvət edirik".

# İcma Paşinyanı manipulyasiyadan çəkinməyə çağırır

Regionda sülhə mane olan 30 il ərzində Azərbaycan ərazilərini işğal altında saxlamış, azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı həyata keçirmiş Ermənistandır.

AZƏRTAC xəbər verir ki, bu barədə Qərbi Azərbaycan İcmasının Ermənistanın baş naziri Nikol Paşinyanın avqustun 11-də səsləndirdiyi fikirlərə cavabında bildirilib.

"Təəssüf ki, "demokrat" Nikol Paşinyan sələflərinin bu siyasətini davam etdirmiş və Azərbaycanın işğal edilmiş ərazilərində səsləndirdiyi "Qarabağ Ermənistandır və nöqtə" bəyanatı ilə danışıqlar prosesini tamamilə məhv etmişdir. Nikol Paşinyana həm də xatırladırıq ki, onun Milli Təhlükəsizlik Xidmətinin rəhbəri təyin etdiyi, sonradan Vətən müharibəsi zamanı Azərbaycana qarşı döyüşməyə gəlmiş, az sonra biabırcasına Qarabağdan qaçmış şəxs "Azərbaycana bir qarış da torpaq qaytarmayacağıq" kimi bəyanat vermiş, özünü "dahi strateq" hesab edən keçmiş müdafiə naziri isə daha da "irəli gedərək" Azərbaycanı "yeni ərazilər naminə yeni müharibə" ilə hədələmişdir.

Otuz il ərzində dünyanın ən ali qurumu olan BMT Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymayan, əksinə, işğalla qürrələnən Ermənistanın indi qaranlıq keçmişi olan Luis Okampo adlı birisinin heç bir əsası olmayan kağız parçasına ümid bəsləməsi rəsmi İrəvanın düşdüyü acınacaqlı vəziyyətinin bariz nümunəsidir. Ermənistanın baş nazirini "soyqırımı" mövzusunda Azərbaycana qarşı saxta təbliğatdan, böhtan və manipulyasiyadan çəkinməyə çağırırıq.

Qərbi Azərbaycan İcması hesab edir ki, əgər Ermənistanın baş naziri həqiqətən də sülhdə maraqlıdırsa, onda, ilk növbədə "beynəlxalq mexanizm çərçivəsində Bakı-Xankəndi dialoqu" kimi utopik və təxribatçı fikirlərə son qoymalıdır. Biz icma olaraq bunu Ermənistanın Azərbaycana qarşı ərazi iddiasını indi başqa ad altında davam etdirməsi kimi qəbul edirik. İcma hesab edir ki, "beynəlxalq mexanizm" nağılı həm də Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü şərtlə tanıması deməkdir.

Bir tərəfdən, Azərbaycanı "beynəlxalq mexanizm çərçivəsində Qarabağın erməni sakinləri ilə dialoqa" çağırıb, digər tərəfdən, Qərbi Azərbaycan İcmasının dialoq təklifinə cavab verməyən, hətta azərbaycanlıların qayıdış hüququnu inkar edən Ermənistanın baş nazirinə xatırladırıq ki, onun rəhbər tutduğu "Əhali yoxdursa, problem də yoxdur" yanaşması, tamamilə qəbuledilməz və təhlükəli yanaşmadır. Nikol Paşinyanı Azərbaycanın daxili işlərinə qarışmamağa, müxtəlif süni bəhanələrlə sülh danışıqları prosesini uzatmamağa və Qərbi azərbaycanlıların qayıdışı məsələsini müzakirə etmək üçün bizimlə dialoqa başlamağa çağırırıq", - deyə Qərbi Azərbaycan İcmasının cavabında vurğulanıb.

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 286 QƏRAR Bakı şəhəri, 5 avqust 2023-cü il

### “Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 829-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155; 2019, № 3, maddələr 528, 534, 544, 563, 566, 568, № 4, maddə 753, № 5, maddələr 935, 945, 971, № 7, maddə 1325, № 8, maddə 1475, № 10, maddə 1677, № 11, maddə 1878, № 12, maddələr 2091, 2095; 2020, № 3, maddə 344, № 4, maddə 479, № 5, maddə 643, № 6, maddə 784, № 8, maddə 1134, № 9, maddə 1222, № 10, maddə 1273, № 11, maddələr 1403, 1408, № 12 (V kitab), maddələr 1589, 1597; 2021, № 2, maddə 203, № 3, maddələr 278, 288, 293, 300, 302, № 4, maddələr 395, 399, 404, 416, 417, 418, № 6 (IV kitab), maddə 695, № 7, maddələr 871, 874, № 8, maddələr 966, 973, № 9, maddə 1064, № 10, maddələr 1181, 1187, 1192, № 11, maddələr 1256, 1274, 1280, 1283; 2022, № 1, maddələr 53, 70, № 4, maddələr 377, 388, 398, 415, № 5, maddə 577, № 7, maddə 811, № 8, maddə 1026, № 9, maddələr 1085, 1101, № 10, maddə 1210, № 12, maddə 1552; 2023, № 2, maddə 320, № 4, maddə 588, № 5, maddə 737; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 11 iyul tarixli 226 nömrəli və 19 iyul tarixli 233 nömrəli qərarları) aşağıdakı dəyişikliklər edilsin:

1. Həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə gəlirlərinin təsnifatı"nın 1.1.4.7.3.0-cı yarımmaddəsində "Xarici dövlətlərdə qeydiyyatda olan avtonəqliyyat vasitələri sahibləri" sözləri "Azərbaycan Respublikasının ərazisinə daxil olan və Azərbaycan Respublikasının ərazisindən tranzit keçən xarici dövlətlərdə qeydiyyatda olan avtonəqliyyat vasitələrinin sahibləri və ya həmin nəqliyyat vasitəsini idarə edən şəxslər" sözləri ilə əvəz edilsin.

2. Həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə gəlirlərinin təsnifatına əlavə"nin 1.1.4.7-ci yarımbəndində "həmin ərazidən sərnişin və yük daşınması üçün istifadə edən avtonəqliyyat vasitələrinin sahibləri olan qeyri-rezident" sözləri "Azərbaycan Respublikasının ərazisindən tranzit keçən xarici dövlətlərdə qeydiyyatda olan avtonəqliyyat vasitələrinin sahibləri və ya həmin nəqliyyat vasitəsini idarə edən" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Prezident İlham Əliyevin siyasəti yeni reallıq yaradıb

"Prezident İlham Əliyevin səyləri və Azərbaycan diplomatiyasının təşəbbüsləri yüz minlərlə soydaşımızın indiki Ermənistan Respublikasının ərazisindəki tarixi-etnik torpaqlarından zorla, kütləvi şəkildə deportasiyası məsələsinə beynəlxalq birliyin diqqətini çəkib və sülh danışıqlarının bir komponentinə çevirib".



Bu sözləri Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov deyib. Komitə sədri bildirib ki, Prezident İlham Əliyevin qətiyyəti və strateji məharəti ilə ermənilərin Azərbaycan xalqına qarşı dövlət səviyyəsində həyata keçirdikləri bu tarixi cinayətlərə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində əldə edilən uğurlar Ermənistan rəhbərliyini, erməni lobbisini ciddi narahat etməyə başlayıb. Dövlət başçısının 44 günlük Vətən müharibəsindən dərhal sonra Qərbi Azərbaycan tarixinin öyrənilməsi, araşdırılması, tarixi həqiqətlərin beynəlxalq müstəvidə təbliği və deportasiyaya məruz qalmış Qərbi azərbaycanlıların hüquqlarının müdafiəsi ilə bağlı irəli sürdüyü təşəbbüslər haqsız iddialarla çıxış edən Ermənistan və müttəfiqlərinin danışıqlar prosesində mövqeyini sarsıdıb, gündəliyin tamamilə rəsmi Bakının təşəbbüsü ilə formalaşmasını şərtləndirib. Prezident İlham Əliyevin bu strategiyası 44 günlük Vətən müharibəsinin danışıqlar masasında davamı kimi dəyərləndirilməlidir.

Sadiq Qurbanov qeyd edib ki, Prezident 44 günlük Vətən müharibəsinin nəticələrini yalnız Azərbaycanın işğal olunmuş torpaqlarının azad olunması, milli suverenliyin bütün ölkə ərazisində təmin edilməsi, separatizmə rəvac verəcək bütün zəminləri aradan qaldırmaq vasitəsi kimi deyil, eyni zamanda tarixi imkana çevirərək Ermənistanı azərbaycanlıların zorla deportasiyasına və kütləvi qırğınlara görə cavabdeh saxlayır: "Dövlət başçısı ustad strateq, qrosmeystr kimi erməniləri onların öz ənənəvi silahları, fəndləri ilə vurur. Ermənistanın XX əsrin əvvəlindən başlayaraq mərhələlərlə 1991-ci ilə qədər azərbaycanlıları və digər etnik qrupları öz ərazisindən qovmaqla monoetnik dövlət yaratması həqiqətini heç kim təkzib edə bilməz. Prezident İlham Əliyev məhz elə bir tarixi şəraitdə, elə bir kontekstdə, formatda bu məsələləri gündəliyə gətirib ki, ermənilər güzgü effekti ilə üz-üzə qalıblar və onların bütün təşəbbüsləri öz əleyhlərinə çevrilir".

Komitə sədri vurğulayıb ki, Ermənistan baş naziri Nikol Paşinyanın Qərbi Azərbaycan məsələsinə bu formada isterik və emosional reaksiya verməsi bundan doğur. Erməniləri tarixi faktlar təkzib edir, Nikol Paşinyanı məhz tarixi sənədlər yalançı çıxarır. Belə ki, SSRİ Baş Prokurorluğunun sənədlərindən aydın olur ki, 1988-1989-cu illərdə Ermənistan SSR-də milli zəmində baş verən cinayət faktları üzrə 675 cinayət işi qaldırılıb. SSRİ rəhbərliyinin qərarları, rəsmi şəxslərin məruzələri göstərir ki, deportasiya zorla həyata keçirilib.1988-1991-ci illərdə isə azərbaycanlılara qarşı kütləvi şəkildə cinayətlər törədilib. Bu faktlar İrəvanda var və Paşinyan bunları bildiyinə görə sərsəm bəyanat verməyə məcbur qalıb. Ermənilər, onların başçıları Nikol Paşinyan Prezident İlham Əliyevin Ermənistanı tarixi cinayətlərə görə cavabdeh saxlamaq strategiyası qarşısında müdafisəsiz qalıblar. Ermənilər uduzduqlarını, Nikol Paşinyan isə yalnız səngərdə, müharibədə deyil, masada da Prezident İlham Əliyevə məğlub olduğunu başa düşür.

S.Qurbanov bildirib ki, dövlət başçısının strategiyası ermənilərin müttəfiqlərini də çətin vəziyyətdə qoyub, çünki rəsmi Bakı onların öz oyun qaydaları ilə haqsız olduqlarını sübut edir, hətta ən qatı erməni tərəfdarları belə deportasiya faktlarını təkzib edə bilmirlər: "Ermənilərin haqsız iddialarını dəstəkləmək, amma Qərbi Azərbaycan məsələsinə səssiz qalmaq mümkün deyil. Dost da, düşmən də bunun fərqindədir və Prezident İlham Əliyev siyasəti diplomatiya müstəvisində də yeni reallıq yaradıb".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# *Boqdan DRAPYATIY:* "Ukrayna Azərbaycanın humanitar yardımlarını yüksək qiymətləndirir"

"Müharibə dönəmində Azərbaycan Ukraynaya humanitar yardımlarını davam etdirir. Bu dəstəyə görə, Azərbaycan dövlətinə, Prezident İlham Əliyevə təşəkkür edirəm".




AZƏRTAC xəbər verir ki, bunu Ukraynanın daxili işlər nazirinin müavini Boqdan Drapyatıy Azərbaycanın bu ölkədəki səfiri Seymur Mərdəliyevlə görüşündə söyləyib.

Onun sözlərinə görə, Ukrayna Azərbaycanın bu yardımlarını yüksək qiymətləndirir. "Bu, münasibətlərimizin strateji xarakterinin daha bir göstəricisidir", - deyə nazir müavini vurğulayıb.

Azərbaycanın göstərdiyi humanitar yardımlar haqqında məlumat verən səfir S.Mərdəliyev, öz növbəsində qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyev Ukrayna dövlətinə elektrik avadanlıqları üçün 7,6 milyon dollar ayrılması haqqında sərəncam imzalayıb. Artıq müvafiq avadanlıqlar hazırlanır və maddi-texniki təchizat işlənir. Yaxın vaxtlarda Ukrayna Azərbaycandan generator və transformatorlar alacaq. Azərbaycan Ukraynaya humanitar yardım göstərməyə və bunu genişləndirməyə davam edəcək.

Tibbi və psixoloji reabilitasiya məqsədilə Azərbaycana ukraynalı uşaqların göndərildiyini vurğulayan S.Mərdəliyev göstərilən humanitar yardımların səmimi olduğunu, uşaqların sosial reabilitasiyası proqramlarının davam edəcəyini bildirib. O, Londonda keçirilən Ukraynanın Bərpası Konfransında elan olunduğu kimi Azərbaycanın Ukraynada bərpa layihələrində iştirak edəcəyini diqqətə çatdırıb, minatəmizləmə işləri üçün avadanlıqların veriləcəyini qeyd edib. Artıq bu istiqamətdə işlər aparılır. Eyni zamanda Ukrayna tərəfinin xahişi ilə Azərbaycan minatəmizləmə işlərində öz təcrübəsini bölüşəcək.

"Azərbaycan işğaldan azad etdiyi ərazilərdə minaların təmizlənməsində böyük təcrübəyə malikdir və bu işləri beynəlxalq dəstək olmadan həyata keçirir", - deyə səfir əlavə edib.

S.Mərdəliyev Azərbaycan dövlətinin İrpen şəhərinin infrastrukturunun bərpasında görəcəyi işlər barədə də ətraflı məlumat verib.

Görüşdə tərəflər maraq doğuran digər məsələləri də müzakirə ediblər.

# Milli Məclisin deputatı ASEAN Parlamentlərarası Assambleyasının İndoneziyadakı iclasında iştirak edib

Milli Məclisin deputatı Kamran Bayramov Cənub-Şərqi Asiya Dövlətləri Assosiasiyasının (ASEAN) Parlamentlərarası Assambleyasının (AİPA) avqustun 6-dan 10-dək İndoneziyanın Cakarta şəhərində keçirilən 44-cü yığıncağında iştirak edib.




Azərbaycan parlamentinin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, deputat yığıncağa evsahibliyi edən İndoneziya parlamentinin nümayəndələr palatasının sədri Puan Maharani ilə görüşüb, ona Milli Məclisin Sədri Sahibə Qafarovanın salamlarını çatdırıb, tədbirə edilmiş dəvətə görə təşəkkürünü bildirib.

Assambleyanın plenar iclasına qatılan Kamran Bayramov çıxış edərək Milli Məclisin ötən ilin oktyabr ayından AİPA-da müşahidəçi qismində təmsil olunduğu müddət ərzində assambleyanın üzvü olan parlamentlərlə əməkdaşlığın gücləndirilməsi sahəsində görülmüş işlər barədə məlumat verib, tədbir iştirakçılarını Cənubi Qafqazda cərəyan edən hadisələr, o cümlədən Ermənistanla münasibətlərin normallaşdırılması, ölkəmizin Qarabağ iqtisadi rayonunda yaşayan ermənəsilli sakinlərin cəmiyyətimizə reinteqrasiyası, bu prosesdə Ermənistanın qeyri-konstruktiv mövqeyi və təxribatları barədə məlumatlandırıb.

Yığıncaq çərçivəsində Kamran Bayramov "Parlament əməkdaşlığı: Sülh, sabitlik və tərəqqi naminə ortaq öhdəliklər" mövzusunda keçirilən Azərbaycan-AİPA dialoqu panelində iştirak edib, ölkəmizin BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlığı Təşkilatı və digər nüfuzlu beynəlxalq təşkilatlarda fəal iştirakından, verdiyi töhfələrdən və qazandığı uğurlardan bəhs edib, panel iştirakçıları ilə AİPA-nın üzvü olan parlamentlərlə qarşılıqlı fəaliyyət perspektivlərini müzakirə edib, ölkəmizlə bağlı onların çoxsaylı suallarını cavablandırıb.

Bundan başqa, K.Bayramovun yığıncaqda iştirak edən Vyetnam nümayəndə heyətinin rəhbəri, həmin ölkənin parlamentinin Xarici əlaqələr komitəsinin sədri Vu Hay Ha ilə görüşü keçirilib, parlamentlərimiz arasında mövcud olan əməkdaşlıqdan, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyətindən və dəstəyindən məmnunluq ifadə olunub, gələcək perspektivlər və planlar geniş müzakirə edilib.

Tədbir zamanı Kamran Bayramov nüfuzlu "CNN Indonesia" televiziya kanalına Azərbaycan və İndoneziya arasında əlaqələr, Milli Məclisin AİPA-nın üzv parlamentləri ilə əməkdaşlığı, Cənubi Qafqaz regionunda hazırkı vəziyyətlə bağlı müsahibə verib.

# Pakistan mətbuatında Ermənistanın çirkin təbliğatı ilə bağlı məqalə dərc olunub

Ermənilərin Pakistanın cənub bölgəsində baş vermiş qatar qəzasını ələsalmaları və bu ölkəyə qarşı çirkin təbliğat aparmaları ilə bağlı Pakistanın "Parliament Times" qəzetində məqalə dərc olunub.



AZƏRTAC xəbər verir ki, jurnalist Hilal Əhmədin qələmə aldığı "Ermənistan çirkin təbliğat apararaq Pakistanın imicini ləkələməyə çalışır" sərlövhəli məqalədə avqustun 6-da Nəvabşah şəhəri yaxınlığında baş verən dəhşətli qəza nəticəsində aralarında qadın, uşaq və yaşlı sərnişinlər də daxil olmaqla 30-dan çox insanın həlak olduğu vurğulanıb. Təəssüf hissi ilə bildirilib ki, Ermənistan mediası çoxsaylı insan tələfatı ilə nəticələnən qatar qəzasını Pakistana qarşı qərəzli mövqeyinə görə ələsalmaqda davam edir. "Ermənilərin Pakistana qarşı mövqeyi nifrətə əsaslanır. Belə ki, Pakistan Qarabağ məsələsində haqlı mübarizəsində daim Azərbaycan dövlətini və xalqını dəstəkləyib. Pakistan Azərbaycan ərazilərinin qanunsuz işğalı ilə əlaqədar Ermənistanı müstəqil ölkə kimi tanımır. Eyni zamanda Pakistan Qarabağ bölgəsinin Ermənistanın işğalından azad edilməsi üçün Azərbaycana ciddi dəstək verib", - deyə məqalədə qeyd olunub.

Yazıda Pakistanın Azərbaycanın müstəqilliyini ilk tanıyan ölkələrdən olduğu xatırlanıb. Pakistanın otuz ilə yaxın işğal altında olan Qarabağın və ətraf rayonların azad edilməsi ilə nəticələnən Vətən müharibəsində Azərbaycana dəstək verdiyi qeyd edilib: "2020-ci ildə İkinci Qarabağ müharibəsi nəticəsində Azərbaycan öz ərazilərini Ermənistanın işğalından azad etdi. Bu, bir həqiqətdir ki, Pakistan Azərbaycanın ərazi bütövlüyünün bərpası üçün ədalətli mövqeyini daim dəstəkləyib. Azərbaycan heç bir kənar yardım olmadan İkinci Qarabağ müharibəsində qalib gələrək ərazi bütövlüyünü bərpa etdi".

Müəllif Pakistanın BMT və digər beynəlxalq platformalarda Azərbaycanın mövqeyini dəfələrlə dəstəklədiyini, Pakistan hökumətinin və xalqının hər zaman Azərbaycanın yanında olduğunu, Ermənistanın təcavüzünü pislədiyini diqqətə çatdırıb. Bildirib ki, Azərbaycan da Kəşmir məsələsində Pakistanı dəstəkləyib və bu problemin BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun qaydada həllinin tərəfdarı olduğunu bəyan edib. Azərbaycan Qarabağ məsələsində əsl dostu Pakistanın dəstəyini də ifadə edib. "Qeyd etmək lazımdır ki, Pakistan Azərbaycan ilə sıx dostluq münasibətlərinə malikdir. Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Kəşmir üzrə Təmas Qrupunun üzvüdür. Hər iki ölkənin mühüm beynəlxalq məsələlərə dair yaxın baxışları var. Pakistan ilə Azərbaycanı möhkəm dostluq əlaqələri birləşdirir. Lakin Ermənistan və Hindistan Azərbaycan-Pakistan dostluq əlaqələrinə qarşı çıxır. Ermənistan Hindistan hökumətini məmnun etmək üçün Pakistana qarşı yalan təbliğatla məşğuldur. Təsadüfi deyil ki, bu yaxınlarda Hindistanın Ermənistana silah tədarük etməsi ilə bağlı mətbuatda da təkzibedilməz məlumat yayılmışdı", - deyə məqalədə vurğulanıb.

Xatırladaq ki, məqalənin müəllifi Hilal Əhməd bu ilin martında xarici media nümayəndələrindən ibarət heyətin tərkibində işğaldan azad olunmuş ərazilərə səfər edib.

# Düşərgə toplanışına cəlb edilən kursantlarla praktiki məşğələlər keçirilir

Heydər Əliyev adına Hərbi İnstitutun tədris planı və proqramına uyğun olaraq düşərgə toplanışına cəlb edilən kursantlarla praktiki məşğələlər keçirilir.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, məşğələlərdə azimutla hərəkət, ərazilərin mina və partlamamış döyüş sursatlarından təmizlənməsi, patrul xidmətinin təşkili, eləcə də meşəlik ərazilərdə aşkarlanan şərti düşmənin pusquya salınaraq məhv edilməsi üzrə tapşırıqlar icra olunub. Həmçinin kütləvi qırğın silahlarından mühafizə üzrə dərslərdə də kursantlar fəal iştirak ediblər.

Düşərgə toplanışı zamanı çalışmaların yerinə yetirilməsində əsas diqqət kursantların praktiki və döyüş vərdişlərinin təkmilləşdirilməsinə yönəldilib.

# Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında "AzStateNet" şəbəkəsinin qurulması davam etdirilir

Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ərazilərində "AzStateNet" şəbəkəsinin qurulması işlərini davam etdirir.

Bu barədə AZƏRTAC-a Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin Mətbuat xidmətindən məlumat verilib.

Məlumatda bildirilib ki, cari ilin ötən dövründə həmin ərazilərdə fəaliyyət göstərən 15 dövlət qurumu "AzStateNet" şəbəkəsi üzərindən data və internet kanalları ilə təmin olunub. Şəbəkəyə yeni qoşulan dövlət qurumları mühafizə olunan data kanalları ilə bu şəbəkə vasitəsilə həm öz aralarında, həm də Bakı şəhəri daxil olmaqla respublikamızın digər bölgələrindən "AzStateNet" şəbəkəsində olan dövlət qurumları ilə etibarlı məlumat mübadiləsi apara biləcək və təhlükəsiz internet şəbəkəsindən istifadə edə biləcək.

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 272 QƏRAR Bakı şəhəri, 5 avqust 2023-cü il

## "Notariat hərəkətlərinin qeydi üçün reyestrlərin, notariat şəhadətnamələrinin, əqdlərdə və təsdiq edilən sənədlərdə təsdiq qeydlərinin formalarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 23 avqust tarixli 148 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 29 noyabr tarixli 653-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Notariat hərəkətlərinin qeydi üçün reyestrlərin, notariat şəhadətnamələrinin, əqdlərdə və təsdiq edilən sənədlərdə təsdiq qeydlərinin formalarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 23 avqust tarixli 148 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 652; 2005, № 8, maddə 782, № 12, maddə 1228; 2006, № 2, maddə 203; 2008, № 8, maddə 787; 2013, № 5, maddə 577; 2014, № 10, maddə 1314; 2016, № 11, maddə 1936; 2018, № 3, maddə 627; 2019, № 1, maddə 169, № 3, maddələr 513, 564, № 5, maddə 967; 2020, № 4, maddə 482) ilə təsdiq edilmiş "Notariat hərəkətlərinin qeydi üçün reyestrlərin, notariat şəhadətnamələrinin, əqdlərdə və təsdiq edilən sənədlərdə təsdiq qeydlərinin formaları"na 1-1 nömrəli forma əlavə edilsin.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 23 avqust tarixli 148 nömrəli Qərarı*

**1-1 nömrəli forma**

## Notariat hərəkətlərinin qeyd edilməsi üçün ELEKTRON REYESTR

| Notariat hərəkətinin nömrəsi | Notariat hərəkətinin aparıldığı tarix | Notariat hərəkətinin aparılmasında iştirak edən şəxslər və ya onların nümayəndəsi, onların yaşayış yeri | Notariat hərəkətinin aparılmasında iştirak edən şəxslərin şəxsiyyətini təsdiq edən sənədlər | Notariat hərəkətinin məzmunu | Dövlət rüsumu alınmışdır və ya dövlət rüsumunu ödəməkdən azad edilməsi haqqında qeyd | Notariat hərəkətinin aparılmasında iştirak edən şəxslərin fotoşəkli |
|---|---|---|---|---|---|---|

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 273 QƏRAR Bakı şəhəri, 5 avqust 2023-cü il

## "Notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimatın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 11 sentyabr tarixli 167 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 11 sentyabr tarixli 167 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 9, maddə 693; 2001, № 11, maddə 722; 2002, № 3, maddə 148, № 7, maddə 455, № 10, maddə 635; 2003, № 10, maddə 629; 2005, № 4, maddə 386, № 6, maddə 534, № 8, maddə 782, № 10, maddə 977, № 11, maddə 1061, № 12, maddələr 1228, 1231; 2006, № 3, maddə 297, № 8, maddə 731, № 9, maddə 830, № 10, maddə 902, № 11, maddə 994; 2008, № 2, maddə 108, № 4, maddə 316, № 8, maddə 787; 2009, № 2, maddə 148, № 10, maddələr 846, 849, № 12, maddə 1079; 2010, № 6, maddə 555; 2011, № 10, maddə 971; 2012, № 3, maddə 263, № 5, maddələr 489, 495, № 7, maddə 777, № 11, maddə 1206, № 12, maddə 1354; 2013, № 4, maddə 444, № 5, maddə 578; 2014, № 1, maddə 76, № 5, maddələr 552, 589, № 6, maddə 746, № 8, maddə 1019, № 12, maddə 1685; 2015, № 12, maddə 1580; 2016, № 3, maddə 611, № 4, maddələr 777, 814, № 6, maddə 1226, № 8, maddə 1449, № 11, maddə 1937; 2017, № 1, maddə 135, № 3, maddə 493, № 6, maddə 1245, № 7, maddə 1491, № 9, maddə 1721, № 10, maddə 1883, № 12 (II kitab), maddə 2545; 2018, № 2, maddə 347, № 3, maddə 628, № 4, maddə 789, № 5, maddə 1122, № 6, maddələr 1360, 1367, № 9, maddə 1929, № 10, maddə 2166; 2019, № 1, maddə 169, № 3, maddələr 513, 564, № 5, maddələr 938, 967, № 6, maddə 1172, № 7, maddələr 1325, 1338, № 10, maddə 1674; 2020, № 6, maddə 783, № 10, maddələr 1282, 1299, № 12 (V kitab), maddə 1580; 2021, № 3, maddə 302, № 12, maddə 1509; 2022, № 4, maddə 414; 2023, № 5, maddə 723; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 6 iyun tarixli 188 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimat"da aşağıdakı dəyişikliklər edilsin:

1. 4-cü hissənin birinci abzasına "zidd olmayan" sözlərindən sonra "Azərbaycan Respublikası Prezidentinin," sözləri əlavə edilsin.

2. 7-ci hissə üzrə:

2.1. beşinci abzasda "Ərizədə müraciət edən şəxsin imzasının həqiqiliyi notariat qaydasında təsdiqlənir və" sözləri "Ərizə" sözü ilə əvəz edilsin və həmin abzasa aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Həmin ərizə yazılı formada bilavasitə notariusun yanında imzalanaraq verilir, notarius tərəfindən ərizə üzərində tarix və onun yanında verildiyi qeyd edilməklə imzalanır, həmçinin şəxsi gerbli möhürlə təsdiq edilir və bununla bağlı dövlət rüsumu və ya haqq, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə haqq alınmır.";

2.2. on səkkizinci abzasa aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Bu arayışın əldə edilməsi ayrıca notariat hərəkəti hesab edilmir və buna görə dövlət rüsumu və ya haqq, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə haqq alınmır.";

2.3. on doqquzuncu abzas aşağıdakı redaksiyada verilsin:

"Notarius tərəfindən daşınmaz əmlak üzərində sərəncam verilməsinə dair notariat qaydasında təsdiq edilmiş müqavilənin Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin "Elektron notariat" informasiya sistemi vasitəsilə real vaxt rejimində Elektron Hökumət İnformasiya Sistemi üzərindən ötürülmüş elektron nüsxəsi əsasında müvafiq hüquqlar daşınmaz əmlakın dövlət reyestrində dövlət qeydiyyatına alınır. Belə müqavilə ondan irəli gələn mülkiyyət və digər əşya hüquqlarının daşınmaz əmlakın dövlət reyestrində qeydiyyatının aparılması üçün ərizə hesab olunur.";

2.4. iyirmi üçüncü abzas ləğv edilsin.

3. Aşağıdakı məzmunda 7-1-ci və 7-2-ci hissələr əlavə edilsin:

"7-1. "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinə uyğun olaraq daşınmaz əmlak üzərində hüquqların "bir pəncərə" prinsipi əsasında həyata keçirilməsi üçün notarius müraciət etmiş şəxslərin həqiqi niyyətinə uyğun şərtlər əsasında müqavilə layihəsini tərtib edir və layihə tərəflərlə razılaşdırıldıqdan sonra müqavilənin rəsmiləşdirilməsi və daşınmaz əmlaka hüquqların dövlət qeydiyyatı ilə bağlı həmin notariusun depozit hesabına mədaxil ediləcək bütün xərcləri (daşınmaz əmlakın dövlət reyestrində hüquqların qeydiyyatı və daşınmaz əmlaka dair çıxarışın hazırlanması, daşınmaz əmlakın təsvirinin, bu əmlak üzərində qeydiyyata alınmış hüquqlara və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair arayışın alınması, dövlət rüsumu və ya haqq, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə haqqı, bank xidmət haqqı, habelə sadələşdirilmiş verginin ödənilməsi və əmlakın dəyəri) əks etdirən mədaxil bildirişini hazırlayır. Mədaxil bildirişi çap edilərək tərəflərə təqdim olunur.

Tərəflərin bu ödənişlərlə razı olması onların həmin mədaxil bildirişi və bu şərtlər əsasında müqavilə bağlamaq istəyi barədə birgə ərizələrində notariusun iştirak etdiyi imzaları ilə təsdiq olunur. Bu ərizə notarius tərəfindən üzərində tarix və onun yanında verildiyi qeyd edilməklə imzalanır, həmçinin şəxsi gerbli möhürlə təsdiq edilir (bununla bağlı dövlət rüsumu və ya haqq, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə haqq alınmır).

Tərəflər müqaviləni kağız daşıyıcıdakı nüsxədə bilavasitə imzalayırlar.

İmzalanmış müqavilənin kağız daşıyıcıdakı nüsxəsində "müqavilə notariusun elektron imzası ilə təsdiq edildikdən sonra qüvvəyə minir" qeydi aparılmaqla yalnız ödənişlər edildikdən sonra kağız daşıyıcıdakı nüsxəsi notariat qaydasında təsdiq edilir.

Tərəflər müqavilənin bütün nüsxələrini imzaladıqdan sonra bu Təlimatın 7-1-ci hissəsinin birinci abzasında nəzərdə tutulmuş xərclərin Hökumət Ödəniş Portalı (HÖP) vasitəsilə aidiyyəti üzrə həyata keçirilməsi üçün "Elektron notariat" informasiya sistemində ödəniş tapşırığı hazırlanaraq elektron qaydada notariusun depozit hesabı olduğu banka göndərilir, bir nüsxəsi isə çap edilərək bank şöbəsinə təqdim etmək üçün tərəflərə təqdim edilir.

Bu Təlimatın 7-1-ci hissəsinin birinci abzasında nəzərdə tutulmuş xərclərin notariusun depozit hesabına ödənilməsi barədə məlumat notariusa "Elektron notariat" informasiya sistemi vasitəsilə daxil olduqda müqavilənin elektron daşıyıcıdakı nüsxəsi real vaxt rejimində notariusun elektron imzası ilə təsdiq edilməklə daşınmaz əmlakın dövlət reyestrinin informasiya sisteminə ötürülür, kağız daşıyıcıdakı nüsxəsi isə təsdiq edilməklə notariat işinə əlavə edilir.

7-2. Notarius daşınmaz əmlak barəsində aparılmış notariat hərəkətinin nəticəsi olaraq tərtib və (və ya) təsdiq edilmiş digər sənədlərin (o cümlədən müqavilə, ər-arvadın ümumi əmlakdakı paya mülkiyyət hüququ haqqında şəhadətnamə, qanun və ya vəsiyyət üzrə vərəsəlik şəhadətnaməsi, bölgü planı, nisyə alqı-satqı müqaviləsi üzrə son ödəniş barədə bildiriş və s.) elektron nüsxəsini "Elektron notariat" informasiya sistemi vasitəsilə hüquqların dövlət qeydiyyatı üçün daşınmaz əmlakın dövlət reyestrinin informasiya sisteminə ötürür. Bu zaman bu Təlimatın 7-1-ci hissəsi ilə müəyyən edilmiş göstərişlər müvafiq qaydada tətbiq edilir.".

4. 10-cu hissə üzrə:

4.1. ikinci abzasa aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Bu Təlimatın 10-cu hissəsinin dördüncü və altıncı abzaslarında nəzərdə tutulan hallar istisna olmaqla "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, notariat hərəkətlərinin aparılması üzrə dövlət rüsumunun ödənilməsindən azadolmalar tətbiq edilən hallarda xüsusi notariuslar tərəfindən bu haqq və notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə haqq tutulmur.";

4.2. aşağıdakı məzmunda on ikinci abzas əlavə edilsin:

"Notariat hərəkətlərinin aparılması üçün müraciət etmiş şəxsə verilməsi nəzərdə tutulmayan, o cümlədən notariat işinə əlavə edilməsi məqsədilə sənədlərin surətlərinin təsdiqinə, habelə digər notariat hərəkətinin aparılması çərçivəsində elektron informasiya sistemləri və ya ehtiyatları vasitəsilə əldə edilmiş məlumat və ya sənədlərin surətinin kağız daşıyıcısına keçirilərək təsdiqinə görə dövlət rüsumu və ya haqq, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə haqq tutulmur. Bu zaman onların üzərində notarius tərəfindən tarix göstərilməklə "Əsli ilə düzdür" sözləri yazılır, imzalanır və şəxsi gerbli möhürlə təsdiq edilir və notariat işinə tikilir.".

5. 13-cü hissənin on ikinci abzasının üçüncü cümləsindən "notariat qaydasında təsdiqlənmiş" sözləri çıxarılsın, həmin abzasa aşağıdakı məzmunda dördüncü cümlə əlavə edilsin və dördüncü cümlə beşinci cümlə hesab edilsin:

"Həmin ərizə bilavasitə notariusun qarşısında imzalanaraq yazılı formada verilir, notarius tərəfindən ərizə üzərində tarix və onun yanında verildiyi qeyd edilməklə imzalanır, həmçinin şəxsi gerbli möhürlə təsdiq edilir və bununla bağlı dövlət rüsumu və ya haqq, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə haqq alınmır.".

6. 13-1-ci hissə üzrə:

6.1. ikinci abzasın birinci cümləsinə "barkod" sözündən sonra "və QR-kod" sözləri əlavə edilsin;

6.2. üçüncü abzasa "sənəddə" sözündən sonra "və "Elektron notariat" informasiya sistemi vasitəsilə aparılan "Notariat hərəkətlərinin qeyd edilməsi üçün elektron reyestr"də" sözləri əlavə edilsin.

7. 23-cü hissə üzrə:

7.1. birinci abzasda "kadastrının məlumatlarının alınması ilə bağlı əsaslandırılmış yazılı və ya elektron sorğular vermək hüququ vardır" sözləri "kadastrı və Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş fiziki şəxslərin sadələşdirilmiş verginin tutulması üçün yaşayış və qeyri-yaşayış sahələrinin və torpağın yerləşdiyi ərazi üzrə zona məlumatlarını real vaxt rejimində əldə etmək hüququ vardır" sözləri ilə əvəz edilsin və aşağıdakı məzmunda ikinci və üçüncü cümlələr əlavə edilsin:

"Notariat hərəkətlərinin aparılması və bununla əlaqədar xidmətlərin göstərilməsi üçün tələb olunan sənəd və (və ya) məlumatın Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə olunması mümkün olduqda həmin sənədlər və ya məlumatlar ərizəçidən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi bu Təlimatdakı sənəd və məlumatlardan Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olanlarının siyahısını müəyyən edir və rəsmi internet saytında yerləşdirir.";

7.2. ikinci abzasda "kağız daşıyıcısına keçirilərək" sözləri "kağız daşıyıcıya keçirilərək bu Təlimatın 10-cu hissəsinin on ikinci abzası nəzərə alınmaqla" sözləri ilə əvəz edilsin.

8. 29-cu hissə üzrə:

8.1. birinci abzasdan "kağız və" sözləri çıxarılsın, həmin abzasa "elektron" sözündən sonra "və bu abzasın ikinci cümləsində nəzərdə tutulmuş hallarda kağız" sözləri və aşağıdakı məzmunda ikinci və üçüncü cümlələr əlavə edilsin:

"Hərbi vəziyyətin elan edilməsi, habelə təbii fəlakətlər, texnoloji qəzalar və fövqəladə xarakter daşıyan digər hallar zamanı dövlət orqanlarının elektron informasiya sistemlərinin, o cümlədən "Elektron notariat" informasiya sisteminin fəaliyyətində fasilələr baş verdiyi halda notariat hərəkətləri bu Təlimatda nəzərdə tutulmuş qaydada kağız formada aparılan notariat reyestrində qeyd edilməli və hər bir hərəkətə müstəqil nömrə verilməlidir. Kağız formada aparılan reyestrlərin tətbiqi tarixi və müddəti Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən müəyyən edilir.";

8.2. ikinci abzasa "tərəfindən" sözündən sonra "Elektron notariat" informasiya sistemində" sözləri, "olunur" sözündən sonra "və hər bir hərəkətə avtomatlaşdırılmış qaydada vahid reyestr nömrəsi verilir" sözləri əlavə edilsin.

9. 31-ci hissə üzrə:

9.1. ikinci abzasdan " onların notariat qaydasında təsdiq edilmiş" sözləri çıxarılsın və həmin abzasa aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Bu zaman həmin sənədlər bu Təlimatın 10-cu hissəsinin on ikinci abzası nəzərə alınmaqla təsdiq edilməlidir və bununla bağlı dövlət rüsumu və ya haqq, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə haqq tutulmur.";

9.2. dördüncü abzasa aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Bu zaman həmin sənədlər bu Təlimatın 10-cu hissəsinin on ikinci abzası nəzərə alınmaqla təsdiq edilməlidir və bununla bağlı dövlət rüsumu və ya haqq, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə haqq alınmır.";

9.3. beşinci abzasa aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Bu zaman həmin sənədlər bu Təlimatın 10-cu hissəsinin on ikinci abzası nəzərə alınmaqla təsdiq edilməlidir və bununla bağlı dövlət rüsumu və ya haqq, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə haqq tutulmur.";

9.4. səkkizinci abzasda "notariat qaydasında" sözləri "notarius tərəfindən" sözləri ilə əvəz edilsin və həmin abzasa aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Bu zaman həmin sənədlər bu Təlimatın 10-cu hissəsinin on ikinci abzası nəzərə alınmaqla təsdiq edilməlidir və bununla bağlı dövlət rüsumu və ya haqq, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə haqq tutulmur.".

10. 33-1-ci hissənin ikinci abzasına "saxlayır" sözündən sonra "(bu zaman həmin sənədlər bu Təlimatın 10-cu hissəsinin on ikinci abzası nəzərə alınmaqla təsdiq edilməlidir və bununla bağlı dövlət rüsumu və ya haqq, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə haqq tutulmur)" sözləri əlavə edilsin.

11. 39-cu hissənin beşinci abzasının ikinci cümləsində "notariat qaydasında təsdiq edilməli" sözləri "notarius tərəfindən üzərində tarix və onun yanında verildiyi qeyd edilməklə imzalanmalı, həmçinin şəxsi gerbli möhürlə təsdiq edilməli (bununla bağlı dövlət rüsumu və ya haqq, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə haqq alınmır)" sözləri ilə əvəz edilsin.

12. 41-ci hissənin dördüncü abzasında "notariat qaydasında" sözləri "notarius tərəfindən" sözləri ilə əvəz edilsin və həmin abzasa aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Bu zaman həmin sənədlər bu Təlimatın 10-cu hissəsinin on ikinci abzası nəzərə alınmaqla təsdiq edilməlidir və bununla bağlı dövlət rüsumu və ya haqq, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə haqq alınmır.".

13. 42-ci hissənin səkkizinci abzasında "notariat qaydasında" sözləri "notarius tərəfindən" sözləri ilə əvəz edilsin və həmin abzasa aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Bu zaman həmin sənədlər bu Təlimatın 10-cu hissəsinin on ikinci abzası nəzərə alınmaqla təsdiq edilməlidir və bununla bağlı dövlət rüsumu və ya haqq, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə haqq alınmır.".

14. Aşağıdakı məzmunda 45-1-ci hissə əlavə edilsin:

"45-1. Daşınmaz əmlak barəsində sərəncam verilməsi ilə bağlı müqavilənin rəsmiləşdirilməsi və hüquqların dövlət qeydiyyatı ilə bağlı müqavilə üzrə tərəflərin qanunvericiliklə müəyyən edilən xərcləri notariusun ödəniş tapşırığında təyinatı göstərilməklə, bankda açdığı depozit hesabından eyni vaxtda ödənilir.".

15. 47-ci hissə aşağıdakı redaksiyada verilsin:

"47. Qeydiyyatdan keçməli olan əmlaka sərəncam verilməsi haqqında müqavilələri təsdiq edərkən, notarius tərəfindən əmlaka mülkiyyət hüquqlarının dövlət qeydiyyatı haqqında müvafiq reyestrdən çıxarışın informasiya sistemi vasitəsilə əldə edilərək surəti (bu Təlimatın 10-cu hissəsinin on ikinci abzası nəzərə alınmaqla təsdiq edilməlidir və bununla bağlı dövlət rüsumu və ya haqq, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə haqq alınmır) kağız daşıyıcısına keçirilərək təsdiq edilir və notariat işinə əlavə olunur.".

16. 48-ci hissənin birinci, dördüncü və beşinci abzasları aşağıdakı redaksiyada verilsin:

"48. Notarius tərəfindən daşınmaz əmlak barəsində notariat hərəkətlərinin aparılması ilə bağlı daşınmaz əmlaka dair dövlət reyestrindən çıxarış, həmin əmlakın təsviri, bu əmlak üzərində qeydiyyata alınmış hüquqlara və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair dövlət reyestrindəki məlumatlar notarius tərəfindən dövlət reyestrindən Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə real vaxt rejimində əldə edilir. Həmin sənəd və məlumatlar notariusun istifadə etdiyi müvafiq informasiya sistemində elektron formada avtomatlaşdırılmış qaydada əks olunur.

Avtonəqliyyat vasitələrinin özgəninkiləşdirilməsi və ya ipoteka qoyulmasına dair müqavilələr, avtonəqliyyat vasitələrinə dair mülkiyyət hüququnu təsdiq edən sənəd, onların müayinədən keçməsi barədə arayış Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin informasiya sistemindən "Elektron notariat" informasiya sistemi vasitəsilə real vaxt rejimində əldə edildikdən sonra təsdiq edilir.".

Əmlak üzərində qadağa olduqda əmlakın özgəninkiləşdirilməsi haqqında müqavilə yalnız borcun əmlakı əldə edənin adına keçirilməsinə dair kreditorun və əldə edənin razılığı olduqda təsdiq edilə bilər.".

17. 49-cu hissə üzrə:

17.1. birinci abzasda "qeydiyyatda olması barədə məlumatı" sözləri "qeydiyyatda olan şəxslərin soyadı, adı və atasının adı haqqında elektron sənədi" sözləri ilə əvəz edilsin;

17.2. yeddinci abzasa "tikir" sözündən sonra "və həmin məlumatın surəti bu Təlimatın 10-cu hissəsinin on ikinci abzası nəzərə alınmaqla təsdiq edilməlidir və bununla bağlı dövlət rüsumu və ya haqq, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə haqq alınmır " sözləri əlavə edilsin;

17.3. on birinci abzasda "nikahın qeydə alınmasından sonra əldə edilən və ər-arvadın ümumi (birgə) mülkiyyətində olan əmlakın özgəninkiləşdirilməsi və ya ipoteka qoyulması haqqında müqavilələr o zaman təsdiq oluna bilər ki, əmlaka sərəncam verilməsi barədə ər-arvadın digərinin yaşayış yeri üzrə harada qeydiyyatda olmasından asılı olmayaraq, notariat qaydasında təsdiq edilmiş razılığı olsun" sözləri "ər-arvaddan birinin ümumi mülkiyyətdə olan daşınmaz əmlak üzərində sərəncam vermək barədə notariat qaydasında təsdiq edilən və (və ya) qeydiyyata alınan müqavilələrin bağlanılması üçün digər tərəfin notariat qaydasında təsdiq edilmiş razılığı tələb olunur" sözləri ilə əvəz edilsin;

17.4. on yeddinci abzasın ikinci cümləsinə "halı" sözündən sonra "müvafiq informasiya sistemləri vasitəsilə əldə edilmiş" sözləri əlavə olunsun və həmin cümlədə "şəxslər haqqında arayış" sözləri "şəxslərin soyadı, adı və atasının adı haqqında elektron sənəd" sözləri ilə əvəz edilsin;

17.5. aşağıdakı məzmunda on doqquzuncu abzas əlavə edilsin:

"Qeydiyyatdan keçməli olan əmlakın özgəninkiləşdirilməsi ilə bağlı beh müqaviləsi təsdiq edilərkən bu hissənin on birinci abzasında nəzərdə tutulmuş razılıq tələb olunur.".

18. 77-ci hissənin birinci abzasına "surəti" sözündən sonra "(həmin sənədlərin surəti bu Təlimatın 10-cu hissəsinin on ikinci abzası nəzərə alınmaqla təsdiq edilir və bununla bağlı dövlət rüsumu və ya haqq, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə haqq alınmır)" sözləri əlavə edilsin.

19. 160-1-ci hissə üzrə:

19.1. birinci abzasa aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Notarius belə müqavilələri pul məbləği bankda açılmış depozit hesabına ödənildikdə təsdiq edir.";

19.2. beşinci, yeddinci, doqquzuncu, on ikinci və on üçüncü abzaslar ləğv edilsin.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 274 QƏRAR Bakı şəhəri, 5 avqust 2023-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Dövlət qulluğu vəzifələri üzrə test imtahanından keçmək barədə Sertifikatın Forması"nın təsdiq edilməsi haqqında" 2017-ci il 10 mart tarixli 87 nömrəli və "1-5-ci kateqoriya dövlət orqanlarında inzibati vəzifələrin birinci-yeddinci təsnifatlarına uyğun olan vakant vəzifələrin tutulmasının Ümumi Şərtləri"nin təsdiq edilməsi haqqında" 2017-ci il 8 dekabr tarixli 545 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 29 noyabr tarixli 658-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2000-ci il 29 dekabr tarixli 435 nömrəli, "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusunun təsdiq edilməsi haqqında" 2003-cü il 4 avqust tarixli 911 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 12 yanvar tarixli 1962 nömrəli Fərmanının 4-cü hissəsinin icrası ilə bağlı Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 10 mart tarixli 87 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 3, maddə 486, № 11, maddə 2176; 2018, № 2, maddə 366; 2022, № 3, maddə 274, № 6, maddə 684) ilə təsdiq edilmiş "Dövlət qulluğu vəzifələri üzrə test imtahanından keçmək barədə Sertifikatın Forması"na 1 nömrəli əlavə - "Dövlət qulluğu vəzifələri üzrə Sertifikatın verilməsi üçün inzibati vəzifələrin növləri, qrupları və alt qrupları" cədvəlində aşağıdakı dəyişikliklər edilsin:

1.1. "AB2" sətrində "şöbə müdirinin müavini;" abzasından sonra aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

"Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan, rəhbəri və rəhbərinin müavinləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən dövlət xidmətləri və dövlət agentliklərinin aparat rəhbərləri və onların müavinləri;";

1.2. "AB4" sətrində "şöbə müdirinin müavini" abzasından sonra nöqtəli vergül işarəsi və aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

"Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan, rəhbəri və rəhbərinin müavinləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən dövlət xidmətləri və dövlət agentliklərinin rəhbərlərinin müşavirləri, köməkçiləri".

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 8 dekabr tarixli 545 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (II kitab), maddə 2493; 2018, № 7 (II kitab), maddə 1661, № 9, maddə 1938; 2022, № 3, maddə 274, № 6, maddə 684, № 9, maddə 1083) ilə təsdiq edilmiş "1-5-ci kateqoriya dövlət orqanlarında inzibati vəzifələrin birinci-yeddinci təsnifatlarına uyğun olan vakant vəzifələrin tutulmasının Ümumi Şərtləri"nə aşağıdakı məzmunda 8.4.10-1-ci, 8.4.10-2-ci və 8.5.5-1-ci yarımbəndlər əlavə edilsin:

"8.4.10-1. aparat rəhbəri

Təhsilə dair tələblər: ali təhsil;

İş stajına dair tələblər: vəzifənin qulluq funksiyalarını nəzərə alaraq dövlət qulluğunda 5 il qulluq stajı və yaxud 8 il iş stajı;

Bilməlidir: Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının "Dövlət qulluğu haqqında", "Korrupsiyaya qarşı mübarizə haqqında", "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında", "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" qanunlarını, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin aidiyyəti maddələrini, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 oktyabr tarixli 1627 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Nazirlər Kabinetinin iş qaydası"nı, dövlət qulluğu, dövlət orqanı və vəzifənin fəaliyyət istiqaməti üzrə münasibətləri tənzimləyən digər normativ-hüquqi aktları, qulluq funksiyalarının icrası ilə əlaqədar zəruri peşə-ixtisas biliklərini, Azərbaycan haqqında ümumi məlumatları, idarəetmə, o cümlədən insan resurslarının idarə edilməsi ilə bağlı nəzəri və praktiki bilikləri;

8.4.10-2. aparat rəhbərinin müavini

Təhsilə dair tələblər: ali təhsil;

İş stajına dair tələblər: vəzifənin qulluq funksiyalarını nəzərə alaraq dövlət qulluğunda 5 il qulluq stajı və yaxud 7 il iş stajı;

Bilməlidir: Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının "Dövlət qulluğu haqqında", "Korrupsiyaya qarşı mübarizə haqqında", "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında", "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" qanunlarını, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin aidiyyəti maddələrini, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 oktyabr tarixli 1627 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Nazirlər Kabinetinin iş qaydası"nı, dövlət qulluğu, dövlət orqanı və vəzifənin fəaliyyət istiqaməti üzrə münasibətləri tənzimləyən digər normativ-hüquqi aktları, qulluq funksiyalarının icrası ilə əlaqədar zəruri peşə-ixtisas biliklərini, Azərbaycan haqqında ümumi məlumatları, idarəetmə, o cümlədən insan resurslarının idarə edilməsi ilə bağlı nəzəri və praktiki bilikləri;

8.5.5-1. dövlət orqanı rəhbərinin müşaviri

Təhsilə dair tələblər: müvafiq ali təhsil;

İş stajına dair tələblər: vəzifənin qulluq funksiyalarını nəzərə alaraq dövlət qulluğunda 1 il qulluq stajı və yaxud 3 il iş stajı;

Bilməlidir: Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının "Dövlət qulluğu haqqında", "Korrupsiyaya qarşı mübarizə haqqında", "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında", "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" qanunlarını, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin aidiyyəti maddələrini, dövlət qulluğu, dövlət orqanı və vəzifənin fəaliyyət istiqaməti üzrə münasibətləri tənzimləyən digər normativ-hüquqi aktları, qulluq funksiyalarının icrası ilə əlaqədar zəruri peşə-ixtisas biliklərini, Azərbaycan haqqında ümumi məlumatları, idarəetmə, o cümlədən insan resurslarının idarə edilməsi ilə bağlı nəzəri və praktiki bilikləri;".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 275 QƏRAR Bakı şəhəri, 5 avqust 2023-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Fövqəladə hallar orqanları əməkdaşlarının sosial və maddi təminatı haqqında" 2011-ci il 4 may tarixli 67 nömrəli, "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminin istismarının təşkili Qaydaları"nın və "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi daxilində dövlət orqanlarının informasiya resurslarından istifadəyə buraxılış dərəcəsi"nin təsdiq edilməsi barədə" 2012-ci il 12 yanvar tarixli 5 nömrəli, "Xarici ticarətin gömrük statistikasının nəşr olunması Qaydası"nın təsdiq edilməsi haqqında" 2012-ci il 2 may tarixli 92 nömrəli, "Xarici dövlətlərin hüquqi və fiziki şəxslərinin Azərbaycan Respublikası ərazisində həyata keçirdikləri maliyyə əməliyyatları barədə məlumatların bu dövlətlərin səlahiyyətli orqanlarına verilməsi Hədləri və Qaydası"nın təsdiq edilməsi haqqında" 2015-ci il 3 iyun tarixli 211 nömrəli, "Sığortaolunanların və sığortaedənlərin işsizlikdən sığorta üzrə sığortaçıda qeydiyyatı Qaydası"nın təsdiq edilməsi haqqında" 2017-ci il 29 dekabr tarixli 618 nömrəli və "İşədüzəlmədə vasitəçilik fəaliyyəti ilə məşğul olan hüquqi şəxslərin reyestrinin aparılması qaydası və həmin hüquqi şəxslərə dair tələblər"in təsdiq edilməsi haqqında" 2019-cu il 8 avqust tarixli 349 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin funksiyalarının və strukturunun genişləndirilməsi haqqında" 2019-cu il 23 oktyabr tarixli 845 nömrəli Fərmanının 4.4-cü bəndinin, "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanının 3.3-cü bəndinin və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanının 9.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 4 may tarixli 67 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 5, maddə 441; 2014, № 2, maddə 213; 2017, № 4, maddə 620; 2019, № 3, maddə 514, № 4, maddə 761; 2021, № 11, maddələr 1283, 1290, № 12, maddə 1533; 2022, № 4, maddə 423) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Fövqəladə hallar orqanları əməkdaşlarının xidmət illərinin və bununla əlaqədar onlara verilən fasiləsiz xidmət illərinə görə haqqın hesablanması Qaydası"nın 2.1.10-cu yarımbəndində "Vergilər Nazirliyinin" sözləri "İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin" sözləri ilə əvəz edilsin.

2. "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminin istismarının təşkili Qaydaları"nın və "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi daxilində dövlət orqanlarının informasiya resurslarından istifadəyə buraxılış dərəcəsi"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 12 yanvar tarixli 5 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 1, maddə 29; 2013, № 8, maddələr 999, 1033; 2014, № 5, maddə 561, № 6, maddə 747; 2016, № 8, maddə 1453, № 9, maddə 1585; 2017, № 1, maddə 122, № 5, maddə 963, № 10, maddə 1880, № 11, maddə 2185; 2018, № 3, maddə 616, № 11, maddə 2449; 2019, № 1, maddə 163, № 12, maddə 2070; 2020, № 8, maddə 1132; 2021, № 5, maddə 518, № 9, maddə 1083; 2022, № 4, maddə 386, № 8, maddə 1024) aşağıdakı dəyişikliklər edilsin:

2.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminin istismarının təşkili Qaydaları"nın 5.5.2-ci yarımbəndində "Vergilər Nazirliyində" sözləri "İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətində" sözləri ilə əvəz edilsin;

2.2. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi daxilində dövlət orqanlarının informasiya resurslarından istifadəyə buraxılış dərəcəsi"nin 6-cı hissəsinin "Dövlət orqanı" sütununda "Vergilər Nazirliyi" sözləri "İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 2 may tarixli 92 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 5, maddə 466; 2014, № 2, maddə 201; 2016, № 5, maddə 955) ilə təsdiq edilmiş "Xarici ticarətin gömrük statistikasının nəşr olunması Qaydası"nın 2.2.3-cü yarımbəndindən ", Azərbaycan Respublikası Vergilər Nazirliyinin" sözləri çıxarılsın.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 3 iyun tarixli 211 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 6, maddə 784; 2016, № 3, maddə 616, № 4, maddə 775; 2017, № 9, maddə 1727; 2018, № 6, maddə 1371; 2021, № 4, maddə 417, № 9, maddələr 1063, 1067) ilə təsdiq edilmiş "Xarici dövlətlərin hüquqi və fiziki şəxslərinin Azərbaycan Respublikası ərazisində həyata keçirdikləri maliyyə əməliyyatları barədə məlumatların bu dövlətlərin səlahiyyətli orqanlarına verilməsi Hədləri və Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1.10-cu bənddə "Vergilər Nazirliyi (bundan sonra - Vergilər Nazirliyi)" sözləri "İqtisadiyyat Nazirliyi (bundan sonra - İqtisadiyyat Nazirliyi)" sözləri ilə əvəz edilsin;

4.2. 2.2.18-ci yarımbənddə "Vergilər Nazirliyi" sözləri "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti (bundan sonra - Dövlət Vergi Xidməti)" sözləri ilə əvəz edilsin;

4.3. 2.2.30-cu, 3.6.9.1-ci (hər üç halda) yarımbəndlərdə, 6.1-6.4-cü bəndlərdə "Vergilər Nazirliyinə" sözləri "Dövlət Vergi Xidmətinə" sözləri ilə əvəz edilsin;

4.4. 2.2.34-cü yarımbənddə "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi (bundan sonra - İqtisadiyyat Nazirliyi)" sözləri "İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin;

4.5. 6-cı hissədə "Azərbaycan Respublikasının Vergilər Nazirliyinə" sözləri "Dövlət Vergi Xidmətinə" sözləri ilə əvəz edilsin;

4.6. 6.6-cı bəndin birinci cümləsində "Vergilər Nazirliyinin" sözləri "İqtisadiyyat Nazirliyinin" sözləri ilə, ikinci cümləsində "Vergilər Nazirliyinə" sözləri "Dövlət Vergi Xidmətinə" sözləri ilə və "Vergilər Nazirliyi" sözləri "Dövlət Vergi Xidməti" sözləri ilə əvəz edilsin;

4.7. 6.8-ci bəndin ikinci cümləsində, 6.10-cu, 6.13-cü, 6.15-ci (hər iki halda), 6.16-cı (hər iki halda), 6.17-ci (hər üç halda), 6.18-ci (hər üç halda), 6.19-cu (hər üç halda) bəndlərdə ismin müvafiq hallarında "Vergilər Nazirliyi" sözləri ismin müvafiq hallarında "Dövlət Vergi Xidməti" sözləri ilə əvəz edilsin;

4.8. 6.20-ci bənddə "Vergilər Nazirliyi" sözləri "İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin;

4.9. 6.23-cü bənddə "Vergilər Nazirliyinin" sözləri "Dövlət Vergi Xidmətinin" sözləri ilə və "Vergilər Nazirliyinə" sözləri "Dövlət Vergi Xidmətinə" sözləri ilə əvəz edilsin;

4.10. 7-ci hissədə "Azərbaycan Respublikasının Vergilər Nazirliyinə" sözləri "Dövlət Vergi Xidmətinə" sözləri ilə əvəz edilsin;

4.11. 7.1-7.4-cü bəndlərdə "Vergilər Nazirliyi" sözləri "Dövlət Vergi Xidməti" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 29 dekabr tarixli 618 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (II kitab), maddə 2563; 2019, № 7, maddə 1321; 2021, № 3, maddə 279) ilə təsdiq edilmiş "Sığortaolunanların və sığortaedənlərin işsizlikdən sığorta üzrə sığortaçıda qeydiyyatı Qaydası"nın 2.1-ci bəndində "Vergilər Nazirliyindən" sözləri "İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətindən" sözləri ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 8 avqust tarixli 349 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 8, maddə 1456; 2022, № 3, maddə 271) ilə təsdiq edilmiş "İşədüzəlmədə vasitəçilik fəaliyyəti ilə məşğul olan hüquqi şəxslərin reyestrinin aparılması qaydası və həmin hüquqi şəxslərə dair tələblər"in 2.7-ci bəndində "Vergilər Nazirliyinin" sözləri "İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 284

**QƏRAR**

Bakı şəhəri, 5 avqust 2023-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Dövlət sirri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar bəzi normativ-hüquqi aktların təsdiq edilməsi barədə" 2005-ci il 15 mart tarixli 40 nömrəli, "Azərbaycan Respublikasında pul nişanlarının nominal dəyərinin və qiymətlər miqyasının dəyişdirilməsi (denominasiyası) ilə bağlı tədbirlər barədə" 2005-ci il 22 iyun tarixli 116 nömrəli, "Xarici ölkələrin diplomatik və konsulluq nümayəndəliklərinin, beynəlxalq təşkilatların nümayəndəliklərinin rəsmi istifadəsi, həmçinin bu nümayəndəliklərin diplomatik və inzibati-texniki işçilərinin, o cümlədən onlarla yaşayan ailə üzvlərinin şəxsi istifadəsi üçün nəzərdə tutulan mal və xidmətlərə görə əlavə dəyər vergisinin sıfır (0) dərəcə ilə tutulması Qaydaları"nın təsdiq edilməsi barədə" 2006-cı il 27 mart tarixli 89 nömrəli, "Azərbaycan Respublikasında bəzi fəaliyyət növləri üzrə ixracın stimullaşdırılması haqqında" 2006-cı il 26 iyul tarixli 185 nömrəli, "Qeyri-dövlət (özəl) mühafizə fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar bəzi normativ-hüquqi aktların təsdiq edilməsi barədə" 2007-ci il 13 avqust tarixli 127 nömrəli və "Audiovizual əsərlərin və fonoqramın gəlir götürmədən şəxsi məqsədlər üçün surətinin çıxarılmasına görə qonorarın minimum məbləğinin müəyyən edilməsi, bölüşdürülməsi və ödənilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" 2007-ci il 24 avqust tarixli 132 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin funksiyalarının və strukturunun genişləndirilməsi haqqında" 2019-cu il 23 oktyabr tarixli 845 nömrəli Fərmanının 4.4-cü bəndinin, "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanının 3.3-cü bəndinin və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanının 9.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 15 mart tarixli 40 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 3, maddə 254; 2006, № 3, maddə 300; 2007, № 2, maddə 185; 2009, № 10, maddə 857; 2016, № 9, maddə 1585; 2017, № 4, maddə 643; 2019, № 2, maddə 340; 2023, № 4, maddə 604) ilə təsdiq edilmiş "Dövlət sirri təşkil edən məlumatlardan istifadə edilməsi, informasiyanı mühafizə vasitələrinin yaradılması, habelə dövlət sirrinin mühafizəsi üzrə tədbirlər görülməsi və (və ya) xidmətlər göstərilməsi ilə bağlı işlərin icrasına müəssisə, idarə və təşkilatların buraxılması üçün icazənin alınması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 12-ci hissənin yeddinci abzasında "Vergilər Nazirliyinə" sözləri "İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə" sözləri ilə əvəz edilsin;

1.2. 14-cü hissənin səkkizinci abzasında "Vergilər Nazirliyinə" sözləri "İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə" sözləri ilə əvəz edilsin.

2. "Azərbaycan Respublikasında pul nişanlarının nominal dəyərinin və qiymətlər miqyasının dəyişdirilməsi (denominasiyası) ilə bağlı tədbirlər barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 22 iyun tarixli 116 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 6, maddə 552; 2008, № 5, maddə 432; 2014, № 2, maddə 201, № 6, maddə 747, 2016, № 5, maddə 955) 1-ci hissəsinin ikinci abzasından "Vergilər Nazirliyi və" sözləri çıxarılsın.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 27 mart tarixli 89 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 3, maddə 308; 2009, № 10, maddə 853; 2017, № 9, maddə 1723; 2020, № 12 (V kitab), maddə 1580) ilə təsdiq edilmiş "Xarici ölkələrin diplomatik və konsulluq nümayəndəliklərinin, beynəlxalq təşkilatların nümayəndəliklərinin rəsmi istifadəsi, həmçinin bu nümayəndəliklərin diplomatik və inzibati-texniki işçilərinin, o cümlədən onlarla yaşayan ailə üzvlərinin şəxsi istifadəsi üçün nəzərdə tutulan mal və xidmətlərə görə əlavə dəyər vergisinin sıfır (0) dərəcə ilə tutulması Qaydaları"nın 3.1.1-ci yarımbəndinin beşinci abzasında "Vergilər Nazirliyinə" sözləri "İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 26 iyul tarixli 185 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 7, maddə 652; 2007, № 11, maddə 1187; 2014, № 1, maddə 69, № 2, maddə 201; 2016, № 5, maddə 955) ilə təsdiq edilmiş "İxrac məqsədli neft-qaz fəaliyyəti üzrə idxal əməliyyatlarında güzəştlərin verilməsi Qaydaları"nın 8-ci hissəsindən "və Azərbaycan Respublikasının Vergilər Nazirliyinə" sözləri çıxarılsın.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 13 avqust tarixli 127 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 8, maddə 853; 2008, № 9, maddə 853; 2016, № 9, maddə 1585, № 10, maddə 1710) ilə təsdiq edilmiş "Özəl mühafizə müəssisəsi və ya hüquqi şəxsin mühafizə bölməsi tərəfindən xüsusi vasitənin əldə olunması, saxlanılması və ondan təyinatı üzrə istifadə edilməsi hüququnu təsdiq edən şəhadətnamənin verilməsi Qaydası"nın 2.1.1-ci yarımbəndində "Vergilər Nazirliyində" sözləri "İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətində" sözləri ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 24 avqust tarixli 132 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 8, maddə 858; 2008, № 7, maddə 683; 2018, № 8, maddə 1809; 2020, № 10, maddə 1273; 2021, № 9, maddə 1050) ilə təsdiq edilmiş "Audiovizual əsərlərin və fonoqramın gəlir götürmədən şəxsi məqsədlər üçün surətinin çıxarılmasına görə qonorarın minimum məbləğinin müəyyən edilməsi, bölüşdürülməsi və ödənilməsi Qaydaları"nın 5-ci hissəsində "Vergilər Nazirliyi" sözləri "İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 285

**QƏRAR**

Bakı şəhəri, 5 avqust 2023-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Bakıelektrikşəbəkə" Səhmdar Cəmiyyətinin idarəetməyə verilməsi ilə bağlı "Azərenerji" Səhmdar Cəmiyyətinin dövlət büdcəsinə və digər subyektlərə yaranan borcları üzrə hesablaşma Qaydası"nın təsdiq edilməsi haqqında" 2001-ci il 10 dekabr tarixli 194 nömrəli, "Əmək şəraiti ağır və zərərli olan işlərdə və iqlim şəraitinə görə işləmək üçün əlverişli olmayan iş yerlərində çalışan işçilərin əməkhaqqının yüksək məbləğdə ödənilməsini təmin edən artımların (əmsalların) məbləğinin minimum miqdarının müəyyən edilməsi haqqında" 2002-ci il 22 avqust tarixli 137 nömrəli, "Atmosfer havasına atılan zərərli maddələrin stasionar mənbələri, habelə atmosfer havasının çirklənmə mənbəyi olan nəqliyyat, digər səyyar vasitələrin və qurğuların növləri üçün atılmanın texniki normativlərinin müəyyən edilməsi haqqında" 2002-ci il 18 dekabr tarixli 198 nömrəli, "Obyektlərdə elektrik, qaz və su sayğaclarının quraşdırılması haqqında" 2004-cü il 27 iyul tarixli 101 nömrəli və "Elektrik enerjisindən istifadə Qaydaları"nın təsdiq edilməsi haqqında" 2005-ci il 2 fevral tarixli 18 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin funksiyalarının və strukturunun genişləndirilməsi haqqında" 2019-cu il 23 oktyabr tarixli 845 nömrəli Fərmanının 4.4-cü bəndinin, "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanının 3.3-cü bəndinin və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanının 9.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 10 dekabr tarixli 194 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 804; 2002, № 10, maddə 641, № 12, maddə 749; 2003, № 7, maddə 391; 2006, № 1, maddə 59, № 4, maddə 373; 2009, № 10, maddələr 846, 853, № 12, maddə 1065; 2014, № 2, maddə 201; 2016, № 5, maddə 955; 2020, № 12 (V kitab), maddə 1580) ilə təsdiq edilmiş "Bakıelektrikşəbəkə" Səhmdar Cəmiyyətinin idarəetməyə verilməsi ilə bağlı "Azərenerji" Səhmdar Cəmiyyətinin dövlət büdcəsinə və digər subyektlərə yaranan borcları üzrə hesablaşma Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.2-ci bənddə "Vergilər" sözü "İqtisadiyyat" sözü ilə əvəz edilsin və həmin bənddən "İqtisadiyyat Nazirliyinə Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinə, və" sözləri çıxarılsın;

1.2. 2.3-cü bənddən ", Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinə, Vergilər Nazirliyinə" sözləri çıxarılsın.

2. "Əmək şəraiti ağır və zərərli olan işlərdə və iqlim şəraitinə görə işləmək üçün əlverişli olmayan iş yerlərində çalışan işçilərin əmək haqqının yüksək məbləğdə ödənilməsini təmin edən artımların (əmsalların) məbləğinin minimum miqdarının müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 22 avqust tarixli 137 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 8, maddə 548; 2003, № 4, maddə 225, № 7, maddə 392, № 10, maddə 616; 2004, № 5, maddə 379; 2005, № 9, maddə 853; 2007, № 2, maddə 191; 2008, № 2, maddələr 104, 112, № 6, maddə 584, № 8, maddə 788; 2010, № 4, maddə 361, № 6, maddə 566; 2012, № 3, maddə 265; 2013, № 6, maddə 728, № 8, maddə 1035; 2014, № 6, maddə 728; 2015, № 4, maddə 461, № 10, maddə 1217, № 11, maddə 1418; 2017, № 5, maddə 983; 2021, № 4, maddə 413) 7-ci hissəsində "Əmlak Məsələləri Dövlət Komitəsi" sözləri "İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti" sözləri ilə əvəz edilsin.

3. "Atmosfer havasına atılan zərərli maddələrin stasionar mənbələri, habelə atmosfer havasının çirklənmə mənbəyi olan nəqliyyat, digər səyyar vasitələrin və qurğuların növləri üçün atılmanın texniki normativlərinin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 18 dekabr tarixli 198 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 12, maddə 750; 2009, № 1, maddə 32; 2018, № 8, maddə 1817) 3-cü hissəsində "Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinə" sözləri "İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə" sözləri ilə əvəz edilsin.

4. "Obyektlərdə elektrik, qaz və su sayğaclarının quraşdırılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 27 iyul tarixli 101 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 7, maddə 592; 2005, № 6, maddə 558; 2006, № 1, maddə 59, № 4, maddə 370, № 9, maddə 822, № 11, maddə 1000; 2008, № 5, maddə 432; 2009, № 1, maddə 32, № 10, maddə 846; 2010, № 4, maddə 359; 2018, № 8, maddə 1817) 5-ci hissəsinin ikinci abzasında "Əmlak Məsələləri Dövlət Komitəsinə" sözləri "İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinə" sözləri ilə, 7-ci hissəsinin birinci abzasında və 8-ci hissəsində "Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinə" sözləri "İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 2 fevral tarixli 18 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 2, maddə 121; 2006, № 1, maddə 59; 2009, № 1, maddə 32, № 10, maddə 846; 2010, № 1, maddə 49; 2012, № 2, maddə 183; 2013, № 6, maddə 738; 2014, № 1, maddə 69, № 2, maddə 201, № 7, maddə 925; 2016, № 4, maddə 772, № 5, maddə 955; 2017, № 3, maddə 478; 2018, № 3, maddə 624, № 8, maddə 1817, № 10, maddə 2174; 2020, № 6, maddə 788; 2021, № 3, maddə 301, № 9, maddə 1084, № 11, maddələr 1256, 1271; 2022, № 4, maddələr 402, 403, № 12, maddə 1533) ilə təsdiq edilmiş "Elektrik enerjisindən istifadə Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 7.15-ci bəndin birinci abzasında, 7.16-cı bənddə, 8.7-ci bəndin üçüncü abzasının beşinci cümləsində, 8.15-ci bəndin üçüncü cümləsində və 12.6-cı bəndin dördüncü abzasının beşinci cümləsində "Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin" sözləri "İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin" sözləri ilə əvəz edilsin;

5.2. 12.1-ci bəndin üçüncü və dördüncü abzaslarında "İqtisadi İnkişaf Nazirliyinə Əmlak Məsələləri Dövlət Komitəsinə" sözləri "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***






# Gənclik






● 12 Avqust Beynəlxalq Gənclər Günüdür



# Dövlət gənclər siyasətinə xüsusi önəm verir

## Prezident İlham Əliyev bu nəslin hərtərəfli inkişafına böyük qayğı göstərir

*Əvvəli 1-ci səh.*

Qoşulmama Hərəkatının yaradılması ilə bağlı "Şuşa Sazişi" adlı sənəd Qoşulmama Hərəkatının tarixində əlamətdar bir hadisə idi. Şuşa razılaşmasına əsasən, Qoşulmama Hərəkatının Gənclər Təşkilatı 2021-ci il oktyabrın 4-də Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılmış Qoşulmama Hərəkatının Gənclər Şəbəkəsinin əsasında reallaşıb. Sammitin Şuşa sessiyası çərçivəsində daimi katibliyi Bakıda yerləşəcək Qoşulmama Hərəkatının Gənclər Təşkilatının əsasnaməsi, təşkilatın loqosu və bayrağı təsdiq edilib.

Görünən odur ki, ölkəmizdə gənclərin çoxşaxəli fəaliyyətinə, sağlam böyüməsinə, təhsil almasına, dünyagörüşünün artmasına, hər hansı bir sənət və ya peşə sahibi olmasına yüksək diqqət və qayğı göstərilməklə uğurlu gənclər siyasəti həyata keçirilir. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasəti Azərbaycan gəncliyinin inkişafında dərin izlər buraxıb. Bu gün nəinki respublikamızda, uzaq və yaxın xarici ölkələrdə də Azərbaycan gəncliyinin səsi ən mötəbər kürsülərdən eşidilir. Ümummilli Lider Heydər Əliyev gənclər sahəsində dövlət siyasətinin uğurla həyata keçirilməsi məqsədilə bütün dünyaya nümunə olacaq daha bir addım atıb - bu sahənin təkmil qanunvericilik bazasının formalaşdırılmasını təmin edib. Qanunlar, fərmanlar, sərəncam və dövlət proqramları gənc nəslin mütəşəkkil qüvvə kimi formalaşmasına, mənəvi-ideoloji cəhətdən tam yetkinləşməsinə, sosial problemlərinin həllinə, faydalı məşğulluğunun təmin olunmasına son dərəcə müsbət təsir göstərib. Azərbaycan gəncləri Birləşmiş Millətlər Təşkilatı (BMT), Avropa İttifaqı (Aİ), Şimali Atlantika Alyansı (NATO), İslam Əməkdaşlıq Təşkilatı (İƏT) və digər nüfuzlu beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq münasibətləri qurublar. Dost və qardaş xarici ölkələrdə diaspor təşkilatları yaradılıb. Onlar mötəbər nüfuzlu tədbirlərdə ölkəmizin həqiqətlərini bütün dünyaya çatdırır, beynəlxalq həmrəyliyin möhkəmləndirilməsini hədəfləyən təşəbbüslər irəli sürürlər.

Ölkəmizdə gənclər siyasəti mahiyyət və keyfiyyətcə yeni mərhələsini yaşayır. Prezident İlham Əliyev Ulu Öndərin gənclər siyasətinə sadiqliyini öz qərarları ilə təsdiq edir. Gənclərin mənəvi inkişafı, vətənpərvərlik tərbiyəsi, xarici ölkələrdə təhsili, sosial müdafiəyə ehtiyacı olanların problemlərinin həlli istiqamətində görülən işlər, gənclər təşkilatlarının formalaşması və inkişafı üçün yaradılan şərait bu sahəyə böyük diqqətin göstəricisidir. Müşahidələrdən də aydın olur ki, xarici ölkələrdə təhsil alan, işləyən və yaşayan azərbaycanlı gənclər artıq diaspor təşkilatları ilə həmin ölkələrin siyasətçiləri, elm xadimləri, habelə akademik çevrələri ilə sıx əlaqələr qurublar.

Xüsusilə ötən ilin martında Bakıda keçirilən Dünya Azərbaycanlı Gənclər Birliyinin təsis qurultayından sonra sözügedən sahədə fəallıq bir qədər də artıb. Xaricdə yaşayan gənc azərbaycanlılar, diaspor təşkilatları çərçivəsində onlar, sadəcə, Azərbaycan reallıqlarının təbliğ edilməsi ilə deyil, yaşadıqları ölkələrin ictimai-sosial həyatında da fəal iştirak edir, həmyerlilərimizin yerli özünüidarəetmə orqanları ilə sıx əlaqələrinin qurulmasına yardımçı olurlar. Azərbaycanın hüdudlarından kənarda təhsil alan minlərlə azərbaycanlı tələbə institut və universitetlərdə Azərbaycanla bağlı məlumat bazasını daha da zənginləşdirir. Bunun üçün Dünya Azərbaycanlı Gənclər Birliyinin xətti ilə xarici tələbələr və alimlər tərəfindən ölkəmizlə bağlı tədqiqatların aparılması üçün xüsusi qrant proqram layihələrin reallaşmasına start verilib. Dünyanın bir sıra universitetlərində ölkəmizlə bağlı elmi əsaslarda hazırlanmış məlumat bazasının formalaşdırılmasına başlanılıb. Müxtəlif beynəlxalq təşkilatlarla Dünya Azərbaycanlı Gənclər Birliyi arasında münasibətlərin qurulması, birgə layihələrin həyata keçirilməsi istiqamətində Avropa Şurası, Dünya Sülh Təşəbbüsü Proqramı çərçivəsində müəyyən işlər görülür. Bu mənada ötən il Dünya Azərbaycanlı Gənclər Birliyinin nümayəndəsinin Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının üçüncü komitəsində Azərbaycanla bağlı məruzə ilə çıxış etməsi böyük uğurdur.

Xatırladaq ki, Dünya Azərbaycanlı Gənclər Birliyi nəzdində 70-dən çox xarici ölkəni əhatə edən, habelə 300-dən çox təşkilatı öz sıralarında birləşdirən gənclər və ya tələbə birlikləri fəaliyyət göstərir. Həmin təşkilatlar öz sıralarına həm Azərbaycanın daxilində, həm də onun hüdudlarından kənarda fəaliyyət göstərən yeni üzvlər qəbul etməkdədir. Prezident İlham Əliyevin 2007-ci il 16 aprel tarixli Sərəncamı ilə reallaşan "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" bütün təbəqədən olan gənclərin xaricdə təhsilinə geniş imkanlar yaradıb. Proqram çərçivəsində minlərlə gənc dünyanın ən nüfuzlu təhsil ocaqlarında oxuyub və onlar dünya azərbaycanlılarının təşkilatlanması prosesinə böyük əmək sərf ediblər və bu gün də edirlər. Bütün bunlar onu göstərir ki, gənclərimiz, sadəcə, təhsil aldıqları və yaşadıqları ölkələrdə yalnız respublikamızın təbliğatı ilə deyil, həm də Azərbaycanın güclənmiş mövqelərindən yararlanıb ölkəmizin regionda apardığı siyasətə arxalanaraq mütəşəkkil qüvvəyə çevrilir və yaşadıqları ölkələrin sosial-ictimai həyatında diqqətçəkən fəaliyyətləri ilə seçilirlər. Bu, həm də onu deməyə əsas verir ki, Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində dövlət gənclər siyasəti yeni mərhələyə qədəm qoyur.

Ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli təbəqə kimi iştirakının təmin olunması, milli adət-ənənələrə, multikultural dəyərlərə bağlılığı üçün dövlət səviyyəsində zəruri tədbirlər həyata keçirilir. Prezidentin 2011-ci il 7 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə Dövlət Proqramı", 2011-ci il 19 dekabr tarixli Fərmanı ilə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi yanında Gənclər Fondunun yaradılması gənclər siyasətinin elmi-nəzəri əsaslara bağlılığının, əməli nəticəliyinin, davamlılığının daha bir əyani sübutudur.

Müasir dövrdə elmin və texnologiyanın sürətli inkişafı, postneft dövrünün başlanması gənclərlə bağlı zamanın tələblərinə uyğun siyasət yürüdülməsini zəruri edir. Bu zərurəti nəzərə alan dövlət başçısı gənclərin intellektual, fiziki və mənəvi inkişafını, onların ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında fəal iştirakını təmin etmək məqsədilə 2015-ci il yanvarın 26-da "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb. Gənclərin mütəşəkkil qüvvəyə çevrilməsi ilə bağlı bütün məsələlərin geniş əhatə olunduğu bu mühüm sənədin məqsədi Azərbaycanda gənclər siyasətinin daha səmərəli həyata keçirilməsinə nail olmaq, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaq, onların yaradıcı və innovativ potensialının üzə çıxarılmasını dəstəkləmək, təhsil və məşğulluq məsələlərinə diqqəti artırmaq, müasir informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə etmək, ölkədə könüllülük hərəkatını inkişaf etdirməkdir.

Azərbaycan gənclərinin mütəşəkkil qüvvəyə çevrildikləri ən həlledici sınaqlardan biri də 2020-ci il sentyabrın 27-də başlayan və noyabrın 10-dək davam edən Vətən müharibəsi oldu. Rəşadətli Azərbaycan Ordusunun sıralarında Vətən uğrunda mətanətlə vuruşan qəhrəman gənclərimiz adlarını xalqımızın ən yeni tarixinə qızıl hərflərlə yazdılar. Məhz onların rəşadəti ilə əldə olunan şanlı Zəfər sayəsində Azərbaycan ərazi bütövlüyünü bərpa etdi, xalqımız otuzillik həsrətdən sonra tarixi torpaqlarına qovuşdu.

Gənclərimiz Vətən uğrunda döyüşlərlə yanaşı, arxa cəbhədə də yüksək fəallıq göstərərək ölkəmizlə bağlı həqiqətlərin, işğalçı Ermənistanın əzəli torpaqlarımızda törətdikləri vandallıq aktlarının beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmasında fəal iştirak etdilər.

Sosial həyatın bütün sferalarına nəzər salsaq, görərik ki, orada gənclər əksəriyyət təşkil edir. Təbii ki, bu, Prezident İlham Əliyevin gənc kadrların irəli çəkilməsi ilə bağlı qarşıya qoyduğu vəzifənin reallaşmasının nəticəsidir. Ölkə gənclərinin hərtərəfli inkişafına ən yüksək səviyyədə diqqət və qayğı göstərən Prezident İlham Əliyevin 2019-cu il 26 iyul tarixli Sərəncamı ilə "Yüksəliş" müsabiqəsi təsis edilib. Bu müsabiqənin əsas məqsədi intellektual səviyyəsi və idarəçilik keyfiyyətləri yüksək olan perspektivli rəhbər şəxslərin müəyyən edilməsi, dəstəklənməsi və ölkədə kadr ehtiyatı bankının yaradılmasıdır.

Dövlət başçısının "Azərbaycan Respublikasının Gənclər Fondunun fəaliyyətinin dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2019-cu il 1 oktyabr tarixli Sərəncamına əsasən, Azərbaycan Respublikasının şəhər və rayonlarında yaşayan gənc vətəndaşların dövlət gənclər siyasətinin tələblərinə uyğun şəkildə hərtərəfli inkişafının təmin olunması, habelə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsini, azərbaycançılıq məfkurəsini gənc nəslin daha dərindən mənimsəməsi məqsədilə ölkəmizin şəhər və rayonlarında Heydər Əliyev mərkəzlərində Gənclərin İnkişaf və Karyera Mərkəzinin nümayəndəliklərinin yaradılması uğurla davam edir. Bu ali diqqət və qayğını daim öz üzərində hiss edən Azərbaycan gəncliyi göstərilən etimadı layiqincə doğrultmağa çalışır. Bu yüksək münasibətə cavab olaraq Azərbaycanın parlaq gələcəyinin təminatçısı olan gənclər bütöv və müstəqil Azərbaycan naminə bütün güclərini səfərbər edir, Vətənin inkişafı üçün səylə çalışır, öz siyasətində onlara arxalanan Prezident İlham Əliyevin uğurlu daxili və xarici siyasətini dəstəkləyirlər.

Tam inamla demək olar ki, ölkəmizdə gənc nəslin problemlərinin həlli və onların cəmiyyət həyatında layiqli təbəqə kimi iştirakının təmin olunması üçün həyata keçirilən bütün zəruri tədbirlər Azərbaycan gəncliyini daha işıqlı sabaha aparır. Bu yolda gənclərimizin ən böyük hamisi və dəstəkçisi məhz Azərbaycan Prezidenti İlham Əliyevdir. Dövlət başçısının "Mənim gənclərə xüsusi münasibətim var, mənim ürəyim sizinlədir. Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram" - sözləri Azərbaycan dövlətinin gənclərə etimadının, gənclərin isə Prezidentə məhəbbətinin və dəstəyinin bariz nümunəsidir.

Azərbaycan gəncliyi bu diqqət və qayğını yüksək dəyərləndirməklə, öz məsuliyyətini ciddiliyi ilə dərk etməklə Prezident İlham Əliyevin müəyyənləşdirdiyi strateji vəzifələrin uğurla həyata keçirilməsinə, respublikamızın dinamik inkişaf edən qüdrətli dövlətə çevrilməsi prosesinə öz töhfəsini verməyə çalışır.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

● Sabahın quruculari

# Qayğı gənclərimizə nailiyyət qazanmağa stimul verir



**O, dövlətin diqqətini, qayğısını görərək çalışmağın Azərbaycan gəncliyi üçün gələcəyə aparan uğurlu yol olduğunu deyir: "Dövlətimiz gənclərin yaxşı təhsil alması, savadlı və peşəkar kadr kimi yetişməsi və normal fəaliyyət göstərməsi üçün hər cür şərait yaradır. Biz xoş xəyallarla yaşaya bilir, əlçatan arzular qurur, gələcək planlarımızı reallaşdırmaq üçün məqsədimizə doğru qətiyyətlə irəliləyə bilirik".**

Nigar Aslanovanın iyirmi üç yaşı var. Bakıda ziyalı ailəsində dünyaya gəlib. 2017-ci ildə orta məktəbi bitirdikdən sonra elə həmin il Bakı Dövlət Universitetinin Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinə qəbul olunub. 2021-ci ildə ali təhsilinin bakalavr pilləsini tamamlayıb. Təhsilini Azərbaycan Tibb Universitetində davam etdirən Nigar Menecment (səhiyyə sahəsi üzrə) ixtisasının 2023-cü ildə magistr dərəcəsini fərqlənmə diplomu ilə başa vurub.

Bütün bu illər ərzində ailəsi ona hər zaman dəstək olub. Nigar Aslanova deyir ki, valideynlərim öz qayğılarını, sevgilərini heç bir zaman məndən əsirgəməyiblər. Uğurlarımla maraqlanıb, təhsildə və həyatda daha böyük nailiyyətlər qazanmağıma yardımçı olublar. Hər zaman fikirlərimə hörmətlə yanaşıb, doğru istiqamətdə getmək üçün məsləhətçim olublar.

Arzuları çoxdur. Gələcəkdə ikinci təhsil almaq niyyəti də var. Hələ ki ixtisası üzrə çalışmaq, təcrübə qazanmaq və karyera qurmaq barədə düşünür: "Universitetin bakalavr pilləsində oxuduğum illər bütün dünyanın qlobal probleminə çevrilmiş pandemiya dövrünə təsadüf etdi. Koronavirus müəyyən müddətə bizi universitetin auditoriyalarından ayırsa da, təhsildən uzaqlaşdıra bilmədi. Təəssüf ki, təcrübə dərslərində iştirak edə bilmədik. İnanıram ki, iş həyatına başlamağımız, çalışmağımız bizə çox şey qazandıracaq. İndi mənim ən böyük arzum, düşüncəm aldığım təhsil üzrə tezliklə əmək fəaliyyətinə başlamaqdır. Dövlət qurumlarında işləmək həm ixtisasımla əlaqədar, həm təcrübəyə yiyələnmək baxımından mənim üçün daha cəlbedici görünür. Düşünürəm ki, biz gənclər işimizdə uğurlara nail olmaq istəyiriksə, fəallıq göstərməliyik. Peşəkar kadr olmağın yolu daim oxuyub öyrənmək, zəngin təcrübə toplamaqdan keçir. Təhsilin, iş təcrübəsinin, əlbəttə ki, rolu, əhəmiyyəti böyükdür. Eyni zamanda biz internet əsrində yaşayırıq. Hər bir elmi mənbəyə daxil olmaq imkanımız var".

Nigar Aslanova bildirir: "Məncə, bugünkü gənclərimiz, həqiqətən də, çox şanslıdırlar. Ona görə ki, dövlət tərəfindən gənclərə hər cür şərait yaradılıb. Bu gün hətta ali təhsil müəssisələrində bakalavr pilləsi üzrə oxuyanlar belə könüllü olaraq işləyə, təcrübə qazana bilirlər. Universitetin özü də belə gənclərə yardımçı olur".

Nigar qeyd edir ki, hazırda Azərbaycan gəncliyi təhsilə olan marağı, istedadı ilə artıq təkcə respublikamızda deyil, xarici ölkələrdə də tanınır: "Məsələn, Bakı Dövlət Universiteti xarici universitetlərlə ikili diplom əsasında müqavilələr imzalayır, xarici əlaqələr getgedə inkişaf edir. Respublikamıza xarici ölkələrdən gələn nümayəndələr Azərbaycan gənclərini tanıyırlar. Eyni zamanda bizim gənclərimiz dövlət proqramları əsasında başqa ölkələrdə oxuyurlar, bir çoxu həm də işləyir. Gənclərimizin dövlətimizi layiqincə təmsil etmələri qürurvericidir. Əvvəllər respublikamız müəyyən səbəblərdən bu qədər inkişaf etməmişdi. Dövlətimiz uzun illərin problemlərini uğurla həll edir".

Nigar Aslanova 2020-ci ildə Ermənistanın növbəti təxribatı nəticəsində başlanan və 44 gün davam edən Vətən müharibəsində böyük zəfərimizdən fəxrlə danışır: "Əlbəttə, Azərbaycanda vətənpərvər gənc nəslin yetişdiyini Vətən müharibəsi başlanana qədər də bilirdik. Ancaq Vətən müharibəsində Azərbaycan gəncliyi tariximizə qəhrəmanlıq salnaməsi yazdı. Düşmənə ağır, sarsıdıcı zərbələr endirdilər. Hər döyüş Azərbaycan Ordusunun güclü olduğunu, Ermənistan silahlı qüvvələrinin isə yarıtmazlığını göstərdi. O zaman gənclərimiz təbliğat işində də böyük fəallıq nümayiş etdirir, əsgərlərimizə haqq işimiz uğrunda dəstək olur, internet, sosial şəbəkələr vasitəsi ilə Ermənistanın işğalçı siyasəti, Azərbaycan həqiqətləri barədə dünyaya, beynəlxalq təşkilatlara geniş və əhatəli məlumatlar verirdilər".

Azərbaycanın gündən-günə inkişaf etdiyini, dünya ölkələrinin artıq bizi yaxşı tanımağa başladığını qeyd edən Nigar Aslanova müxtəlif ixtisaslar üzrə təhsil almış və almaqda olan gənclərimizin bu tendensiyanı davam etdirəcəklərini vurğuladı. "Dövlətimizin bizə olan ümidlərinə, inamına, qayğısına biz də təhsildə, işdə nailiyyətlərimizlə cavab verməliyik. Mənim də ən böyük arzum dövlətimizi yaxşı təmsil etməkdir".

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

● Yeni nəşrlər

# Duyğuları işıqlandıran yeni kitab

**Hər kəsi düşündürən, bir sıra maraqlı məqamlara işıq tutan yeni nəşr - "Qoy işığı yandırım" "Mind Academy MMC"nin təsisçisi, rəhbəri Gülgün Quliyevanın ilk kitabıdır. Kitab "Təhsil" nəşriyyatında çapdan çıxıb. Redaktoru Vaqif Bəhmənli, üz qabığının tərtibçisi Əziz Sadıqzadə, illüstrasiyaların müəllifi Narınc Mustafayevadır.**




Gülgün Quliyevanın "Qoy işığı yandırım" adlı kitabına yazdığı rəydə fəlsəfə elmləri doktoru, professor, Fəlsəfə Cəmiyyətləri Federasiyasının üzvü Rahid Ulusel kitabın genetikadan psixologiyaya, psixologiyadan fəlsəfəyə, fəlsəfədən kosmologiyaya qədər bir çox elmlərin uyar ilmələrinin hörülməsindən, harmoniyaya gətirilməsindən yaranan sinkretik yanaşma ilə insanı və onun çevrəsi ilə münasibətlərini daha optimal nöqtədən görmək imkanının açıldığına bir örnək olduğunu bildirib. Rahid Ulusel kitabı müəllifin dioloji monoloqu hesab edir: "O monoloq ki, çətin, mürəkkəb, hətta bürkülü, ziddiyyətli həyat problemlərinə aydınlıq, sərinlik gətirən mövqeyi ilə anlayanlarının sayını çoxaldacaq, güclü, özünə güvənən, saf, gur səslərin kontrapunktuna çeviriləcək".

"Qoy işığı yandırım"da ayrı-ayrı başlıqlar - "Uşaqlıq", "Özünüdərk", "Ətraf aləmlə münasibət", "Kainat və insan əlaqəsi" başlıqları altında uşaqlıq illərindən başlayaraq onları əhatə edən aləmin münasibəti, təsiri, insanın bütün ömrüboyu davam edən özünüaxtarışı barədə düşüncələr əksini tapıb.

Müəllifin qənaətincə, özünüdərk istiqamətində atmalı olduğunuz ən bəsit görünən, amma ən çətin olanı düşüncələrinizə nəzarət etməkdir: "Siz özünüzü inandırmısınız ki, həyatda hər şey asandan çətinə doğru irəliləyir". Neqativ yöndə beynini zəbt edən düşüncələri məhkəməyə tabe tutacaq, həm cinayətkar, həm hakim insanın özüdür. Çünki bütün sualların cavabları onun özündədir. "Qoy işığı yandırım"da oxuculara bunun fərqində olmaq aşılanır.

Həyata baxışımız, bir çoxunu artıq adi qaydalara, vərdişlərə çevirdiyimiz davranışlarımız, keçirdiyimiz müxtəlif hisslər, fərqli duyğular birdən-birə yaranmır. Onların altqatında anlaya, duya bilmədiyimiz çox məqamlar var. "Qoy işığı yandırım" bu məqamların aydınlaşması, bu duyğuların işığa çıxması yolunu oxuculara nişan verir.

***Z.FƏRƏCOVA,***
***"Azərbaycan"***

● Xəbər

# Gənc vikipediyaçılar üçün yay düşərgəsi keçirilib

Gənclər və İdman Nazirliyinin və Azərbaycandilli "Vikipediya"da fəaliyyət göstərən "Azərbaycan vikimediaçıları" istifadəçi qrupunun təşkilatçılığı ilə Lənkəran Olimpiya İdman Kompleksində gənc vikipediyaçılar üçün yay düşərgəsi keçirilib.

Düşərgənin təşkilində məqsəd gənclərin milli-mənəvi dəyərləri daha da dərindən mənimsəməsi, yeni bilik və bacarıqlar əldə etməsinə dəstək vermək, eləcə də asudə vaxtlarını səmərəli keçirmələrini təmin etməklə yanaşı, "Vikipediya"ya yeni istifadəçilər cəlb etmək, təcrübəli istifadəçilərin bacarıqlarını daha da təkmilləşdirmək, gənclər və idman sahəsində "Vikipediya"da yeni məqalələr yaratmaqla internetdə Azərbaycan dilində məzmunu artırmaq olub.



4 gün davam edən düşərgədə gənclər dəvət edilən "Vikipediya" inzibatçıları və peşəkar istifadəçilər tərəfindən müxtəlif "Vikimedia" layihələri üzrə təlim və seminarlar vasitəsi ilə "Vikipediya", "Vikiverilənlər", "Vikianbar" və s. mövzular üzrə biliklər əldə ediblər.

İŞİMİZ, GÜZƏRANIMIZ

# İqtisadi islahatlar real perspektivlərə hədəflənir

**Bu faktdır - Azərbaycan sürətlə iqtisadi islahatlar həyata keçirir və müsbət nəticələrə nail olur. Möhtəşəm qələbəmizə baxmayaraq, məğlub edilmiş işğalçı ölkə reallıqlara baş əymək niyyətində deyil. Belə gərgin çəkişmələr şəraitində iqtisadi uğur qazanmaq və irəli çıxmaq fantastik səylər tələb etsə də, Azərbaycan bunu bacarır və qarşısına çıxan bütün çətinlikləri dəf etmək gücünə qadir olduğunu göstərir.**



Burada ən vacib məqam ondan ibarətdir ki, Azərbaycan bir tərəfdən erməni təxribatlarının təsir gücünü sıfıra endirir, digər tərəfdən iqtisadi inkişafın uğurlu təminatı üçün zəruri olan qərarları vaxtında və sürətlə qəbul edir. Azərbaycan dövlətinin iqtisadi məsələlərin həllində nümayiş etdirdiyi iradə istənilən vaxt düşməni məğlub edən və sındıra bilən yumruq gücünə qadirdir. 2022-2026-cı illər üzrə sosial-iqtisadi inkişaf strategiyasında edilən dəyişiklik isə Azərbaycanın daha yüksək iqtisadi artıma hədəfləndiyindən xəbər verir.

Xəbər verildiyi kimi, Prezident İlham Əliyevin 4 avqust 2023-cü il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda bir sıra dəyişikliklər edilmişdir. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) sektor müdiri Təranə Salıfova bu dəyişikliklərin hansı təkanlara səbəb olacağını belə proqnozlaşdırır: "Davamlı və yüksək iqtisadi artımın təmin olunmasına xidmət edən dəyişikliyə əsasən, strategiyanın "Dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat üzrə strateji çərçivə" bəndi üzrə 2026-cı ilin sonuna ümumi dövlət borcunun ÜDM-də payının 30 faiz, o cümlədən xarici dövlət borcunun 10 milyard dolları üstələməməsi hədəflənir".

Qeyd etmək vacibdir ki, dəyişiklikdən əvvəl ümumi dövlət borcunun ÜDM-də payının 20, o cümlədən xarici dövlət borcunun ÜDM-də payının 10 faiz ətrafında saxlanması nəzərdə tutulmuşdu. Prezident İlham Əliyevin 11 iyul 2023-cü il tarixdə keçirilmiş cari ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə də qeyd etdiyi kimi, ötən dövr ərzində qoyulmuş hədəfə nail olunmuş, Azərbaycanın xarici dövlət borcu 6,7 milyard dollar təşkil etməklə ÜDM-in təxminən 10 faizi həcmində olmuşdur.

İİTKM-in araşdırmasında göstərilir ki, müvafiq dəyişikliklərdən irəli gələrək 2023-cü ilin II yarımili üzrə strategiyada nəzərdə tutulmuş tədbirlərin nəticə indikatorlarının illər üzrə bölgüsünü müəyyən edən indikator cədvəli yenidən nəzərdən keçirilməklə aralıq və yekun nəticə indikatorlarında da müvafiq dəyişikliklər öz əksini tapacaq. Diqqətçəkən odur ki, yuxarıda qeyd olunan dəyişikliklər Prezidentin 2022-ci il 30 dekabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün strategiyanın 2022-2025-ci illər üzrə yenilənməsi çərçivəsi"ndə də öz əksini tapmışdır.

Bununla yanaşı, çərçivə sənədində bir sıra əlavə dəyişikliklər də edilmişdir. Belə ki, xarici dövlət borcunun qaytarılması ilə yanaşı, ölkənin sosial-iqtisadi inkişaf templərinə əlavə təkan verilməsi məqsədlərindən irəli gələrək prioritet sahələrdə investisiya layihələrinin maliyyələşdirilməsi üçün 5 milyard dolların xarici borcun cəlb edilə biləcəyi qeyd olunmuşdur. Bu səbəbdən xarici dövlət borcunun ÜDM-ə nisbət göstəricisi (10 faiz) xarici dövlət borcunun nominal ifadədə təsbit olunan yuxarı hədd göstəricisi (10 milyard dollar) ilə əvəz edilmişdir.

Yeni dəyişikliyə əsasən, 2025-ci ilin sonuna xarici dövlət borcunun 7,1 milyard dollar məbləğində, yəni ÜDM-in 10,7 faizi həcmində olması gözlənilir. Bununla belə, mövcud xarici dövlət borcunun qaytarılması, eləcə də ölkənin sosial-iqtisadi inkişaf templərinə əlavə təkan verilməsi məqsədi ilə prioritet sahələrdə investisiya layihələrinin maliyyələşdirilməsi səbəbindən bu göstəricilərin dəyişəcəyi istisna edilmir.

"Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın icrasının təmin edilməsi ilə bağlı İqtisadiyyat Nazirliyi Ədliyyə Nazirliyi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi və digər aidiyyəti dövlət orqanları ilə birlikdə icrası davam etməkdə olan konsepsiya, strategiya, dövlət proqramı, milli fəaliyyət planları və bu kimi digər sənədlərin strategiya ilə əlaqələndirilməsi istiqamətində zəruri tədbirlər görür. Bu strategiya artıq bir ilə yaxındır ki, icra olunur və müəyyən nəticələrin əldə edilməsi üçün zəruri addımlar atılır.

***Bahadur İMANQULİYEV, "Azərbaycan"***

## Əsas kapitala 9,1 milyard manat vəsait yönəldilib

**Cari ilin yanvar-iyul aylarında əsas kapitala 9 milyard 114,9 milyon manat məbləğində, yaxud 2022-ci il ilin müvafiq dövrü ilə müqayisədə 20,8 faiz çox vəsait yönəldilmişdir.**

Dövlət Statistika Komitəsinin məlumatına görə, neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 15, qeyri-neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi isə 24,3 faiz artmışdır. İstifadə olunmuş vəsaitin 5 milyard 45,0 milyon manatı və ya 55,3 faizi məhsul istehsalı sahələrinə, 3 milyard 600,5 milyon manatı (39,5 faizi) xidmət sahələrinin, 469,4 milyon manatı (5,2 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunmuşdur. Əsas kapitala yönəldilmiş vəsaitlərin 6 milyard 877,5 milyon manatını və ya 75,5 faizini daxili vəsaitlər təşkil etmişdir. Əsas kapitala yönəldilmiş vəsaitlərin 6 milyard 679,0 milyon manatı və ya 73,3 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur.

Əsas kapitala yönəldilmiş vəsaitin ümumi dəyərində müəssisə və təşkilatların öz vəsaitləri 44,7, büdcə vəsaitləri 39,7, əhalinin şəxsi vəsaitləri 6,7, bank kreditləri 3, sair vəsaitlər isə 5,9 faiz təşkil etmişdir.

## Sənayenin qeyri-neft-qaz sektorunda məhsul istehsalı 6,5 faiz artmışdır

**7 ay ərzində ölkə üzrə 39,8 milyard manatlıq və ya 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,6 faiz az sənaye məhsulları istehsal edilmişdir.**

Neft-qaz sektorunda məhsul istehsalı 2,4 faiz azalmış, qeyri-neft-qaz sektorunda isə 6,5 faiz artmışdır.

Sənaye məhsullarının 69,1 faizi mədənçıxarma sektorunda, 25,7 faizi emal sektorunda, 4,4 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda, 0,8 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunmuşdur.



Mədənçıxarma sektorunda əmtəəlik neft hasilatı 7,7 faiz azalmış, əmtəəlik qaz hasilatı isə 3,3 faiz artmışdır.

Emal sektorunda kompüter, elektron və optik məhsulların istehsalı 2, ağacın emalı və ağacdan məmulatların istehsalı 2 dəfə, toxuculuq sənayesi məhsullarının istehsalı 43, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 38,7, poliqrafiya məhsullarının istehsalı 34,3, kağız və karton istehsalı 31,8, içkilərin istehsalı 26,0, tikinti materiallarının istehsalı 24,1, maşın və avadanlıqların istehsalı 20,0, rezin və plastik kütlə məmulatlarının istehsalı 19,5, hazır metal məmulatlarının istehsalı 19,1, neft məhsullarının istehsalı 15,9, qida məhsullarının istehsalı 11,7, tütün məmulatlarının istehsalı 10,0, kimya sənayesi məhsullarının istehsalı 3,6, mebel istehsalı 2,5 faiz artmış, elektrik avadanlıqlarının istehsalı 0,2, əczaçılıq məhsullarının istehsalı 13,9, sair nəqliyyat vasitələrinin istehsalı 17,0, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 19,1, geyim istehsalı 23,4, sair sənaye məhsullarının istehsalı 29,3, metallurgiya sənayesi məhsullarının istehsalı 31,1, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri 36,1 faiz azalmışdır.

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsalın həcmi 1,7, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda isə 16,7 faiz artmışdır.

## Yanvar-iyul aylarında 70,3 milyard manatdan çox ÜDM istehsal olunub

**2023-cü ilin yanvar-iyul aylarında ölkədə 70 milyard 372,2 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 0,7 faiz çox ümumi daxili məhsul istehsal olunmuşdur.**

Dövlət Statistika Komitəsinin məlumatına görə, iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 2,2 faiz azalmış, qeyri-neft-qaz sektorunda isə 3,4 faiz artmışdır.

ÜDM istehsalının 42,8 faizi sənaye, 9,4 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri, 6,1 faizi nəqliyyat və anbar təsərrüfatı, 6,0 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 4,9 faizi tikinti, 2,3 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,6 faizi informasiya və rabitə sahələrinin, 17,7 faizi digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM-in 9,2 faizini təşkil etmişdir.

Əhalinin hər nəfərinə düşən ÜDM 6938,8 manata bərabər olmuşdur.

## İqtisadi sektorda orta aylıq əməkhaqqı 922 manatdır

**Dövlət Statistika Komitəsi xəbər verir ki, iyulun 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 5,5 min nəfər və ya 0,3 faiz artaraq 1 milyon 725,5 min nəfər olmuşdur.**



Onlardan 894,2 min nəfəri iqtisadiyyatın dövlət, 831,3 min nəfəri isə qeyri-dövlət sektorlarında fəaliyyət göstərmişdir.

Muzdla işləyənlərin 19,0 faizi təhsil, 18,8 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 13,0 faizi sənaye, 8,4 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,5 faizi dövlət idarəetməsi və müdafiə, sosial təminat, 6,3 faizi tikinti, 4,2 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,6 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 3,6 faizi peşə, elmi və texniki fəaliyyət, 2,1 faizi maliyyə və sığorta fəaliyyəti, 14,5 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar.

Yanvar-iyun aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 11,5 faiz artaraq 921,9 manat olmuşdur. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, eləcə də informasiya və rabitə sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olmuşdur.

## Pirallahı Sənaye Parkının məhsullarının "Made in Azerbaijan" brendi ilə ixrac olunacağı vaxta az qalıb

**Sənaye parkları ölkə iqtisadiyyatına investorların cəlb edilməsi ilə bağlı böyük imkanlar yaradır. Bu imkanlar qeyri-neft sektorunun inkişafına birbaşa təsir göstərən amillərdəndir.**

Prezident İlham Əliyevin rəhbərliyi ilə reallaşdırılan iqtisadi strategiya çərçivəsində sənayenin inkişafına yönəlmiş sistemli və ardıcıl tədbirlər, genişmiqyaslı islahatlar ölkənin dayanıqlı yüksəlişini formalaşdırıb. Artıq təkcə Bakı deyil, Sumqayıt, Gəncə, Mingəçevir kimi şəhərlər də sənaye mərkəzlərinə çevrilib. Hər üç şəhərdə onlarca müasir sənaye müəssisəsi yaradılıb ki, bu da Azərbaycanın idxaldan asılılığını azaldaraq ixrac potensialını yüksəldib. Həmin yüksəlişi təmin edən faktorlar sənayenin yeni inkişaf mərhələsinə qədəm qoymasıdır.

Ölkəmizdə Sumqayıt Kimya, Pirallahı, Mingəçevir, Qaradağ, Ağdam və Cəbrayıl rayonunda yerləşən "Araz Vadisi İqtisadi Zonası" sənaye parkları yaradılıb. Qeyd olunan 6 sənaye parkı ilə yanaşı, Sabirabad, Masallı, Neftçala və Hacıqabulda 4 sənaye məhəlləsi, həmçinin 50-yə yaxın aqropark fəaliyyət göstərir. Sənaye parkları iri sahibkarlıq subyektləri, sənaye məhəllələri isə kiçik və orta sahibkarlıq üçün nəzərdə tutulub. Sənaye parklarında infrastukturla təmin edilmiş torpaq sahələri rezidentlərə uzunmüddətli icarəyə verildiyi halda, sənaye məhəllələrində həm torpaq sahələri, həm də hazır tikililər uzunmüddətli icarəyə verilir. Sənaye məhəlləsi sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrasturktura malik olan, kiçik və orta sahibkarlar tərəfindən məhsul istehsalı və xidmət göstərilməsi üçün istifadə edilən ərazilərdir.

Təbii ki, sənaye parklarının coğrafi baxımdan doğru seçilməsi, nəqliyyat-kommunikasiya çıxışlarına yaxın olması kimi məsələlər də önəmlidir. Qeyd edək ki, sənaye parkları mükəmməl rabitə, nəqliyyat, elektrik enerjisi infrastrukturuna və işçi qüvvələri ehtiyatına malik olan ərazilərdə yerləşir. Bunlar da həm investisiya cəlbediciliyini artırır, həm də investisiya layihələrinin inkişafına təkan verir. Üstəlik də, kiçik və orta biznes müəssisələrinin gəlir əldə etməsi imkanlarını asanlaşdırır. Bu mənada Azərbaycanda sənaye parklarının yaradılması, sənaye məhəllələrinin salınması istiqamətində qəbul edilən qərarlar vaxtın tələbindən irəli gələn, zamanla ayaqlaşan yanaşmadır ki, bu da yaxın gələcəkdə öz bəhrəsini daha ciddi şəkildə göstərəcək.

Dünya təcrübəsi göstərir ki, sənaye parkları, azad zonalar, daha doğrusu, xüsusi ayrılmış ərazilər öz təyinatlarına uyğun fəaliyyət göstərir və onlara güzəştlər tətbiq olunur. Həmin güzəştlərin məqsədi parkların inkişafını sürətləndirmək, investisiya, sahibkar və rezident cəlb etməkdir. Bu gün Azərbaycanda bütün sənaye parkları və sənaye məhəllələri innovativ texnologiyaların tətbiqi, ən müasir infrastruktur təminatı və ən asan nəqliyyat-kommunikasiya şərtləri ilə fəaliyyət göstərirlər. Son vaxtlar görülən işlərin sürəti onu deməyə əsas verir ki, gələcək illərdə sənaye park və məhəllələrində yaradılan müəssisələr əlverişli şərtlərdən bəhrələnərək idarəedici qurumlardan asılılığa son qoya biləcəklər. Özəl sektorun inkişafına önəm verən dövlət özəl biznesi həvəsləndirmək üçün bütün mümkün variantlardan istifadə edir. Azərbaycanın sənaye parklarında həm istehsal, həm tədarük, həm də idxal məsələlərinin cəmləşməsi çox böyük üstünlükdür. Bu, əmək məhsuldarlığının yüksək olmasına yol açır və vaxt itkisini aradan qaldırır.

Məhz bu səbəbdən də iki ay əvvəl "BIK Ratings" Reytinq Agentliyinin hazırladığı sənaye parklarının reytinq siyahısında ilk onluğa İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan Mingəçevir Sənaye Parkı (3-cü yer), Pirallahı Sənaye Parkı (7-ci yer) və Qaradağ Sənaye Parkı (10-cu yer) daxil olublar. Əslində, bu uğurun arxasında Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sistemli və ardıcıl tədbirlər dayanır. Adları çəkilən bu parklar səkkiz ildir fəaliyyət göstərirlər. Şübhəsiz, qarşıdakı illərdə həmin sənaye parklarının adını daha böyük uğurlar yazılmış beynəlxalq reytinq cədvəllərində də görə biləcəyik. Amma bu o demək deyil ki, digər sənaye parkları adları çəkilən parklardan geridə qalırlar. Əlbəttə, yox. Bir çox göstəricilər var ki, onlar daha öndədirlər.




"BIK Ratings" Reytinq Agentliyinin reytinq cədvəlində yeddinci yerdə qərar tutan Pirallahı Sənaye Parkı fəaliyyətə başladığı gündən ölkədə əczaçılıq sənayesinin inkişafı, bu sahədə idxaldan asılılığın azaldılması, əhalinin dərman vasitələrinə tələbatının ödənilməsi və məşğulluğun artırılması məqsədinə xidmət edir. 30 hektar ərazidə yaradılmış parkda sahibkarlar ən zəruri infrastrukturla (elektrik və istilik enerjisi, qaz, su, kanalizasiya, rabitə, nəqliyyat, yanğından mühafizə, istehsal təyinatlı, inzibati, sosial və digər infrastruktur obyektləri) təmin olunublar. Bu ilin mart ayında Pirallahı Sənaye Parkının rezidentləri olan "Diamed Co" MMC, "R-Pharm" MMC, "İFFA" MMC, "Absheron Saffron Ltd" MMC və "Medtest" MMC-dən sonra daha biri də əlavə olundu - "AzMed-Plant" MMC. Sadalanan MMC-nin hər biri bu günə kimi profillərinə uyğun istehsalla məşğul olaraq ölkə iqtisadiyyatına çox böyük fayda verirlər. Pirallahı Sənaye Parkının fəaliyyəti əczaçılıq sənayesinin inkişafına, əhalinin dərman vasitələrinə tələbatının ödənilməsinə, yerli istehsalın və məşğulluğun artımına bir təkandır. Bir sözlə, Pirallahı Sənaye Parkı dayanmadan istehsal gücünü artırır, sıx əlaqələr qurur, indidən gələcəyin möhkəm zəminini qoyur.

Bu günlərdə "Azərbaycan İnvestisiya Şirkəti" ASC (AİŞ) və Türkiyənin "Gen İlaç ve Sağlık Ürünleri Sanayi ve Ticaret A.Ş" şirkəti arasında tərəfdaşlıq və birgə iştirak müqaviləsi imzalanıb. Müqaviləyə əsasən, Pirallahı Sənaye Parkının ərazisində qabaqcıl texnologiyalara əsaslanan, illik istehsal gücü ilkin mərhələdə 35 milyon qutu təşkil edəcək yeni zavod tikiləcək. İqtisadiyyat naziri Mikayıl Cabbarov bununla bağlı belə deyib: "Azərbaycan-Türkiyə qardaşlığı, dostluğu, sıx əməkdaşlıq və strateji müttəfiqlik münasibətləri dövlət başçılarımız cənab İlham Əliyev və cənab Rəcəb Tayyib Ərdoğanın yorulmaz səyləri nəticəsində bu gün ən yüksək zirvədədir. Siyasi əlaqələrin yüksək səviyyədə olması biznes fəaliyyətinin də gücləndirilməsinə möhkəm zəmin yaradır, birgə təşəbbüslər uğurla reallaşdırılır". Nazir daha sonra bildirib ki, Azərbaycanda əhalinin sağlamlığının etibarlı təminatına imkan verən müasir infrastrukturun yaradılması mühüm əhəmiyyət kəsb edir. Ölkəmizdə əczaçılıq sənayesinin inkişafı məqsədilə yaradılmış Pirallahı Sənaye Parkında bir sıra güzəştlər tətbiq olunur. Azərbaycan İnvestisiya Şirkəti və Türkiyənin dərman istehsalı sahəsində ixtisaslaşan "Gen İlaç ve Sağlık Ürünleri Sanayi ve Ticaret A.Ş" şirkəti arasında Pirallahı Sənaye Parkında əczaçılıq məhsulları zavodunun tikilməsi layihəsi reallaşdıqdan sonra ölkədə bir sıra əczaçılıq məhsullarına tələbat yerli istehsal hesabına ödəniləcək, idxaldan asılılıq azaldılacaq. Zavodda 42 adda müxtəlif doza və qablaşdırma olmaqla 100 növ məhsulun istehsalı nəzərdə tutulub. Layihənin ilkin investisiya dəyəri 35 milyon dollar təşkil edir. Layihə çərçivəsində 100-dən artıq daimi iş yeri yaradılacaq. Perspektivdə dərman vasitələrinin "Made in Azerbaijan" brendi ilə region ölkələrinə ixracı planlaşdırılır.

***Züleyxa ƏLİYEVA, "Azərbaycan"***

## “Böyük qayıdış” proqramı sürətlə icra olunur

# Zəngilan növbəti sakinlərini qarşılayır

## Yenidən qurulmuş modern kəndə bu gün daha 106 ailə köçür



Böyük qayıdışın baş tutduğu ilk ünvana, Şərqi Zəngəzurun cənnətməkan kəndinə çevrilən Ağalıya növbəti köç reallaşır. Bu gün illərdən sonra daha bir neçə zəngilanlı ailənin yurd həsrətinə son qoyulur.

Öncə onu xatırladaq ki, Zəngilanın bu modern kəndinə ilk qayıdış ötən il iyulun 19-da baş tutmuşdu. 29 il sonra nisgilləri, həsrətləri sona çatan soydaşlarımızın sevinc göz yaşları içərisində qayıtdıqları Ağalı yeni, müasir standartlara uyğun olaraq "ağıllı kənd" konsepsiyası əsasında qurulmuşdur. Cəmi bir ilə salınan kənddə yaşayış üçün bütün lazımi infrastruktur tikilmişdir. Məktəb, tibb məntəqəsi, uşaq bağçası, "ASAN" xidmət, "DOST" mərkəzləri, kiçik və orta biznesə dəstək qurumu, ümumilikdə digər xidmətlərə əlçatanlığın təmin olunması üçün hər cür şərait yaradılıb.

### Böyük qayıdışın ilk ünvanı

İlk növbədə Ağalıya köçəcək ailələrin məşğulluğunun təmin olunması üçün dərhal işlərə başlanılmışdı. Ağalı kəndi Böyük qayıdışın ilk ünvanı oldu.

Beləliklə, 2022-ci il iyulun 19-da 10 ailə - 53 nəfər ayağını Ağalı torpağına basdı. Bununla da Böyük qayıdışın ilk ayaq səsləri eşidildi.

İlkin köçürülən ailələr, əsasən, müvəqqəti məskunlaşma yerlərində ən ağır şəraitdə yaşayanlar arasından seçilmişdi. Onların arasında 1-ci, 2-ci və 3-cü Ağalı kəndlərinin sakinləri var idi.

Ötən il iyulun 21-də Abşeron rayonunun Masazır qəsəbəsindəki "Zəngilan" şəhərciyindən daha 48 nəfər - 10 ailə Ağalıya yola düşdü. Üçüncü köç karvanı isə həmin ayın 23-də kəndə yollandı. Doğma yurda üz tutan bu karvanda isə daha 10 ailə - 45 nəfər var idi. İyulun 25-də daha 55 nəfər - 11 ailənin köçürülməsi ilə 201 nəfərin Ağalıda daimi məskunlaşması təmin olundu.

Kəndə köçənlərin sevincinin həddi-hüdudu olmadı. Uşaqdan-böyüyə hər kəs yaradılan şəraitdən çox razı idi. Onların hər biri kəndlərində firavan yaşayacaqlarını, qurub-yaradacaqlarını, təsərrüfatla məşğul olaraq torpaqlarını yenidən dirçəldəcəklərini qeyd edirdilər. Artıq bir ildən çoxdur ki, ağalılılar uzun illər öncə didərgin düşdükləri dədə-baba evlərində məsud, rahat və qürurla yaşayırlar.

Sayca beşinci köç karvanı isə sentyabrda Ağalıya yola düşdü. Bununla Zəngilan rayonuna qayıdışın ikinci mərhələsi başlandı.

### Ağalıda yaşayanların sayı 500 nəfəri keçib

Sentyabrın 7-də Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda müvəqqəti məskunlaşmış daha 12 ailə - 63 nəfər daimi yaşayış üçün Ağalıya yola düşdü. Bu il fevralın 28-də 10 ailə - 50 nəfər, martın 3-də isə 10 ailə - 44 nəfər doğma yurdlarına qayıtdılar. Beləliklə, Ağalıda məskunlaşan sakinlərin sayı 420 nəfərə çatdı. Bununla 86 ailə öz keçmiş xoş günlərinə, deyərdik ki, ondan daha rahat həyatlarına başladılar. Cari ilin mart ayında baş tutan qayıdış isə Ağalıya gedən yeddinci köç karvanı idi.

İndi isə Ağalıya qayıdışın dördüncü mərhələsi başlayır. Bu gün - avqustun 12-də daha 106 nəfərin Ağalı həsrətinə son qoyulur. Onlar da digər həmkəndliləri kimi sevinc içində, qürurla öz el-obalarına dönürlər. Yəni Ağalıda daha 22 ailənin evinin işığı yanacaq.

Bununla da, Ağalıda yaşayanların sayı 500 nəfəri keçmiş olacaq. Xatırladaq ki, ilkin mərhələdə kənddə 200 ev tikilsə də, daha sonra təqdim olunan yeni layihəyə əsasən, kəndin genişləndirilməsi və əlavə 150 evin inşa edilməsi, o cümlədən ikimərtəbəli, üçmərtəbəli mənzil tipli evlərin inşa edilməsi nəzərdə tutulmuşdu.

Zəngilanda "ağıllı kənd" konsepsiyası əsasında həyata keçirilən uğurlu pilot layihə çərçivəsində bu gün ağalılılar öz ata-baba yurdlarında xoşbəxt həyat sürürlər. Qayıdışın ilk ünvanı Ağalı olsa da, qısa zamanda işğaldan azad edilmiş digər kəndlərə, şəhərlərə də köç başladı. Artıq Tərtərin Talış kəndində, Laçın şəhərində sakinlər daimi məskunlaşıblar. Yaxın zamanda isə Laçının Sus kəndinə, Füzuli şəhərinə də qayıdış başlayacaq.

Bununla da mərhələli şəkildə "Böyük Qayıdış" Dövlət Proqramının icrasının müsbət nəticəsini görəcəyik. İşğaldan azad olunmuş bütün şəhər və kəndlərimiz keçmiş məcburi köçkünlərin tezliklə qayıtması üçün sürətlə bərpa edilir, yenidən qurulur. Qarabağ və Şərqi Zəngəzurda həyat canlanmağa başlayır. Hər bir rayon, qəsəbə öz iqliminə, təbii ehtiyatlarına, şəraitinə uyğun olaraq modern formada tikilir.

### Böyük qayıdış proqramı hələ minlərlə ailəyə sevinc bəxş edəcək

Ötən il Zəngilana səfər edən ağalılarla görüş zamanı Prezident İlham Əliyev qeyd etmişdi ki, Zəngilanın təbiəti o qədər gözəldir ki, biz təbiətə bir zərrə ziyan vurmamalıyıq, əksinə, təbiəti daha da zənginləşdirməliyik.

Qarabağın və Şərqi Zəngəzurun bərpası prosesi sürətlə davam etdirilir. Prezident hər səfərində yeni layihələrin təməlini qoymaqla yanaşı, görülən işlərlə tanış olur, həmçinin tamamlanmış mərkəzlərin, sosial-iqtisadi obyektlərin açılış mərasimlərində iştirak edir. Bununla da "İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış" Milli Prioritetinin icrasının təmin edilməsi məqsədilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair Dövlət Proqramı" əsasında bərpa prosesi daha da sürətlənir və vətəndaşlarımızın yurd həsrəti vüsala çevrilir.

Dövlət proqramının prioriteti soydaşlarımızın tez zamanda yurda dönüşünü reallaşdırmaqdır. Dövlət başçısının bu istiqamətdə verdiyi tapşırıqlar vaxtında icra olunur. Qarabağ və Şərqi Zəngəzurda müasir şəhər və qəsəbələr, kəndlər salınır, yaşamaq üçün bütün insfastrukturlar inşa edilir. Görülən işlər göstərir ki, Azərbaycanın milli prioritetləri arasında işğaldan azad olunmuş ərazilərin bərpası və hər bir kəndinə, şəhərinə qayıdış xüsusi yer tutur.

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

---

## Laçın sakini ata-baba yurdunu ziyarət edib, təəssüratını bölüşüb

Laçın rayonunun Bozlu kəndindən məcburi köçkün olan Hüseyn Oruc oğlu Rəfiyev ata-baba yurdununu, anadan olduğu evi ziyarət edib.



AZƏRTAC xəbər verir ki, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin hazırladığı videoçarxda o, səfər təəssüratını bölüşüb, bu yerlərdə aparılan bərpa-quruculuq işlərinə münasibət bildirib.

Tezliklə doğma yurda qayıtmağa hazırlaşan Hüseyn Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə, birinci xanım Mehriban Əliyevaya, torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlığını ifadə edib, Allahdan şəhidlərimizə rəhmət, qazilərimizə şəfa diləyib.

Qeyd edək ki, ərazisi işğaldan azad olunmuş rayonların sakinləri ilə müsahibələr əsasında videoçarxların hazırlanması davam etdirilir.

---

## ANAMA Laçın rayonuna köç edən növbəti sakinlər üçün maarifləndirmə təlimi keçirib



Bərpa edilən və yenidən qurulan Laçın şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı çərçivəsində növbəti mərhələdə köç edən 22 ailəyə Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) tərəfindən partlayıcı sursatların təhlükəsinə dair maarifləndirmə təlimləri keçirilib.

Agentlikdən AZƏRTAC-a bildiriblər ki, təlimdə Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin və "Bakı Abadlıq" MMC-nin əməkdaşlarının da iştirakçılarla görüşü olub.

Laçın şəhərinə son mərhələ də daxil olmaqla indiyədək geri qayıdan ümumilikdə 150-dən çox sakinin iştirak etdiyi təlimdə iştirakçılara təhlükəli ərazilərdə davranış qaydaları, minaların törətdiyi fəsadlar və psixoloji nəticələr, təhlükəli ərazilərin əlamətləri haqqında məlumat verilib. Təlimlər zamanı iştirakçılara xəbərdaredici və maarifləndirici qaydalar, eləcə də müxtəlif növ mina təhlükəsini əks etdirən broşür və posterlər paylanılıb.

ANAMA-nın həyata keçirdiyi partlayıcı sursatların təhlükəsinə dair maarifləndirmə təlimləri işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa-quruculuq layihələrinə uyğun olaraq öz yurdlarına geri qaytarılan sakinlərə irəliləyən zamanlarda da keçirilməyə davam etdiriləcək. Zəngilanın Ağalı kəndində vətəndaşların təhlükəsiz şəkildə yaşayışı və fəaliyyət göstərməsi bu cür təlimlərin faydasının bariz nümunəsidir.

Hər bir vətəndaş bilməlidir ki, verilən təlimatlara əsasən öz nizam-intizamlı, məsuliyyətli və sayıq davranışı ilə həm özünü, həm də ailəsini baş verə biləcək bədbəxt hadisələrdən qoruyaraq dövlətin bu istiqamətdə icra etdiyi fəaliyyətə müsbət töhfəsini verəcək.

---

# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbul cədvəlinə müvafiq olaraq Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri Məcnun Məmmədov avqustun 11-də Naxçıvan Kənd Təsərrüfatı Elmi-Tədqiqat İnstitutunun inzibati binasında Naxçıvan şəhəri, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarından olan vətəndaşları qəbul edib, onların müraciətlərini dinləyib, ərizə və şikayətlərinə baxıb.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, nazirliyin idarə və tabeli qurumlarının rəhbərlərinin iştirakı ilə keçirilən qəbulda vətəndaşların müraciəti əsasən əkin sahələrinin təsərrüfat suyu ilə təmin olunması, işlə təminat, kənd təsərrüfatı texnikasının lizinq yolu ilə əldə olunması, sığorta hadisəsi zamanı dəymiş ziyanın ödənilməsi və digər məsələlərlə bağlı olub. Nazir Məcnun Məmmədov hər bir vətəndaşın müraciətini diqqətlə dinləyib, qaldırılan məsələlərin hərtərəfli öyrənilməsi və qanunvericiliyin tələblərinə uyğun qısa müddətdə həll edilməsi üçün müvafiq tapşırıqlar verib. Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb, qaldırılan bəzi məsələlər isə araşdırılması üçün nəzarətə götürülüb. Nazirliyin fəaliyyət dairəsinə aid olmayan müraciətlər müvafiq qurumlara çatdırılmaq üçün qeydiyyata alınıb.

---

# Revanşistlərlə polislər toqquşdu

## Hayastanda xalqdan dəstək ala bilməyən "səlibçilər" geri çəkilir

Hayastanda davam edən etirazlar fonunda siyasi böhran gündən-günə kəskinləşir. Bu, həm də sosial-iqtisadi vəziyyətin daha da pisləşməsinə səbəb olur. Revanşistlər baş nazir Nikol Paşinyanı hakimiyyətdən uzaqlaşdırmaq üçün dəridən-qabıqdan çıxsa da, hələ ki heç bir nəticəyə nail ola bilmirlər. Keçmiş hərbi xunta etirazlarına əsas səbəb kimi hakimiyyətin yürütdüyü uğursuz siyasəti göstərir. Onlar iqtidarın xarici siyasətinin ölkəni uçuruma sürüklədiyini, dövlətçiliyin itirilməsi ilə üz-üzə qoyduğunu iddia edirlər.

Dünən İrəvanda parlament binası yaxınlığında etiraz aksiyası keçirən revanşistlərlə polislər arasında toqquşma olub. Bir neçə etirazçı yerə yıxılan polisi döyüb. Etirazçıları "qırmızı beretlilər" saxlayaraq bölmələrə aparıblar.

Hökumət binasının qarşısında aksiya keçirən "səlibçilər" ("xaçakirner") adlı dəstənin üzvləri isə hakimiyyətdən Qarabağı Hayastanla birləşdirən yolun açılmasını tələb edir, əks halda bunu özlərinin edəcəklərini bildirirdilər. Onlar avqustun 9-da Həkəri çayı üzərindəki körpünün yanına çatmışdılar. Bu körpüdə Azərbaycanın sərhəd-buraxılış məntəqəsi yerləşir. Burada Hayastan polisi onların qarşısını kəsib və aksiyaçılar bundan sonra Azərbaycanla həmsərhəd Kornidzor kəndinə dönüblər və oradan Gorusa gediblər. Dəstənin üzvlərindən biri Ovanes Ovannisyan bildirir ki, polis Kornidzorda onların qarşısını kəsərək irəliləmələrinə imkan verməyib: "Biz gəlib bura çatmışıq, baxın yolumuzu nə qədər adam kəsib. Onlar nə bizim keçməyimizə, nə də ərzaq keçirməyimizə imkan verirlər. Kim ermənidirsə, kim vuruşubsa, bizə qoşulmalıdır. Onlar bizə qoşulub silah götürməkdənsə, bizə silah çeviriblər, silahlı vəziyyətdə bizi gözləyiblər".

Özlərini "səlibçilər" adlandıran dəstənin üzvləri avqustun 8-də İrəvanın Respublika meydanında aksiya keçirmiş, daha sonra Tiqran Mets küçəsini bağlamışdılar. Onlar Laçın istiqamətində yollanmazdan əvvəl axşam saatlarında Yerablur hərbi məzarlığında toplaşmışdılar. Orada dəstənin başçısı Sarkis Poqosyan vətəndaşları onlara qoşulmağa çağırmışdı: "Mənə belə gəlir ki, bu, bizim son şansımızdır, biz bunu etməliyik, geri çəkilməməliyik".

Bununla yanaşı, İkinci Qarabağ müharibəsində, eyni zamanda təxribatlar nəticəsində ölmüş hərbçilərin valideynləri də İrəvanda dövlət qurumlarının qarşısında aksiyalar təşkil edirlər. Hayastan İstintaq Komitəsinin binası qarşısına toplaşan valideynlər komitə sədri ilə görüşmək istəyirlər. Döyüşdə yaralanmış hərbçi Manvel Levonyanın atası deyib ki, 44 günlük müharibədə əlil olmuş, amma tibbi-sosial ekspertiza zamanı hüquqlarının pozulmasından şikayət edən xeyli sayda hərbçi var. Müharibədə ağır yaralanmış həmin şəxslər şikayət edirlər ki, ekspertizanın gedişində komissiyanın qərarı anormal qaydalarla verilir. Yəni onlar 1-ci qrup olsalar da, 3-cü qrup üzrə əlillik alırlar. Bir çoxu isə, ümumiyyətlə, əlil statusu ala bilmir.

Bütün bunların fonunda Hayastanda sosial-iqtisadi durum getdikcə ağırlaşmaqda, ölkədə yaşanan tənəzzül durmadan genişlənməkdədir. Bu əsnada sadə vətəndaşların vəziyyəti daha da pisləşir ki, bu da ölkədə müşahidə olunan sosial narazılığın artmasına rəvac verir. Əhalinin durumu olduqca acınacaqlıdır. Onlar böyük səfalət içində yaşayır, gündəlik ərzaq almağa pul tapmaqda belə çətinlik çəkirlər. Hazırda Hayastanda əhalinin böyük əksəriyyəti banklara borcludur. Bank faizləri isə kifayət qədər yüksəkdir.

Bütövlükdə bütün bunlar Hayastanın böyük tənəzzül yaşadığını göstərir.

*Elçin CƏFƏROV, "Azərbaycan"*

---



"SƏBA" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ
MƏNFƏƏT ZƏ HAQQINDA KONSOLİDASİYA OLUNMUŞ HESABAT
31 DEKABR, 2022 TARİXİNDƏ BİTƏN İL ÜZRƏ

"SƏBA" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ
PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT
31 DEKABR, 2022 TARİXİNDƏ BİTƏN İL ÜZRƏ

brighter
Brighter GC LLC
Konsolidasiya edilmiş maliyyə hesabatlarının audit üzrə auditorların vəzifələri

MÜSTƏQİL AUDİTORUN HESABATI

### "Səba" ASC-nin 2022-ci il üzrə İdarəetmə Hesabatı

**1. Emitentin tam və qısaldılmış adı, VÖEN-i, dövlət qeydiyyatının tarixi və nömrəsi:**

1.1. Tam adı: "Səba" Açıq Səhmdar Cəmiyyəti

1.2. Qısaldılmış adı: "Səba" ASC

1.3. VÖEN-i: 5000021211

1.4. Dövlət qeydiyyatının tarixi və nömrəsi: 24.12.1997-ci il, № 0406-D3-157

**2. Emitentin hüquqi ünvanı və olduğu yer:**

2.1. Hüquqi ünvanı: Azərbaycan Respublikası, Şabran şəhəri, M.Ə.Rəsulzadə, 35

2.2. Faktiki ünvanı: Azərbaycan Respublikası, Xırdalan şəhəri, Heydər Əliyev prospekti, 1

**3. Emitentin adında dəyişikliklər olduqda, emitentin bütün əvvəlki adları, habelə onların qeydiyyata alındığı tarixlər, emitent digər hüquqi şəxsin bölünməsi və ya tərkibindən ayrılması şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxsin adı, emitent hüquqi şəxslərin birləşməsi və ya çevrilmə şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxslərin adları:**

3.1. "Səba" ASC-nin adında dəyişiklik olmamışdır. "Səba" ASC bölünmə, ayrılma, birləşmə və çevrilmə yolu ilə yaradılmamışdır.

**4. Emitentin hesabat dövrü ərzində yaranmış və ləğv edilmiş filialları və nümayəndəliklərinin adı, olduqları yer və qeydiyyatları haqqında məlumatlar:**

4.1 "Səba" ASC-nin təsis edildiyi tarixdən bu hesabatın hazırlandığı tarixədək filialı yaradılmamışdır.

**5. Emitentin hesabat dövrü ərzində yaranmış və ya ləğv edilmiş hər bir törəmə cəmiyyətinin adı, təşkilati-hüquqi forması, hüquqi ünvanı, qeydiyyatı haqqında məlumatlar, nizamnamə kapitalında emitentin payı, hüquqi şəxsin emitentin törəmə cəmiyyəti hesab olunması üçün əsas olan müqavilənin bağlanma tarixi və qüvvədə olma müddəti;**

5.1. Hesabat dövrü ərzində yaranmış törəmə cəmiyyət: "Səba Orqanik Gübrə" Məhdud Məsuliyyətli Cəmiyyəti

**6. Emitent şirkətlər qrupunun bir hissəsi olduğu təqdirdə qrupun (emitent daxil olmaqla iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən bir və ya daha artıq törəmə təşkilatı olan qrupdur) adı:**

6.1. "Səba"ASC heç bir şirkətlər qrupunun hissəsi deyil.

**7. Emitentin məşğul olduğu fəaliyyət istiqamətləri:**

7.1. Sənaye üsulu ilə quşyetişdirmə, kəsim, kolbasa- sosiska məhsulları istehsal və satışı, arpanın becərilməsi, geniş çeşidli malların pərakəndə satışı, süd məhsullarının pərakəndə satış fəaliyyəti.

**8. Emitent lisenziya və ya icazəyə malik olduqda, onlar üzrə fəaliyyət növləri və qüvvədə olma müddətləri:**

8.1. Sənaye üsulu ilə quşyetişdirmə, kəsim və satış fəaliyyəti üçün hər hansı bir xüsusi lisenziya və ya icazə tələb olunmur.

**9. Emitentin təklif etdiyi məhsullar və xidmətlər:**

9.1. Təzə və donmuş toyuq əti məhsulları, kolbasa, sosiska və s.

**10. Emitentin işçilərinin sayı və onun rüblük dinamikası.**

**11. Emitentin idarəetmə orqanları haqqında məlumat: direktorlar şurası (müşahidə şurası) (olduqda), icra orqanı, audit komitəsi (olduqda), onların üzvlərinin adı, soyadı, atasının adı:**

| № | İdarə Heyəti |
|---|---|
| 1 | Faiq Hüseynov Hümbət oğlu - İdarə Heyətinin sədri |
| 2 | Rəşad Məmişov Məmməd oğlu - İdarə Heyətinin üzvü |

**12. Emitentin fiziki və hüquqi şəxs olan səhmdarlarının (payçılarının) ayrı-ayrılıqda sayı.**

**13. Emitentin nizamnamə kapitalının beş faizi və daha artıq həcmdə səsli səhmlərinə (paylara) malik olan şəxslər (fiziki şəxsin soyadı, adı, atasının adı; hüquqi şəxsin adı, olduğu yer və VÖEN), onların hər birinə məxsus olan səhmlərin sayı (səhmlərin hər növü üzrə ayrı-ayrılıqda göstərilir) və emitentin nizamnamə kapitalında payı.**

**14. Nizamnamə kapitalında emitentin payı beş faizdən az olmayan hüquqi şəxslər (hüquqi şəxsin adı, olduğu yer, VÖEN-i, nizamnamə kapitalında emitentin payı).**

**15. Emitentin səhmdarlarının (payçılarının) hesabat dövrü ərzində keçirilmiş yığıncaqları barədə məlumat.**

**16. Emitentin dövriyyədə olan investisiya qiymətli kağızlarının buraxılışları haqqında məlumat (investisiya qiymətli kağızların hər buraxılışı ayrı-ayrılıqda göstərilir).**

**17. Emitent tərəfindən bağlanılmış xüsusi əhəmiyyətli əqdlər barədə məlumatlar:**

17.1. Hesabat dövrü ərzində xüsusi əhəmiyyətli əqdlər bağlanmamışdır.

**18. Emitent tərəfindən aidiyyəti şəxslərlə bağlanılmış əqdlər barədə məlumatlar:**

18.1. Hesabat dövrü ərzində aidiyyəti şəxs ilə müqavilə bağlanılmamışdır.

**19. İllik hesabatın təsdiq edildiyi ümumi yığıncağın tarixi:**

19.1. 03.07.2023-cü il.

**20. Hesabatın açıqlanma mənbəyi haqqında məlumat:**

20.1. "Azərbaycan" qəzeti.

**İdarə Heyətinin sədri** **Faiq Hüseynov**

**Baş mühasib** **İlqar Hüseynov**

# Ölkəmizdə ilk dəfə Azərbaycan Dili və Ədəbiyyatı Forumu keçiriləcək

Sentyabrın 2-4-də Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı, Elm və Təhsil Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyasının dəstəyi ilə keçiriləcək forum Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan tədbirlər çərçivəsində reallaşacaq.




AZƏRTAC xəbər verir ki, tanınmış dilçi və ədəbiyyatşünas alimlərin, yazıçı və naşirlərin iştirak edəcəyi forum sentyabrın 2-də Azərbaycan ədəbiyyatına və mədəniyyətinə görkəmli şəxsiyyətlər bəxş etmiş Şamaxı şəhərində başlayacaq, sentyabrın 3-4-də isə Bakı şəhərində davam edəcək.

Ədəbi-elmi ictimaiyyətin iştirakı ilə geniş müzakirələrin aparılacağı forumda mədəniyyətimizin yaşadılması, inkişafı və təbliğində Azərbaycan dili və ədəbiyyatın rolu, Azərbaycan dilinin saflığının qorunub saxlanılması, müasir ədəbi proseslər, ölkəmizdə uşaq ədəbiyyatının ideoloji mahiyyəti və müasir problemləri, milli kitab sənayesinin hazırkı vəziyyəti və bu sahəyə dövlət dəstəyi, uşaq və yeniyetmələr arasında mütaliənin təbliği, teatr və kinonun inkişafında ədəbiyyat faktoru və digər istiqamətlərdə diskussiyalar olacaq.

Mütəxəssislərin forum çərçivəsindəki fikir və təklifləri ümumiləşdirilərək "Azərbaycan mədəniyyəti - 2040" Dövlət Proqramında öz əksini tapacaq.

Azərbaycan Dili və Ədəbiyyatı Forumunda iştirak etmək istəyən şəxslər avqustun 25-dək Mədəniyyət Nazirliyinin "culture.gov.az" rəsmi internet saytında yerləşdirilən onlayn müraciət forması vasitəsilə qeydiyyatdan keçə bilərlər.




# Avarçəkənlərimiz beynəlxalq turnirin ilk günündə 2 qızıl medal qazanıblar

Kayak və kanoe üzrə yeniyetmə və gənclərdən ibarət yığma komandamız Rusiyanın Barnaul şəhərində SSRİ İdman Ustası Konstantin Kostenkonun xatirəsinə həsr olunmuş beynəlxalq turnirdə iştirak edir. 10-a yaxın ölkədən olan idmançıların qatıldığı yarışda yığma komandamız böyük məşqçi Mirnazim Cavadovun rəhbərliyi altında mübarizə aparır.



İlk yarış günü avarçəkənlərimiz üçün uğurlu nəticə ilə yadda qalıb. 1 nəfərlik kayak qayığında 15 yaşadək idmançılar arasında 1000 metr məsafəyə yarışda Əlimurad Hacızadə bütün rəqiblərini qabaqlamaqla fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Eyni yaş kateqoriyasında 2 nəfərlik kayak qayığında 500 metr məsafəyə mübarizə də təmsilçilərimizin qələbəsilə başa çatıb - Əlimurad Hacızadə və Vacib Babayev dueti ən yaxşı nəticə ilə xatirə turnirinin qalibi olub.

# Azərbaycanın 7 boksçusu MDB Oyunlarının medalını qazanıb

## Daha 3 idmançımız finalda döyüşəçək

Belarusda keçirilən II MDB Oyunlarının boks yarışlarında yarımfinal mərhələsinə yekun vurulub. Turnirdə Azərbaycan millisinin gənc boksçularından 4-ü finala vəsiqə qazanıb.



Qızlar arasında Aynur Mikayılova (54 kq) yarımfinalda Mariya Tsmunu (Belarus) 5:0 hesabı ilə məğlub edib. O, çempionluq döyüşündə özbəkistanlı Uzuklamol Yunusova ilə qarşılaşıb. Daha təcrübəli Yunusova qələbə qazanıb və təmsilçimiz Oyunların gümüş mükafatına layiq görülüb. Oğlan boksçularımızdan Məhəmmədəli Qasımzadə (60 kq) yarımfinalda belaruslu Dmitri Dvarniçenkaya heç bir şans verməyib- 5:0. O, avqustun 12-də keçiriləçək final döyüşündə Abdulla Madaminovla (Özbəkistan) qarşılaşacaq. Ziya Həsənov (71 kq) yarımfinal döyüşünü vaxtından əvvəl başa vurub. Təmsilçimiz üçüncü raundda türkmənistanlı İlham Nazarov üzərində tam üstünlüklə qələbə qazanıb. Həsənov finalda Şavkatjon Boltayevlə (Özbəkistan) döyüşə çıxacaq. Fərhad Şeydayev (75 kq) İhlas Baxtiyarovdan (Türkmənistan) güclü olub. Yığma üzvü finala gedən yolda rəqibini 5:0 hesabı ilə məğlub edib. O, həlledici görüşdə özbək Fazliddin Erkinboyevə qarşı rinqə çıxacaq.

Digər təmsilçilərimiz - Ömər Aslanlı (54 kq), Aslan Quliyev (63,5 kq), Lalə Mədətova (48 kq), Aysu İsmayılova (50 kq), Nərmin Əlizadə (52 kq) və Qızbəs İsgəndər (60 kq) Oyunları bürünc medalla bitiriblər.

# Nicat Abasov daha bir tanınmış şahmatçını Dünya Kubokundan kənarlaşdırdı

Bakıda şahmat üzrə Dünya Kuboku yarışları davam edir. Dünən kişilərin turnirində 1/16 final, qadınlarda isə 1/8 final görüşləri keçirilib.

Azərbaycan yarışlarda 18 şahmatçı ilə təmsil olunsa da, üç turdan sonra onların sayı 1-ə enib. Əvvəlki mərhələlərdə Roduel Makoto (Zimbabve), Laurent Fressine (Fransa) və Aniş Girini (Niderland) məğlubiyyətə uğradan Nicat Abasov mübarizəni davam etdirir. Onun növbəti rəqibi tanınmış rusiyalı qrosmeyster Pyotr Svidler (FİDE) idi.

İki klassik oyunda heç-heçə qeydə alınıb və dünən rəqiblər sürətli şahmatda şanslarını sınayıblar. Rapid üzrə ilk görüş heç-heçə başa çatıb, cavab partiyasında isə Nicat qara fiqurlarla qalib gələrək 1/8 finala yüksəlib.

Nicat Abasov yarışın rəsmi saytına açıqlamasında bildirib ki, klassik partiyalarda hər iki tərəfdə müəyyən şanslar olub: "Birinci partiyada məğlub ola bilərdim. Rəqib lazımi gedişləri edə bilmədi. İmkanlardan istifadə edərək vəziyyəti düzəltdim və oyun heç-heçə yekunlaşdı. İkinci klassik partiya da bərabərliklə başa çatdığından tay-brekdə oynamalı olduq. İlk rapid görüş heç-heçə sona çatdı. İkinci oyunda qara fiqurlarla oynamağıma baxmayaraq, düzgün gedişlərlə qələbə qazanmağı bacardım".



Abasov ona dəstək olan şahmat həvəskarlarına təşəkkür edib: "Mənə görə yarış məkanına gələn bütün insanlara "çox sağ ol" deyirəm. Bu gün bir nəfər oyunu canlı izləmək üçün Beyləqandan gəldiyini dedi. Belə insanlar bizə əlavə güc verir. Dünya Kubokunda 1/8 final çox ağır mərhələdir. Bu raundda zəif rəqib olmur. Layiqli çıxışımı davam etdirmək üçün əlimdən gələni edəcəm".

Dünya Kubokunda 1/8 final mərhələsinin ilk oyunları avqustun 12-də baş tutacaq. Nicat Abasovun rəqibi BƏƏ təmsilçisi Saleh Səlim olacaq.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Beynəlxalq axtarışda olan şəxs Ukraynadan Azərbaycana ekstradisiya edilib

Beynəlxalq axtarışa verilmiş şəxs Ukraynadan Azərbaycana ekstradisiya edilib. Bu barədə AZƏRTAC-a Baş Prokurorluğun Mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, "Ekstradisiya haqqında" 1957-ci il tarixli Avropa Konvensiyasının tələblərinə uyğun olaraq Azərbaycan vətəndaşı Ələkbərov Əbülfət İbrahim oğlunun ekstradisiyası haqqında Baş Prokurorluğun vəsatətini Ukrayna Baş Prokurorunun Ofisi təmin edib. Əbülfət Ələkbərovun təkrar törədilməklə qanunsuz olaraq narkotik vasitələri satma cinayət əməlini törətməsinə əsaslı şübhələr müəyyənləşdirildiyindən, o, Astara Rayon Polis Şöbəsinin istintaq bölməsi tərəfindən təqsirləndirilən şəxs qismində cəlb edilib və istintaqdan qaçıb gizləndiyinə görə beynəlxalq axtarışa verilib.

Avqustun 11-də Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin xüsusi konvoyunun müşayiəti ilə həmin şəxs Ukraynadan ölkəmizə gətirilib.

OXUCULARIN NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" qəzetinə abunə yazılışı davam edir!

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |




**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Mərkəzi Bankında istifadə olunan standart proqram təminatları üzrə lisenziyaların satın alınması ilə bağlı elan edilmiş və elektron satınalma prosedurları çərçivəsində keçirilmiş açıq tender üzrə Satınalmalar komissiyasının 14 iyul 2023-cü il tarixli qərarına əsasən "BUZ TECH" MMC qalib elan edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Satınalmalar komissiyası***

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi "Əlilliyi olan şəxslər arasında idman tədbirlərinin keçirilməsi və onların yarışlarda (beynəlxalq və ya ölkədaxili) iştirakına şərait yaradılması" adlı **müsabiqə keçirir**

Müsabiqədə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər.

İştirak haqqı yoxdur. Maraqlanan təşkilatlar müsabiqənin Əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti, 1965, "Çinar Park" biznes mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri 25 avqust 2023-cü il saat 17:00-dan gec olmayaraq agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır.

**Müsabiqə 28 avqust 2023-cü il saat 11:00-da agentliyin inzibati binasında keçiriləcəkdir.**

**Əlaqə telefonu: (012) 525-41-30 (daxili-5037)**

***Müsabiqə komissiyası***

# Bəzi rayonlarda 42-44 dərəcə isti olacağı gözlənilir

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, avqustun 12-də Bakıda və Abşeron yarımadasında hava yağmursuz keçəcək. Cənub-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 24-28°, gündüz 37-40°, bəzi yerlərdə 41-42° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı - 755 millimetr civə sütunu, nisbi rütubət gecə 70-80, gündüz 30-40 faiz təşkil edəcək.

Abşeron çimərliklərində cənub-şərq küləyi əsəcək. Dəniz suyunun temperaturu şimal çimərliklərində - Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zuğulbada 27-28°, cənub çimərliklərində - Türkan, Hövsan, Sahil, Şıxda 28-29° isti olacaq.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yüksək dağlıq ərazilərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 23-28°, gündüz 35-40°, bəzi yerlərdə 42-44° isti, dağlarda gecə 16-21°, gündüz 29-34° isti olacağı ehtimal edilir.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Arabir güclənən şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 23-28°, gündüz 37-40°, bəzi yerlərdə 42-44° isti olacağı proqnozlaşdırılır.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, Daşkəsən, Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 18-23°, gündüz 29-34°, bəzi yerlərdə 36-38° isti olacağı bildirilir.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 17-22°, gündüz 27-32°, bəzi yerlərdə 35-39° isti olacağı ehtimal edilir.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Füzuli rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 22-27°, gündüz 35-40°, bəzi yerlərdə 42° isti olacağı ehtimalı var.

Mingəçevir şəhərində, Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Ağdaş, Göyçay, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yüksək dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək, gündüz bəzi şərq rayonlarında arabir güclənəcək. Havanın temperaturunun gecə 22-27°, gündüz 35-39° isti, bəzi yerlərdə 40° isti, dağlarda gecə 16-21°, gündüz 29-34° isti olacağı gözlənilir.

Şirvan şəhərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Saatlı, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında hava günəşli olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 23-28°, gündüz 38-40°, bəzi yerlərdə 42-44° isti olacaq.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabad rayonlarında hava günəşli olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 21-26°, gündüz 35-40° isti, dağlarda gecə 18-21°, gündüz 30-34° isti olacağı proqnozlaşdırılır.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

**ALLAH RƏHMƏT ELƏSİN!**

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə, QMİ Qazılar Şurası və idarənin kollektivi Qazılar Şurasının üzvü Mərəhmət Mustafayevə qardaşı

**NƏHMƏDİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 5453
Sifariş 2000

Qiyməti 40 qəpik